Xalqın qəzeti!

# Xalq qəzeti

№ 185 (30879) 2 sentyabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Bədnam Minsk Qrupu tarixə qovuşdu

**2025-ci il sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub.**

Səhifə ⇨ 6

# Azərbaycan Avrasiyanın aparıcı nəqliyyat mərkəzinə çevrilib

## *Azərbaycan Prezidenti İlham Əliyevin Çinə işgüzar səfəri*

## Azərbaycan Prezidenti İlham Əliyevin Çinin Sədri Si Cinpin ilə görüşü

**Avqustun 31-də Çinin Tiencin şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olub.**



Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin birgə foto çəkdirdilər.

Prezident İlham Əliyevi "mənim əziz dostum" deyərək salamlayan Çin Xalq Respublikasının Sədri Si Cinpin dövlətimizin başçısına onun dəvətini qəbul edərək "ŞƏT plyus" formatında Zirvə toplantısında, həmçinin Çinin xarici hərbi müdaxilə və faşizm üzərində qələbəsinin 80 illiyi münasibətilə keçiriləcək təntənəli tədbirlərdə və hərbi paradda iştirakına görə təşəkkürünü bildirdi.

Si Cinpin Azərbaycan ilə Çin arasında 30 ildən artıq dövr ərzində uğurlu əməkdaşlıq münasibətlərinin qurulduğunu və hazırda əlaqələrimizin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyini vurğulayaraq, Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfərini məmnunluqla xatırladı, bu səfər çərçivəsində aparılmış müzakirələrin əhəmiyyətinə toxundu.

Çin Xalq Respublikasının Sədri ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığını, energetika, o cümlədən bərpaolunan enerji, rəqəmsallaşma sahələrində əməkdaşlığın genişləndiyini vurğuladı. Si Cinpin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində də Azərbaycan-Çin əməkdaşlığının möhkəmləndiyini deyərək, Azərbaycan ərazisindən Çin mallarının daşınmasının əhəmiyyətini qeyd etdi, bu xüsusda Trans-Xəzər marşrutunun önəminə toxundu.

Çin Xalq Respublikasının Sədri bildirdi ki, ölkəsi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin genişlənməsini dəstəkləyir.

Si Cinpin Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün təmin olunması istiqamətində birbaşa dialoqun əhəmiyyətini qeyd etdi. Həmçinin Çin Xalq Respublikasının Sədri ölkəmizin suveren inkişaf modelinin Çin tərəfindən dəstəkləndiyini dedi, Çinin başqa ölkələrin daxili işlərinə qarışmamaq prinsipinə sadiq olduğunu vurğuladı.

Dövlətimizin başçısı dəvətə görə təşəkkürünü bildirdi, Çin Xalq Respublikasının xarici hərbi müdaxilə üzərində qələbəsinin 80 illiyi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev də öz növbəsində Çin Xalq Respublikasına dövlət səfərini məmnunluqla xatırlayaraq, səfər zamanı Si Cinpinlə görüşlərini və aparılmış dialoqun iki ölkə arasında əməkdaşlığın hərtərəfli inkişafına ciddi təkan verdiyini qeyd etdi, müfəssəl strateji tərəfdaşlığa dair imzalanmış sənədin əhəmiyyətini vurğuladı.

*(ardı 2-ci səhifədə)*

## Pekində açıqlanan siyasi kodlar

### *İlham Əliyevin strateji tərəfdaşlıq diplomatiyası*




**Qlobal siyasətdə liderlərin şəxsi keyfiyyətləri və siyasi üslubu bəzən dövlətlərin beynəlxalq mövqeyini formalaşdıran əsas amillərdən birinə çevrilir. Azərbaycan Prezidenti İlham Əliyev məhz bu kontekstdə diqqət çəkir. Prezidentin liderlik portreti daxili siyasətdə sabitliyi təmin etmək bacarığı ilə yanaşı, həm də xarici siyasətdə güclü strateji düşüncə tərzi ilə seçilir. İlham Əliyevin diplomatiyasında hesablanmış qərarlar, ardıcıllıq və məqsədyönlülük əsas istiqamətlər kimi özünü göstərir.**

*(ardı 7-ci səhifədə)*

## Bakı-İrəvan sülhü: tarixin təkrarlanma ehtimalı



Səhifə ⇨ 8

## ABŞ Avropanı Hindistanın üstünə qaldırır

Səhifə ⇨ 15

## Hindistanın "əngəl" siyasəti iflasa məhkumdur

### *Azərbaycan–Pakistan qardaşlığına qarşı çıxmaq mümkün deyil*



**Azərbaycan və Pakistan arasında strateji tərəfdaşlıq və qardaşlıq münasibətləri hər zaman yüksək səviyyədə olub. Xüsusilə Ermənistanla müharibə şəraitində yaşadığımız dövrdə, eləcə də İkinci Qarabağ müharibəsi zamanı və ondan sonra İslamabadın Bakıya göstərdiyi siyasi və mənəvi dəstək Azərbaycan cəmiyyətində böyük rəğbətlə qarşılanıb. Öz növbəsində Azərbaycan da Hindistana dəstəyini heç zaman əsirgəməyib. Ölkəmiz Cammu və Kəşmirlə bağlı problemin beynəlxalq hüququn norma və prinsiplərinə tam riayət edilərək sülh yolu ilə həllini dəstəkləyir.**

Azərbaycan 2025-ci ilin aprel-may aylarında Hindistanın Pakistana qarşı hərbi təcavüzü zamanı qardaş dövlətlə həmrəylik nümayiş etdirib və siyasi dəstək göstərib. Lakin bu yaxınlaşma Hindistanın narazılığına səbəb olub və Nyu-Dehli müxtəlif beynəlxalq platformalarda Azərbaycana qarşı təzyiq imkanları axtarmağa başlayıb. Hindistanın mövqeyində həm geosiyasi maraqlar, həm də Pakistanla dərinləşən qarşıdurma mühüm rol oynayır.

*(ardı 6-cı səhifədə)*

## Zəngəzur dəhlizi və postmünaqişə arxitekturası

### *Bu layihə qlobal inteqrasiyaya yeni qapı açacaq*

**Müasir beynəlxalq münasibətlər sistemində iqtisadi marşrutlar, xüsusilə də enerji, logistika və ticarət dəhlizləri təhlükəsizlik siyasətinin ayrılmaz elementinə çevrilib. Zəngəzur dəhlizi də bu baxımdan istisna deyil. Marşrutun Cənubi Qafqazdan keçməsi regionun strateji çəkisini artırmaqla yanaşı, onu qlobal iqtisadi sistemin sabitliyi üçün vacib zolağa çevirir. Marşrutun aktiv işləməsi regionda hərbi qarşıdurmaların başvermə ehtimalını ciddi şəkildə azaldır. Çünki böyük güclər üçün iqtisadi maraqlar müharibə risklərini ikinci plana keçirir.**




"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi adlandırılmış Zəngəzur dəhlizi vasitəsilə ticarət və nəqliyyat şəbəkəsinin formalaşması Cənubi Qafqazı yalnız regional deyil, qlobal maraqların kəsişdiyi təhlükəsizlik zonası halına gətirir. Avropa İttifaqı ölkələri, Çin, Türkiyə, Böyük Britaniya və digər beynəlxalq tərəfdaşlar marşrutun fasiləsiz işləməsində və müdafiəsində birbaşa maraqlıdırlar. Bu isə regional təhlükəsizliyin kollektiv məsuliyyətə çevrilməsi deməkdir. Yaranmış vəziyyət birtərəfli hərbi və siyasi təsir imkanlarını ciddi şəkildə məhdudlaşdırır. ABŞ, Çin və Böyük Britaniyanın bu marşrutda paralel iştirak etməsi regional balansın qorunmasında çoxqütblü yanaşmanı gücləndirəcək.

*(ardı 6-cı səhifədə)*

## Qəhrəmanlığın Mübariz zirvəsi



Səhifə ⇨ 13

# Azərbaycan Prezidenti İlham Əliyevin Çinin Sədri Si Cinpin ilə görüşü

**(əvvəli 1-ci səhifədə)**



Azərbaycan Prezidenti ölkəmizin xarici siyasətində Çin Xalq Respublikası ilə əlaqələrin inkişaf etdirilməsinin prioritet istiqamətlərdən biri olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın Tayvan, Honkonq və Sincan-Uyğur Muxtar Rayonu məsələlərində Çinin mövqeyini dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri pisləyən ilk ölkələrdən biri olduğunu qeyd etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasındakı ticarət münasibətlərində əsaslı artımın müşahidə olunduğunu dedi. Dövlətimizin başçısı "Bir kəmər, bir yol" layihəsinə toxunaraq, onun vacib tərkib hissəsi olan və Azərbaycan ərazisindən keçən Orta Dəhliz vasitəsilə daşımaların, xüsusilə Çin yüklərinin daşınmasının artmasını bu dəhlizin səmərəliliyinin və cəlbediciliyinin nümunəsi kimi qiymətləndirdi.

Prezident İlham Əliyev, həmçinin Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh gündəliyi üzrə danışıqların ikitərəfli əsasda aparıldığını dedi, artıq iki ölkə arasında sülhün bərqərar olduğunu vurğuladı.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də daim bir-birini dəstəklədiyi məmnunluqla qeyd edildi. Vizasız gediş-gəlişə dair sənədin qüvvəyə minməsindən sonra son dövrlərdə turizm sahəsində əlaqələrin inkişaf etdiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanla Çin arasında əməkdaşlığın perspektivlərinə dair geniş fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev "China Energy Engineering Corporation Limited" şirkətinin rəhbərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Çinin Tiencin şəhərində "China Energy Engineering Corporation Limited" ("Energy China") şirkətinin prezidenti və sədri vəzifəsini icra edən Ni Cen ilə görüşüb.**



Görüşdə ölkəmizlə, həmçinin SOCAR ilə bu şirkət arasında alternativ və bərpaolunan enerji layihələrini əhatə edən səmərəli əməkdaşlıqdan məmnunluq bildirildi.

Bu xüsusda "Energy China"nın yaşıl enerji sahəsində, o cümlədən Azərbaycanda Günəş elektrik stansiyalarının, dənizdə külək enerjisi stansiyalarının tikintisi sahəsində əməkdaşlığı vurğulandı.

Ni Cen ölkəmizdə yeni layihələr, o cümlədən tullantı sularının təmizlənməsi, emalı və təkrar istifadəsi, su ehtiyatlarının idarə edilməsi ilə bağlı əməliyyatların optimallaşdırılması, həmçinin su hövzələrində fotovoltaik elektrik panellərinin birgə inşası layihələrini həyata keçirməkdə maraqlı olduqlarını bildirdi.

## "CETC" korporasiyasının baş direktoru ilə fikir mübadiləsi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Çinin Tiencin şəhərində "CETC" ("China Electronics Technology Group Corporation") korporasiyasının baş direktoru Cu Pen ilə görüşüb.**

Görüşdə rəqəmsal texnologiyalar vasitəsilə milli idarəetmə sistemi və idarəetmə qabiliyyətlərinin müasirləşdirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı, milli şəbəkə təhlükəsizliyinin təmin olunması, kibertəhlükəsizlik və data tətbiqləri sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.



## Azərbaycan rəhbəri "Sichian Sunsync Photovoltaic Technology Co" şirkətinin sədri ilə söhbət aparıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Çinin Tiencin şəhərində "Sichian Sunsync Photovoltaic Technology Co" şirkətinin təsisçisi və sədri Sie İ ilə görüşüb.**



Görüşdə Azərbaycanla şirkət arasında gələcək əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Ələt Azad İqtisadi Zonasında yaxın gələcəkdə Günəş panellərinin istehsalı ilə bağlı ən müasir texnoloji standartlara cavab verəcək müəssisənin yaradılması ilə əlaqədar məsələlər müzakirə olundu. Vurğulandı ki, burada istehsal ediləcək məhsulların böyük hissəsinin dünya bazarlarına ixracı nəzərdə tutulur.

Sie İ ölkəmizdə əlverişli investisiya mühitinin yaradıldığını və Azərbaycanla Çin arasında mövcud olan strateji əlaqələri nəzərə alaraq məhz Azərbaycana investisiya qoymaq barədə qərara gəldiklərini dedi.

## "CCCC" şirkətinin sədri ilə müzakirə



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Çinin Tiencin şəhərində "CCCC" ("China Communications Construction Company") şirkətinin sədri Son Haylian ilə görüşüb.**

Görüşdə Azərbaycanla şirkət arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı, ölkəmizdə əlverişli investisiya mühitinin yaradıldığı bildirildi.

Həmçinin Trans-Xəzər nəqliyyat dəhlizinin inkişafı və Bakı Beynəlxalq Dəniz Limanının ikinci mərhələsində bu şirkətin iştirakına dair fikir mübadiləsi aparıldı.

Söhbət zamanı şirkətin fəaliyyət sahələrinə daxil olan istiqamətlər - nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, o cümlədən metro stansiyalarının tikintisi, avadanlıq istehsalı və şəhər nəqliyyatının kompleks inkişafı ilə bağlı məsələlər müzakirə olundu.

Son Haylian Abşeron yarımadasında göllərin təmizlənməsi və bərpası ilə əlaqədar konseptual təkliflər təqdim edəcəklərini bildirdi.

Görüşdə dünyanın mühüm nəqliyyat qovşağına çevrilmiş Azərbaycanın nəqliyyat və tranzit potensialının daha da artırılması üçün həyata keçirilən genişmiqyaslı layihələr barədə fikir mübadiləsi aparıldı.

# Dövlət və hökumət başçılarının və xanımlarının şərəfinə ziyafət, konsert proqramı





**Avqustun 31-də "Tianjin Meijiang" Beynəlxalq konqres və sərgi mərkəzində Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuanın adından dövlət və hökumət başçıları və xanımlarının şərəfinə ziyafət verilib və konsert proqramı təqdim olunub.**

Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladılar.

Sonra dövlət və hökumət başçıları və xanımları birgə foto çəkdirdilər.



## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü





**Sentyabrın 1-də Çinin Tiencin şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.**

Görüşdə qardaşlıq və strateji müttəfiqliyə əsaslanan ikitərəfli əlaqələrimizin bütün istiqamətlərdə, o cümlədən enerji, nəqliyyat sahələrində daha da genişlənməsindən məmnunluq ifadə olunub.

Söhbət zamanı SOCAR ilə Türkiyənin "Botaş" şirkəti arasında əməkdaşlığa toxunulub və bu xüsusda Azərbaycan qazının Qətərin maliyyə dəstəyi ilə Türkiyə ərazisindən Suriyaya çatdırılmasının önəmi qeyd edilib. Həmçinin Azərbaycanla Türkiyənin digər ölkələrdə birgə enerji layihələrinin icrasına dair məsələlər müzakirə olunub.

Bir neçə gün əvvəl Qars–İğdır–Dilucu dəmir yolu xəttinin təməlinin qoyulmasının əhəmiyyəti vurğulanıb, Azərbaycanda, o cümlədən Naxçıvan regionunda həyata keçirilən dəmir yolu layihələri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanla Ermənistan arasında normallaşma prosesi müzakirə olunub və bu xüsusda Türkiyənin regional məsələlərdə sabitləşdirici rolu yüksək qiymətləndirilib.

Türk Dövlətləri Təşkilatının bu il Azərbaycanda keçiriləcək növbəti Zirvə görüşünün əhəmiyyətinə toxunulub.

Dövlət başçıları Azərbaycan–Türkiyə strateji müttəfiqlik əlaqələrinin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi apardılar.

## Azərbaycan liderinin Maldiv Prezidenti ilə məsləhətləşməsi



**Sentyabrın 1-də Çinin Tiencin şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Maldiv Respublikasının Prezidenti Məhəmməd Muizzu ilə görüşü olub.**

Maldiv Prezidenti COP29 çərçivəsində Azərbaycana səfərini və dövlətimizin başçısı ilə görüşü zamanı aparılmış müzakirələri məmnunluqla xatırladı, COP29 konfransının yüksək səviyyədə təşkil olunduğunu qeyd etdi.

Prezident İlham Əliyev də öz növbəsində Məhəmməd Muizzu ilə Bakıda keçirdiyi görüşə toxundu, aparılmış müzakirələr zamanı qarşıya qoyulmuş tapşırıqlara uyğun olaraq Azərbaycan nümayəndə heyətinin Maldivə səfər etdiyini, orada siyasi məsləhətləşmələrin aparıldığını və iqtisadi-ticari, investisiya sahələrində əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında turizm və insanlararası təmasların artırılması baxımından böyük potensialın olduğu bildirildi. Azərbaycandan Maldivə birbaşa uçuşların turizmin inkişafında roluna toxunuldu, viza prosedurunun sadələşdirilməsi, qarşılıqlı investisiyalar sahələrində əməkdaşlıq, həmçinin ölkələrimiz arasında hüquq-müqavilə bazasının genişləndirilməsi məsələləri müzakirə olundu.

Məhəmməd Muizzu dövlətimizin başçısını Maldivə rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

## Asiya İnfrastruktur İnvestisiya Bankının prezidenti ilə müzakirə



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Çinin Tiencin şəhərində Asiya İnfrastruktur İnvestisiya Bankının prezidenti Cin Liqun ilə görüşüb.**

Görüşdə Azərbaycanla Asiya İnfrastruktur İnvestisiya Bankı arasında əlaqələrin mövcud səviyyəsindən məmnunluq ifadə olundu, bankın ölkəmizlə müxtəlif sahələrdə, o cümlədən yaşıl enerji sahəsində uğurlu əməkdaşlığı qeyd edildi.

Söhbət zamanı Orta Dəhliz, metro tikintisi, su, yaşıl enerji ilə bağlı gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.

Sonda strateji əməkdaşlıq üzrə imzalanmış birgə bəyannamə dövlətimizin başçısının və bankın prezidentinin iştirakı ilə mübadilə edildi.

# Prezident İlham Əliyevin Pakistanın Baş naziri ilə görüşü



**Sentyabrın 1-də Çinin Tiencin şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə görüşü olub.**

Məhəmməd Şahbaz Şərif bu ilin aprel-may aylarında Hindistanın Pakistana qarşı hərbi təcavüzü zamanı Azərbaycanın göstərdiyi siyasi dəstəyə və həmrəyliyə görə Pakistan xalqı və hökuməti adından dövlətimizin başçısına bir daha təşəkkürünü bildirdi.

Azərbaycan-Pakistan əlaqələrinin qardaşlığa əsaslandığını deyən dövlətimizin başçısı Pakistanın Hindistan üzərində qələbəsi münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev ölkəmizin Pakistana göstərdiyi dəstəyə cavab olaraq Hindistanın beynəlxalq təşkilatlarda Azərbaycandan qisas almağa çalışdığını dedi. Bunun ölkəmiz üçün heç bir əhəmiyyət daşımadığını vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan üçün qardaşlıq münasibətləri hər şeydən üstündür.

Məhəmməd Şahbaz Şərif Azərbaycana səfərlərini məmnunluqla xatırladı, həmçinin Laçında Azərbaycan, Türkiyə və Pakistan arasında üçtərəfli formatda keçirilmiş görüşün əhəmiyyətini qeyd etdi.

Dövlətimizin başçısı öz növbəsində üçtərəfli əsasda - Azərbaycan-Türkiyə-Pakistan formatında müzakirə olunan məsələlərin həyata keçirilməsi istiqamətində addımların atıldığını vurğuladı.

Pakistanın Baş naziri Prezident İlham Əliyevə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh günvdəliyi ilə əlaqədar əldə olunmuş nəticələr münasibətilə təbriklərini çatdırdı, bunun tarixi əhəmiyyət daşıdığını qeyd etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə edilmiş uğurların regionda davamlı sülhün təmin olunması baxımından önəminə toxundu.

Prezident İlham Əliyev, həmçinin Vaşinqtona səfərinin Azərbaycan-ABŞ əlaqələrinin inkişafı baxımından da mühüm əhəmiyyətə malik olduğunu dedi və bütün bu proseslərdə ABŞ Prezidenti Donald Trampın rolunu xüsusi vurğuladı.

Görüşdə Azərbaycanla Pakistan arasında hökumətlərarası komissiyanın fəaliyyətinə toxunuldu, mövcud siyasi münasibətlərimizin ruhuna uyğun olaraq iqtisadi, ticari əlaqələrin inkişafına dair müzakirələr aparıldı, hökumət üzvlərinə əlavə tapşırıqlar verildi. Azərbaycanın "ASAN xidmət" modelinə uyğun olaraq Pakistanda da analoji layihənin həyata keçirilməsi məsələsi müsbət addım kimi qiymətləndirildi.

# İlham Əliyevin Nikol Paşinyanla dialoqu



**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Sammiti çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşüb.**

Liderlər Azərbaycan–Ermənistan sülh gündəliyini müzakirə edərək, konstruktiv dialoqun, qarşılıqlı etimadın və regional sabitliyin əhəmiyyətini vurğulayıblar. Hər iki lider sülhün və normallaşma prosesinin irəlilədilməsinə dair beynəlxalq dəstəyi bir daha təsdiqləyən son Vaşinqton Sammiti zamanı əldə edilən müsbət dinamikanı qeyd ediblər.

Tərəflər təmasları davam etdirmək barədə razılığa gəliblər.

# Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında görüş keçirilib

## *Prezident İlham Əliyev məclisdə çıxış edib*







Sentyabrın 1-də Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında görüş keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Çin Xalq Respublikasının Sədri Si Cinpin.

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri, xanımlar və cənablar.

İlk növbədə, ŞƏT Sammitinə dəvətə, səmimi qəbula və tədbirin yüksək səviyyədə təşkilinə görə Sədr Si Cinpinə səmimi minnətdarlığımı bildirirəm.

Dost Çin dövlətini ŞƏT-də uğurlu sədrliyi münasibətilə təbrik edir, qarşıya qoyulan məsələlərin həyata keçirilməsində uğurlar arzulayıram.

Azərbaycanla Çin arasında səmimi dostluq münasibətləri və hərtərəfli strateji tərəfdaşlıq bağları mövcuddur. Bu əlaqələrin dərinləşdirilməsi Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biridir.

Son iki ildə əlaqələrimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Ötən il Astanada keçirilmiş ŞƏT Sammiti çərçivəsində biz strateji tərəfdaşlıq qurduq. Bu il mənim Çinə dövlət səfərim zamanı hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin təsis edilməsi barədə Birgə Bəyanat imzalandı. Bu tarixi hadisə Azərbaycan–Çin münasibətlərində yeni bir səhifə açdı.

Azərbaycan beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi məqsədilə Çin tərəfindən irəli sürülmüş Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləmişdir. Biz, həmçinin Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəetmə Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış bir addım kimi alqışlayırıq.

Azərbaycan Ələt Beynəlxalq Dəniz Limanının buraxılış qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona çatdırmaq niyyətindədir.

Orta Dəhliz Azərbaycan vasitəsilə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. 2022-ci ildən bəri Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımaların həcmi təxminən 90 faiz artıb. Yüklərin bu dəhliz üzrə keçid müddəti əhəmiyyətli dərəcədə azalıb.

Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantının yaradılması üzrə bu yaxınlarda əldə olunmuş razılaşmalar beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarının genişlənməsinə xidmət edəcək.

Əminəm ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək.

Sonda hörmətli Sədr Si Cinpinə dəvətə görə bir daha təşəkkürümü bildirir, Sammit iştirakçılarına səmərəli iş arzulayıram.

Azərbaycan ilə Çin arasındakı qarşılıqlı fəaliyyət ikitərəfli gündəliyin bütün spektri üzrə möhkəmlənir. Bu, siyasi, iqtisadi-ticari, sərmayə, enerji, nəqliyyat-logistika sahələrini, rəqəmsal iqtisadiyyatın, elm və texnologiyanın, təhsil və mədəniyyətin inkişafını ehtiva edir. Bu ilin iyul ayından bəri hər iki ölkənin vətəndaşları üçün vizasız rejim tətbiq olunur ki, bu da turizmin inkişafına təkan verir.

Azərbaycan regionda Çinin etibarlı tərəfdaşıdır. Biz beynəlxalq və regional sülhün və təhlükəsizliyin qorunmasına töhfə veririk, genişmiqyaslı iqtisadi, nəqliyyat və enerji layihələri həyata keçiririk.

Azərbaycan Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biridir. Bu istiqamətdə ciddi praktiki layihələr reallaşdırırıq.

Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biridir. Biz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradırıq. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri yeni iqtisadi və nəqliyyat perspektivləri yaradıb.

***

Qeyd edək ki, "ŞƏT plyus" formatında keçirilən görüşə 20-dən çox ölkənin liderləri və 10 beynəlxalq təşkilat rəhbəri qatılıb. Azərbaycan Prezidenti İlham Əliyev bundan əvvəl 2022-ci ildə Səmərqənddə və 2024-cü ildə Astanada ŞƏT-in Zirvə toplantılarının iştirakçısı olub.

Təşkilat 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. ŞƏT-in tamhüquqlu iştirakçıları 10 ölkə - Rusiya, Belarus, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Çin, Pakistan, Tacikistan və Özbəkistandır. Hazırda Əfqanıstan və Monqolustan təşkilatda müşahidəçi, Azərbaycan, Bəhreyn, Misir, Kamboca, Ermənistan, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Türkiyə və Şri-Lanka isə təşkilatın dialoq tərəfdaşı statusuna malikdirlər.

ŞƏT-in məqsədi regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi, iqtisadi əməkdaşlığın, enerji tərəfdaşlığının, elmi və mədəni fəaliyyətin inkişafıdır. Təşkilata üzv dövlətlərin başçılarının görüşləri 2002-ci ildən hər il keçirilir.

# Qırğız Respublikasının Prezidenti Zati-aliləri cənab Sadır Japarova

**Hörmətli Sadır Nurqojoyeviç!**

Qırğız Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizin rəhbərliyiniz altında qardaş Qırğızıstanda genişmiqyaslı quruculuq işləri və islahatlar həyata keçirilərək sosial-iqtisadi tərəqqi sahəsində sanballı uğurlar əldə olunmuşdur.

Ortaq mənəvi dəyərlər və tarixi-mədəni köklər ilə bir-birinə bağlı olan ölkələrimiz arasında münasibətlərin hazırkı inkişaf dinamikası məmnunluq doğurur.

Azərbaycan-Qırğızıstan əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi xalqlarımızın sarsılmaz iradəsinin və əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində əzmimizin bariz təzahürüdür.

Əminəm ki, dostluq və qardaşlıq əlaqələrimizin xoş ənənələrini yaşatmaq və möhkəmləndirmək, ikitərəfli və çoxtərəfli qaydada işbirliyimizi daha da genişləndirmək yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Qırğız Respublikasına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 28 avqust 2025-ci il**

# Malayziyanın Kralı Əlahəzrət Sultan İbrahimə

**Əlahəzrət!**

Malayziyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və arzularımı çatdırıram.

Xoş ənənələr üzərində qurulan Azərbaycan-Malayziya dövlətlərarası əlaqələrinin, qarşılıqlı inam və dəstəyə əsaslanan əməkdaşlığının inkişafı və genişlənməsi məmnunluq doğurur.

Əminəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq ölkələrimiz arasında dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcək və daha da möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Malayziya xalqına daim rifah və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 28 avqust 2025-ci il**

# Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri cənab Şavkat Mirziyoyevə

**Hörmətli Şavkat Miromonoviç!**
***Əziz Qardaşım!***

Qardaş Özbəkistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu gün Sizin müəyyən etdiyiniz yeni Özbəkistan strategiyası əsasında ölkənizin sürətli və hərtərəfli inkişafı, bütün sahələrdə tərəqqisi, iqtisadi gücünün artması, qlobal müstəvidə nüfuzu və mövqelərinin möhkəmlənməsinin şahidi olmaqdan qardaş ölkə olaraq sevinc hissi duyuruq. Özbəkistanın əldə etdiyi bütün nailiyyətlər Sizin çoxşaxəli fəaliyyətinizin, uzaqgörən siyasətinizin, Vətənə və xalqa şərəfli xidmətinizin nəticəsidir.

Azərbaycan–Özbəkistan münasibətləri ortaq tarixi, dili, mədəniyyəti paylaşan xalqlarımız arasında formalaşmış qardaşlıq əlaqələrinin xoş ənənələrini özündə bariz şəkildə əks etdirir.

Dövlətlərarası əlaqələrimizin hazırda yüksələn xətt üzrə dinamik inkişaf etməsində ali səviyyəli qarşılıqlı səfərlər və görüşlər mühüm rol oynayır. İyul ayında Sizin Azərbaycana dövlət səfəriniz ikitərəfli münasibətlərimizin müttəfiqlik xarakterini bir daha təsdiqlədi. İnanıram ki, Azərbaycan-Özbəkistan əlaqələrinin gələcək fəaliyyət istiqamətlərinə dair əldə etdiyimiz mühüm razılaşmalar, müxtəlif sahələr, xüsusilə də iqtisadi tərəfdaşlığın şaxələndirilməsi üzrə imzalanmış bir sıra sənədlər əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsinə, müttəfiqlik münasibətlərimizin daha da möhkəmlənməsinə və dərinləşməsinə töhfələr verəcəkdir.

Biz qardaş Özbəkistan ilə gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımızı, xüsusilə də iqtisadi-ticari, enerji, investisiya, kənd təsərrüfatı, nəqliyyat-logistika sahələrində səmərəli fəaliyyətimizi bundan sonra da birgə səylərimizlə genişləndirmək əzmindəyik. Yüksək səviyyədə qarşılıqlı anlaşmanın, etimad və inamın mövcudluğu bunun üçün əlverişli zəmin yaradır.

Əminəm ki, Azərbaycan–Özbəkistan qardaşlığı bundan sonra da bütün birgə təşəbbüslərimizin gerçəkləşməsində mühüm rol oynayaraq, ölkələrimizin inkişafına, xalqlarımızın rifahına xidmət edəcəkdir.

Hörmətli Şavkat Miromonoviç,

Belə bir əlamətdar gündə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, şərəfli və məsul fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 29 avqust 2025-ci il**

# Slovakiya Respublikasının Prezidenti Zati-aliləri cənab Peter Pelleqriniyə

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq və əməkdaşlıq münasibətləri bizim üçün əhəmiyyətlidir. Azərbaycan-Slovakiya əlaqələrinin hazırkı inkişaf dinamikası məmnunluq doğurur. Tərəfdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda uğurlu işbirliyimizi xüsusi qeyd etmək istərdim.

Bu gün Azərbaycan-Slovakiya əməkdaşlığının bir sıra sahələrdə genişlənməsi və yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar vardır. Əminəm ki, bu potensialdan tam bəhrələnərək və mövcud imkanlardan istifadə edərək birgə səylərimizlə dostluq münasibətlərimizin inkişafına, qarşılıqlı fəaliyyətimizin daha da dərinləşməsinə nail ola bilərik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Slovakiya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 29 avqust 2025-ci il**

# Mehriban Əliyeva "ŞƏT plyus" görüşünə qatılan birinci xanımların gəmi gəzintisində










**Azərbaycan Respublikasının Birinci xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva sentyabrın 1-də Çinin Tiencin şəhərində Çin Xalq Respublikasının birinci xanımı Pen Liyuan və "Şanxay Əməkdaşlıq Təşkilatı plyus" formatında keçirilən görüşdə iştirak edən dövlət və hökumət başçılarının xanımları ilə birlikdə Hayha çayında gəmi gəzintisində iştirak ediblər.**

*AZƏRTAC*

# Azərbaycan – ŞƏT: ortaq maraqların cazibədarlığı

**10–15 il öncə Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün siyasi təqdimatı kimi qəbul edilən Şanxay Əməkdaşlıq Təşkilatının məqsədi qısaca belə ifadə edilə bilərdi: Ticarət-iqtisadi, nəqliyyat, loqistika və enerji əlaqələrinin gücləndirilməsi yolu ilə Çin və Mərkəzi Asiya regionunda inkişafı təmin etmək.**



O zaman iştirakçı ölkələr arasında etimadın və mehriban qonşuluğun möhkəmləndirilməsi yolu ilə siyasi, iqtisadi və humanitar əməkdaşlığın inkişafı əsas hədəf götürülmüşdü. Müxtəlif təmayüllü terrorizm, ekstremist və silahlı separatizmlə mübarizə, eləcə də narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə tədbirlər isə regional sabitliyin və təhlükəsizliyin təşviqi ilə nəticələnməli idi.

İştirakçı ölkələr belə təşviqləri milli maraqların qorunması, müstəqil inkişaf yolu ilə formalaşdırdıqları idarəetmə modeli ilə irəliləmək üçün dəstək kimi də nəzərdə tuturdular.

Daha çox ticarət əlaqələrini özündə ehtiva edən Şanxay Əməkdaşlıq Təşkilatı regional təhlükəsizlik, terrorizm, separatizm, ekstremizmlə birgə mübarizə tədbirləri çərçivəsində daha dərin əməkdaşlığı da nəzərdə tuturdu. Sülh və stabilliyin vacib təməlləri kimi bu sahələrdə qarşılıqlı əməkdaşlıq, nəqliyyat və enerji infrastrukturlarının inkişafı iştirakçı ölkələr arasında kiber çağrışlar və rəqəmsal iqtisadiyyat üzrə əməkdaşlığı gücləndirirdi.

O ki qaldı Azərbaycana, qeyd etməliyik ki, Qara dəniz və Xəzər dənizi arasında yerləşən, Xəzərin və Mərkəzi Asiyanın enerji mənbələrinin diversifikasiyasında mühüm rolu olan ölkə kimi Azərbaycan ŞƏT-in diqqətini təşkilat yarandığı ilk günlərdən cəlb edib. Bu yanaşmanın müqabilində münasibətlərimizin rəsmi statusu olan dialoqun tərəfdaş ölkəsi kimi Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlıq edir.

Dialoq formatı Şanxay Əməkdaşlıq Təşkilatının məqsədlərində nəzərdə tutulan istiqamətlər üzrə mövcud qarşılıqlı əlaqələrdən kənarda həm də təşkilatla gələcək əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi üçün imkan kimi nəzərdə tutulur. Azərbaycan ŞƏT-in iclasları və forumlarının fəal iştirakçısı olaraq qurumun fəaliyyəti və qərarları ilə bağlı müzakirələrə də qoşulur.

Ölkəmiz siyasi, iqtisadi və humanitar əməkdaşlıq çərçivəsində birgə layihələr həyata keçirir, terrorizm və narkotik ticarəti ilə mübarizə kimi birgə təhlükəsizlik təşəbbüslərində iştirak edir. Format, sadəcə, dialoq çərçivəsində əməkdaşlığın gücləndirilməsi anlamına gəlsə də, əsas məqsəd, əlbəttə, siyasi, iqtisadi və humanitar tərəfdaşlığın inkişafına zəmin yaratmaqdır. Qeyd edək ki, Çin və digər üzv ölkələr Azərbaycanın ŞƏT-ə müşahidəçi, yaxud üzv ölkə statusunda qoşulmasını arzu edirlər.

Cənub–Şimal və Qərb–Şərq enerji-nəqliyyat dəhlizi, strateji regionun nəqliyyat layihələrinin açar ölkəsi kimi Azərbaycanın ŞƏT-də müşahidəçi statusunda təmsil olunması da arzuediləndir. Bu status Çinin qitələrarası nüfuzunun artması baxımından Azərbaycanı həm də "Bir kəmər–bir yol" layihəsinin strateji bəndi olaraq cazibədar edir.

Xatırladaq ki, Azərbaycanın ŞƏT-də müşahidəçi statusda təmsil olunması və ya tamhüquqlu üzv kimi təmsilçiliyi ölkəmizdən daha çox Çinin marağındadır. Azərbaycan üçün isə ŞƏT-ə üzv dövlətlər, xüsusilə Mərkəzi Asiya regionu ölkələri yeni bazar perspektivi baxımından maraqlıdır.

***Yeganə HACIYEVA,***
***Mətbuat Şurası İdarə Heyətinin üzvü***

# Bədnam Minsk Qrupu tarixə qovuşdu

**2025-ci il sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub.**



Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, qərara əsasən, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin ABŞ Prezidentinin dəvəti və iştirakı ilə 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində baş tutmuş görüşü çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Fəaliyyətdə olan Sədrinə ünvanlanmış birgə müraciət məktubuna uyğun olaraq, ATƏT-in Minsk Prosesinin, ATƏT-in Fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının məşğul olduğu münaqişə üzrə Şəxsi Nümayəndəsinin və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə sentyabrın 1-dən etibarən xitam verilib.

Sözügedən strukturların bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 2025-ci il dekabrın 1-dən gec olmayaraq yekunlaşdırılması ATƏT Katibliyinə tapşırılıb.

Qərarda, həmçinin keçmiş Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı ATƏT çərçivəsində vaxtilə qəbul edilmiş bütün qərarlar qüvvədən düşmüş və etibarsız elan olunub.

Beləliklə, vaxtilə Ermənistan–Azərbaycan münaqişəsinin nizama salınması məqsədilə təsis edilmiş sözügedən institutların münaqişənin həlli nəticəsində yaranmış yeni şəraitdə lüzumsuz olması bütün ATƏT iştirakçı dövlətləri tərəfindən qəbul edilərək, həmin institutların bağlanması rəsmiləşdirilib.

"Sözügedən qərarın qəbulu, Azərbaycan Respublikasının vaxtilə işğal edilmiş əraziləri üzərində suveren nəzarətini və ərazi bütövlüyünü bərpa etməsi və bununla da Ermənistan–Azərbaycan münaqişəsinə son qoyulması ilə bağlı reallığın və Azərbaycan tərəfindən irəli sürülmüş sülh gündəliyinin beynəlxalq müstəvidə qəbul edilməsinin göstəricisi olmaqla yanaşı, 2025-ci il 8 avqust tarixli Vaşinqton görüşündə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi ilə əlaqədar əldə edilmiş razılıqların praktiki icrası istiqamətində mühüm addımdır.

Azərbaycan Respublikası bundan sonra da regionda sülhün və sabitliyin gücləndirilməsi istiqamətində beynəlxalq hüquqa əsaslanan prinsipial və ardıcıl mövqeyini davam etdirəcək", - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında vurğulanıb.

***XQ***

# Hindistanın "əngəl" siyasəti iflasa məhkumdur

**(əvvəli 1-ci səhifədə)**

Bu məsələyə sentyabrın 1-də Çinin Tiencin şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşündə də toxunuldu. Məhəmməd Şahbaz Şərif bu ilin aprel-may aylarında Hindistanın Pakistana qarşı hərbi təcavüzü zamanı Azərbaycanın göstərdiyi siyasi dəstəyə və həmrəyliyə görə Pakistan xalqı və hökuməti adından dövlətimizin başçısına bir daha təşəkkürünü bildirib.

Azərbaycan–Pakistan əlaqələrinin qardaşlığa əsaslandığını deyən dövlətimizin başçısı Pakistanın Hindistan üzərində qələbəsi münasibətilə təbriklərini çatdırıb. Prezident İlham Əliyev ölkəmizin Pakistana göstərdiyi dəstəyə cavab olaraq Hindistanın beynəlxalq təşkilatlarda Azərbaycandan qisas almağa çalışdığını deyib. Bunun ölkəmiz üçün heç bir əhəmiyyət daşımadığını vurğulayan dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan üçün qardaşlıq münasibətləri hər şeydən üstündür.




***

Bu arada Hindistanın yenidən Azərbaycana Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) tamhüquqlu üzvlük verilməsinə qarşı çıxdığı məlum olub. Bu barədə "AnewZ" telekanalı məlumat yayıb. Rəsmi Pekin təşkilata üzv dövlət başçılarının 31 avqust – 1 sentyabr tarixlərində Tiencin şəhərində keçirilən 25-ci sammitində Azərbaycanın ərizəsini dəstəklədiyini təsdiqləyib və onun "Şanxay ruhu" prinsiplərinə uyğun olduğunu qeyd edib. "Öz növbəsində vəziyyətlə tanış olan rəsmi şəxslər "AnewZ"a bildiriblər ki, Hindistanın qərarı çoxtərəfli diplomatiya və "Şanxay ruhu" prinsiplərinə ziddir. Bu prinsiplər ikitərəfli mübahisələrin çoxtərəfli platformalara köçürülməsinin yolverilməzliyini nəzərdə tutur. Bu məlumatlara əsasən, Hindistanın mövqeyi Azərbaycanın Pakistanla qardaşlıq münasibətləri ilə sıx bağlıdır", – deyə telekanal qeyd edib. Telekanalın müsahiblərindən biri qeyd edib ki, belə addımlar Azərbaycanın strateji kursunu dəyişmir, yalnız Hindistan siyasətinin məhdudluğunu nümayiş etdirir.

Dünən bu istiqamətdə daha bir məntiqəuyğun və adekvat hadisə baş verib. Məlum olub ki, qardaş Pakistan Ermənistanın ŞƏT-ə üzvlüyünü blok edib. Rəsmi İslamabad bu addımı Hindistanın Azərbaycanla bağlı hərəkətinə cavab olaraq atıb.

***

Qeyd etmək lazımdır ki, Nyu-Dehli bir müddətdir müxtəlif beynəlxalq təşkilatlarda Azərbaycana qarşı süni əngəllər yaratmaqla məşğuldur. Son olaraq Azərbaycanın ŞƏT-ə tamhüquqlu üzv qəbul edilməsinə qarşı çıxması bu siyasətin açıq göstəricisidir. Halbuki, məhz təşkilata sədrlik edən Çin Xalq Respublikası Azərbaycanın müraciətini dəstəkləyib və onun "Şanxay ruhu" prinsiplərinə tam uyğun olduğunu bəyan edib. Bu isə göstərir ki, Hindistanın arqumentləri heç bir beynəlxalq prinsipə əsaslanmır, sırf ikitərəfli münasibətlər zəminində formalaşan şəxsi narazılıqlardan qaynaqlanır. "Şanxay ruhu"nun əsas tələblərindən biri də odur ki, ölkələr arasında olan mübahisələr çoxtərəfli platformalara daşınmasın. Nyu-Dehlinin bu davranışı isə açıq-aşkar həmin prinsiplərin pozulmasıdır.

Əslində, Hindistanın bu cəhdləri nə Azərbaycanın beynəlxalq mövqeyinə, nə də onun strateji kursuna zərər yetirə bilər. Azərbaycan müstəqil siyasət yürüdən, regional və qlobal əməkdaşlıq formatlarında sabit tərəfdaş kimi qəbul edilən bir dövlətdir. Ölkəmizin Türkiyə, Pakistan, Çin, Mərkəzi Asiya dövlətləri və İslam dünyası ilə sıx əlaqələri Nyu-Dehlinin hər hansı əngəlinin təsirini minimuma endirir. Hindistanın Azərbaycana qarşı addımları əksinə, onun özünün geosiyasi məhdudluğunu, dar düşüncəli siyasətini nümayiş etdirir. Çünki dünyada yeni çoxtərəfli əməkdaşlıq mühiti formalaşır, ölkələr strateji tərəfdaşlığa daha çox önəm verir. Bu mühitdə bir ölkənin başqa dövlətə qarşı əsassız bloklama siyasəti yürütməsi onun diplomatik gücünü yox, zəifliyini ortaya qoyur.

Maraqlı məqam odur ki, Hindistanın Azərbaycana qarşı çıxış etdiyi vaxtda Pakistan da Ermənistanın eyni təşkilata üzvlüyünü bloklayıb. Bu, regionda siyasi tarazlığın necə işlədiyini göstərən əla nümunədir. Rəsmi İslamabad Nyu-Dehlinin addımına cavab olaraq Bakıya açıq dəstəyini nümayiş etdirib. Əslində, bu hadisə göstərir ki, Hindistanın təzyiq cəhdləri heç bir nəticə verməyəcək, əksinə, Azərbaycan–Pakistan qardaşlığını daha da gücləndirəcək. Çünki hər addımında qardaş ölkələr bir-birinə dayaq olur, qarşılıqlı dəstəklə regionda öz mövqelərini möhkəmləndirirlər.

Beləliklə, Hindistanın Azərbaycana qarşı apardığı siyasət əks nəticə verir. Azərbaycan qlobal arenada etibarlı və prinsipial tərəfdaş statusunu qoruyur, Pakistanla qardaşlıq münasibətləri isə daha da möhkəmlənir. Nyu-Dehlinin bütün cəhdləri yalnız onun özünün geosiyasi nüfuzuna zərbə vurur, ölkəmizin mövqelərinə isə təsirsiz qalır.

**Politoloq İlyas Hüseynov mövzu üzrə XQ-yə bildirdi ki,** Hindistanın ölkəmizə



hücumları ilk dəfə deyil. Onun sözlərinə görə, Nyu-Dehli ŞƏT-in tamhüquqlu üzvlüyü yolunda Azərbaycanın namizədliyini əngəlləməklə düşmənçilik ritorikasını davam etdirir: "Lakin nəzərə almaq lazımdır ki, Azərbaycan və Ermənistan arasında münaqişə və müharibə dövrü başa çatıb, sülh bərqərar olub. Hindistanda isə hələ də 2020-ci il 27 sentyabrdan öncəki tarixlə yaşayırlar. Bu da təəssüf doğurur. Çünki yeni geosiyasi reallıqları dünyanın proqressiv çoxluğu, praqmatik əksəriyyəti qəbul edib. Avqustun 8-də Vaşinqtonda imzalanmış və hamı tərəfindən bəyənilən, qəbul edilən sənədlər bunu təsdiq edir".

Siyasi şərhçi qeyd etdi ki, eyni zamanda, Pakistanla Azərbaycan arasında möhkəm dostluq-qardaşlıq münasibətləri var: "Sentyabrın 1-də Çinin Tiencin şəhərində keçirilən görüşdə Prezident İlham Əliyev Baş nazir Məhəmməd Şahbaz Şərifə Pakistanın Hindistan üzərində qələbəsi münasibətilə təbriklərini çatdırdı. Dövlətimizin başçısı ölkəmizin Pakistana göstərdiyi dəstəyə cavab olaraq Hindistanın beynəlxalq təşkilatlarda Azərbaycandan qisas almağa çalışdığını dedi. Bunun ölkəmiz üçün heç bir əhəmiyyət daşımadığını vurğulayan Prezident qeyd etdi ki, Azərbaycan üçün qardaşlıq münasibətləri hər şeydən üstündür. Bu onu deməyə əsas verir ki, bizim münasibətlərimiz dönməzdir, sarsılmazdır. Hindistanın ölkəmiz əleyhinə bu addımları isə qeyd etdiyimiz kimi tamamilə təəssüf doğurur. Zənnimcə, Ermənistan Respublikası da Hindistanı bu addımlardan çəkindirməlidir. Çünki məhz Azərbaycanın, necə deyərlər, nəzarəti ilə Pakistanla Ermənistan arasında diplomatik münasibətlər yaranır. Pakistanın Azərbaycana dost-qardaş münasibəti özünü tarixin bütün dövrlərində sübut edib. Ermənistanın ölkəmiz əleyhinə etnik təmizləmə siyasəti həyata keçirməsi, torpaqlarımızı işğal etməsi ona gətirib çıxarmışdı ki, Pakistan indiyədək Ermənistanla diplomatik əlaqələr qurmayıb və Hayastanı bir dövlət kimi tanımayıb".

İ.Hüseynov açıqlamasının davamında bildirdi: "Hazırda yeni geosiyasi reallıqlar kontekstində normallaşma və etimad quruculuğu, dövlətlərarası münasibətlərin formalaşması üçün mühüm addımların atılması fonunda biz Ermənistan və Pakistan xarici işlər nazirlərinin iki dövlət arasında diplomatik əlaqələrin qurulmasına dair avqustun 31-də kommünike imzaladıqlarını görürük. Bu da ölkəmizin xeyir-duası, mövqeyimizin və maraqlarımızın nəzərə alınması yolu ilə həyata keçirilən prosesdir. Lakin Hindistan beynəlxalq təşkilatlarda Azərbaycandan qisas almağa çalışır. Eyni zamanda, ölkəmizin iqtisadi maraqlarının da qarşısını alır. Əslində, Hindistan bununla iç üzünü göstərmiş olur. Bu davranışlar məntiqdən kənardır".

Politoloq hesab edir ki, Nyu-Dehlinin mövqeyində dəyişiklik baş verməsi, ölkəmizin maraqlarının təmin olunması üçün mühüm diplomatik iş həyata keçirilməli, böyük proses icra edilməlidir.

***Səxavət HƏMİD***
***XQ***

# Zəngəzur dəhlizi və postmünaqişə arxitekturası

**(əvvəli 1-ci səhifədə)**

Zəngəzur dəhlizi Azərbaycanın milli prioritetləri sırasında xüsusi yer tutur. Xatırladaq ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda Ermənistanın regionda bütün kommunikasiya xətlərinin açılmasına razılaşdığı qeyd olunub. Amma ötən dövr ərzində bu istiqamətdə irəliləyiş olmadı, Ermənistan müxtəlif spekulyativ yanaşmalarla prosesi ləngitməyə çalışdı. Bu il avqustun 8-də Vaşinqtonda Azərbaycan və ABŞ prezidentlərinin, eləcə də Ermənistan Baş nazirinin iştirakı ilə keçirilən üçtərəfli görüş və imzalanan Birgə Bəyannamədə Zəngəzur dəhlizi ilə bağlı məsələdə dönüş nöqtəsinə oldu. Sənəddə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantının təmin olunacağına dair müddəa yer aldı. Bu, beynəlxalq hüquq müstəvisində ölkəmizin mövqeyinə dəstəyin, məsələnin regiondankənar güclər tərəfindən legitim tanınmağın göstəricisidir.



Mövzu ilə bağlı XQ-yə açıqlama verən **Milli Məclisin deputatı Elçin Mirzəbəyli bildirdi:**

– Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunan sülh razılaşması, xüsusilə Zəngəzur dəhlizi (TRIPP marşrutu) ilə bağlı anlaşma Cənubi Qafqazın geosiyasi mənzərəsini strateji baxımdan dəyişməklə yanaşı, bölgənin inkişafını yeni mərhələyə çıxarıb. Vaşinqton razılaşması Azərbaycan və Türkiyənin strateji tərəfdaşlığını daha da möhkəmləndirməklə yanaşı, Zəngəzur dəhlizini geniş regional logistik şəbəkənin mərkəzinə çevirir.

Beləliklə, TRIPP yalnız Azərbaycan və Naxçıvanı birləşdirən yol deyil, həm də Türkiyənin Mərkəzi Asiya ilə əlaqəsini gücləndirən, Avropa ilə Asiya arasında körpü rolunu oynayan marşrut və ola bilsin ki, yaxın gələcəkdə multimodal dəhliz kimi nəzərdə tutulur. Ermənistan hökuməti isə razılaşmanı ictimaiyyətə təqdim edərkən onun tarixi əhəmiyyətini qabardır, ölkənin iqtisadi izolyasiyadan çıxması üçün imkan kimi dəyərləndirir. Baş nazir Nikol Paşinyan beynəlxalq zəmanətlərin önəmini vurğulayaraq ABŞ-ın prosesə qatılmasını müsbət hal kimi göstərir. Maraqlıdır ki, ABŞ-ın dəhlizə qoşulması və TRIPP marşrutunun siyasi-hüquqi çərçivəsinin müəyyənləşdirilməsi bəzi qonşu ölkələr tərəfindən strateji itki kimi qiymətləndirilsə də, son vaxtlar, məhz Azərbaycanın diplomatik səyləri nəticəsində neqativ ritorikanın arxa plana keçdiyinin şahidi oluruq.

**E.Mirzəbəyli onu da bildirdi ki, Çin amili və Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində əməkdaşlıq da Zəngəzur dəhlizinin gələcəyi baxımından diqqətəlayiqdir:**

– Hazırda Tiencində keçirilən ŞƏT-in zirvə toplantısında Azərbaycan Prezidenti ilə yanaşı, Türkiyənin lideri və Ermənistanın Baş naziri də iştirak edir. Bu faktın özü TRIPP marşrutunun yalnız ikitərəfli anlaşma olmadığını, həm də regional və beynəlxalq müzakirələrin mərkəzinə çevrildiyini göstərir.

TRIPP marşrutu həm də siyasi status məsələsidir. O, Azərbaycanın regiondakı çəkisini artırır, ölkəni Cənubi Qafqazın əsas logistik mərkəzinə çevirir və beynəlxalq əməkdaşlıq üçün yeni platformalar açır. Dəhlizin reallaşması həm də ölkəmizin müstəqil xarici siyasət kursunun, çevik diplomatik manevrlərinin və strateji düşüncəsinin nəticəsi olacaq. Ən əsası isə layihə regionda uzunmüddətli sülh və əməkdaşlıq üçün yeni model yarada bilər. Beləliklə, Zəngəzur dəhlizi yalnız yolları birləşdirmir, həm də siyasi maraqları uzlaşdırır.

Türkiyə üçün dəhlizin iqtisadi faydaları, şübhəsiz ki, bir o qədər əhəmiyyətlidir. Dəhlizin fəaliyyətə başlaması nəticəsində Ankara Avropa ilə Orta Asiyanı birləşdirən əsas tranzit ölkəsinə çevrilməklə öz ixrac imkanlarını genişləndirəcək. Bu prosesdə Azərbaycan–Türkiyə iqtisadi əməkdaşlığı yeni keyfiyyət mərhələsinə yüksələcək, iki ölkə arasında ticarət dövriyyəsinin həcmi daha da artacaq.

Deputatın dediklərinə onu da əlavə edək ki, Ermənistan üçün dəhliz iqtisadi dalandan çıxış imkanı deməkdir. Əgər İrəvan razılaşmalara əməl edərsə, onun da tranzit gəlirlərindən pay alması, yeni infrastruktur layihələrdən yararlanması mümkündür. Bu, ölkənin iqtisadiyyatını canlandıra, yeni investisiya mühitinin formalaşmasına təkan verə bilər. Zəngəzur dəhlizinin açılması həm də bölgədə sülhün və təhlükəsizliyin davamlılığını təmin etmək üçün vacib şərt olan regional inteqrasiyanı gücləndirəcək. Azərbaycan, Türkiyə və Mərkəzi Asiya dövlətləri arasında iqtisadi əlaqələr daha sıx xarakter alacaq, regiondaxili ticarət həcmi artacaq.

Bununla yanaşı, Avropa İttifaqı, Çin və digər beynəlxalq tərəfdaşlar da bu marşrutdan yararlanaraq regionun iqtisadi sisteminə yeni kapital və texnologiyalar gətirə bilər. Beləliklə, Zəngəzur dəhlizi iqtisadi inkişafın, tranzit gəlirlərinin və regional inteqrasiyanın mühüm hərəkətverici qüvvəsinə çevriləcək. Azərbaycanın dəhlizin mərkəzində yer alması isə ölkənin gələcək onilliklərdə strateji iqtisadi çəkisini əhəmiyyətli dərəcədə artıracaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Pekində açıqlanan siyasi kodlar




(əvvəli 1-ci səhifədə)

Son illər Azərbaycan beynəlxalq aləmdə regional liderlik statusunu möhkəmləndirib. Prosesdə İlham Əliyevin şəxsi siyasi obrazı əsas determinantlardan biridir. Onun üslubu bir tərəfdən praqmatik realizm, yəni, region və qlobal siyasətdə mümkün nəticələri dəqiq hesablayan, addımlarını real imkanlara uyğun planlayan yanaşmaya əsaslanırsa, digər tərəfdən isə qətiyyətli strateji baxış, yəni, uzunmüddətli məqsədləri prioritetləşdirərək ölkənin mövqeyini gücləndirməyə yönəlmiş siyasət üzərində qurulub. Belə bir kombinasiya İlham Əliyevə həm regional sabitliyi təmin etmək, həm də Azərbaycanın beynəlxalq platformalarda nüfuzunu artırmaq imkanı verir.

Prezidentin diplomatik üslubunda fərqli bir keyfiyyət də nəzərə çarpır: o, münasibətləri şəxsi etimad və qarşılıqlı hörmət üzərində qurmağa üstünlük verir. Xüsusilə də, supergüclərin liderləri ilə təmaslarda bu amil özünü göstərir. İlham Əliyevin Şərq və Qərb arasında balans yaratmaq bacarığı onun siyasi portretini beynəlxalq arenada daha da gücləndirir. Məhz bu çərçivədə Prezidentin 31 avqust 2025-ci ildə Çin Xalq Respublikasına səfəri onun liderlik xüsusiyyətlərinin diplomatik kodlarını açan hadisədir. ŞƏT zirvə görüşündə iştirak Azərbaycanı strateji platformada ön plana çıxararkən, Pekində dövlət başçısının yüksək səviyyədə qarşılanması isə artıq Azərbaycanın beynəlxalq nüfuzunun liderlik amili ilə birbaşa bağlı olduğunu göstərir.

Azərbaycan–Çin münasibətləri son illərdə klassik diplomatik çərçivədən çıxaraq strateji tərəfdaşlıq məzmunu qazanmaqdadır. Strateji tərəfdaşlığın yüksələn xətti bir neçə mühüm amillə izah oluna bilər. Birinci amil tərəflər arasında qarşılıqlı siyasi etimadın artmasıdır. Azərbaycanın beynəlxalq sistemdə balans siyasəti yürütməsi, heç bir qlobal güc mərkəzinə birtərəfli bağlılıq göstərməməsi Pekin üçün etibarlı tərəfdaşlıq modelini əks etdirir. Çin isə öz növbəsində Azərbaycanın regional sabitlik və inkişaf xəttini dəstəkləyir, onu Cənubi Qafqazda mühüm strateji oyunçu kimi qəbul edir.

İkincisi, əməkdaşlığın təkcə iqtisadi müstəvidə deyil, siyasi-diplomatik sahədə də genişlənməsidir. Bakı ilə Pekin arasında münasibətlər artıq yalnız ticarət, enerji və logistika layihələri ilə məhdudlaşmır. İndi əsas diqqət qlobal təşkilatlarda koordinasiyaya, regional təhlükəsizlikdə qarşılıqlı maraqlara yönəlir.

Üçüncüsü, strateji tərəfdaşlığın yüksəlişi liderlərin şəxsi münasibətləri ilə bilavasitə bağlıdır. İlham Əliyev və Si Cinpinin son illər keçirdiyi görüşlərdə nümayiş olunan qarşılıqlı hörmət və yüksək qəbul forması dövlətlərarası münasibətlərin əsas siyasi dayağına çevrilib. Diplomatiyada şəxsi əlaqələrin təsirini nəzərə alsaq, Azərbaycan–Çin münasibətlərində məhz bu faktorun strateji xətti sürətləndirdiyini demək olar. Nəhayət, Azərbaycan üçün bu tərəfdaşlıq həm də regional liderlik statusunun möhkəmlənməsi deməkdir. Çin kimi supergücün Azərbaycanın diplomatik aktivliyini dəstəkləməsi, Bakı ilə əməkdaşlığı strateji müstəviyə qaldırması Azərbaycanın beynəlxalq sistemdə rolunu daha da artırır.

***

Beynəlxalq münasibətlərdə bəzən rəsmi sənədlərdən və protokol bəyanatlarından daha güclü mesajları diplomatik simvollar ötürür. Prezident İlham Əliyevin Pekin səfəri də məhz bu simvolizmlə diqqət çəkir. Onun Çin paytaxtında yüksək səviyyədə qarşılanması, dövlət başçısına göstərilən xüsusi diqqət Pekinin Azərbaycanı strateji tərəfdaş kimi qəbul etdiyinin açıq göstəricisidir. Diplomatiyada liderlərin şəxsi münasibətləri dövlətlərarası əlaqələrin gələcəyini müəyyən edir. İlham Əliyevlə Si Cinpin arasında formalaşan etimadlı münasibət də bu kontekstdə önəmlidir. Çin liderinin Əliyevə göstərdiyi ehtiram, ikitərəfli görüşlərin səmimiyyət və qarşılıqlı hörmət atmosferində keçməsi münasibətlərin institusional deyil, həm də şəxsi etimad üzərində qurulduğunu göstərir.

Mövcud amillər Azərbaycanın diplomatik mövqeyinə də əlavə üstünlüklər qazandırır. Böyük dövlətlərin liderləri ilə şəxsi etimad əlaqələri qurmaq kiçik və orta güc statusunda olan ölkələr üçün nadir şansdır. İlham Əliyev bu imkanı bacarıqla reallaşdıraraq Azərbaycanın beynəlxalq nüfuzunu yüksəldir. Diplomatik simvolların siyasi mesajı həm də Azərbaycanın regional statusunu təsdiqləyir. Əliyevin Pekində göstərilən qəbul forması Bakının regional sabitlik və təhlükəsizlik aktoru kimi qəbul olunmasının vizual ifadəsidir. Beləliklə, İlham Əliyevin Çin lideri ilə münasibətlərində fərqləndirici cəhət rəsmi protokoldan daha çox liderlərin qarşılıqlı hörmət və strateji vizyon əsasında əməkdaşlığıdır.

***

Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) iştirakı ölkənin regional və qlobal siyasətdə balanslı mövqeyini möhkəmləndirən strateji amil kimi dəyərləndirilir. Təşkilat həm Çin, həm də Rusiya üçün mühüm geosiyasi platformadır və Azərbaycanın burada fəal mövqe nümayiş etdirməsi onun diplomatik çevikliyini və təşəbbüskar potensialını açıq şəkildə göstərir.

İlham Əliyevin ŞƏT zirvə görüşündə iştirakı bir neçə strateji siyasi mesaj daşıyır. İlk olaraq, Azərbaycan burada yalnız müşahidəçi və ya dialoq tərəfdaşı deyil, təşəbbüskar və fəal oyunçu kimi çıxış edir; həm siyasi, həm də iqtisadi əməkdaşlıq müstəvisində regionun önəmli aktorlarından birinə çevrilir.

İkincisi, bu platforma vasitəsilə Bakı ilə Pekin arasında strateji koordinasiya və siyasi etimad möhkəmlənir. Çin Azərbaycanın mövqeyini dəstəkləyir, onu regional



sabitlik və təhlükəsizlik məsələlərində etibarlı tərəfdaş kimi təqdim edir. Üçüncüsü, ŞƏT Azərbaycanın çoxvektorlu xarici siyasətini təsdiqləyən platformadır. İlham Əliyevin fəal iştirakı göstərir ki, Bakı yalnız bir güc mərkəzinə bağlı deyil; eyni zamanda, Qərb və Şərq arasında balans yaratmaq bacarığını nümayiş etdirir və ölkənin diplomatik müstəqilliyini qoruyur.

ŞƏT platformasında Prezidentin şəxsiyyət amili mühüm rol oynayır. İlham Əliyevin təşəbbüsləri, görüşləri və diplomatik davranışı Azərbaycanın beynəlxalq nüfuzunu vizual və protokol səviyyəsində də nümayiş etdirir. Nəticə etibarilə, ŞƏT çərçivəsində Azərbaycanın iştirakı həm Azərbaycan–Çin münasibətlərində strateji tərəfdaşlığın yüksələn xəttini təsdiqləyir, həm də ölkəni regional lider və qlobal diplomatik aktor kimi möhkəmləndirir.

Son olaraq qeyd etməliyik ki, Azərbaycan–Çin əməkdaşlığı diplomatik və geosiyasi müstəvidə də yüksələn xətt üzrə inkişaf edir. İlham Əliyevin liderlik xüsusiyyətləri və diplomatik aktivliyi Azərbaycanın beynəlxalq siyasətdə balanslı, etibarlı və nüfuzlu aktor kimi qəbul edilməsini təmin edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycan ŞƏT ailəsində: regional sabitlikdən qlobal inteqrasiyaya

**Bu gün Avrasiyanın yarısından çoxunu, qlobal ümumi daxili məhsulun isə dörddə birini özündə birləşdirən Şanxay Əməkdaşlıq Təşkilatı qlobal güc mərkəzi kimi getdikcə daha böyük maraq doğurur. Enerji layihələrindən tutmuş nəqliyyat dəhlizlərinə, elm və təhsildən turizmə qədər geniş spektrdə əməkdaşlıq məhz Avrasiyanın böyük ailəsinin çərçivəsində gerçəkləşir. ŞƏT-in fəlsəfəsi qarşılıqlı etimad, mehriban qonşuluq, sülh və sabitliyin qorunması, iqtisadi dividendlərə bağlı inkişafdır.**

Avqustun 30-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Tiencində keçirilən “ŞƏT plyus” Zirvə toplantısında, eləcə də xarici hərbi müdaxilə və faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş təntənəli tədbirlərdə və hərbi paradda iştirakı tarixi məna daşıyır. Səfər Azərbaycan–Çin münasibətlərinin davamlı inkişafının, həmçinin Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində yeni əməkdaşlıq imkanlarının qapısını açan strateji addımdır.

Tiencində keçirilən görüşlər iki ölkə arasındakı qarşılıqlı etimadın və tərəfdaşlığın artan nümunəsidir. Bu, həm də Azərbaycanın ŞƏT ailəsində mövqelərinin möhkəmləndirilməsi baxımından yeni mərhələnin başlanğıcıdır. Qeyd edək ki, dünən Çinin Tiencin şəhərində Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçıları Şurasının 25-ci iclası keçirilib. Sammitə 21 ölkədən liderlər və 10-dan çox beynəlxalq təşkilat qatılıb.

Bununla yanaşı, təşkilatın Dövlət Başçıları Şurasının 25-ci iclasının yekunları üzrə qəbul edilmiş Tiencin Bəyannaməsi gələcək üçün olduqca böyük perspektiv vəd edir. Ümumiyyətlə, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) Dövlət Başçıları Şurasının iclasında 20 sənəd imzalanıb.




Prezident İlham Əliyevin Çinə səfəri çərçivəsində keçirdiyi görüşlər bir daha onu göstərir ki, nəqliyyat-logistika, enerji və iqtisadi aktivliyin yüksək tempdə davamı Azərbaycan – Çin münasibətlərində prioritet istiqamətdir. Xüsusilə, Asiya İnfrastruktur İnvestisiya Bankının prezidenti Cin Liqunla görüş sözügedən aspektlərin müzakirəsi, həmçinin davamlı inkişafın təmini baxımından olduqca vacibdir.

Bakıdan keçən beynəlxalq dəhlizlər Şərqlə Qərbi, Şimal ilə Cənubu birləşdirir. ŞƏT-in genişlənən imkanları Azərbaycanın dünya bazarına çıxışını gücləndirir, sərmayə axınını sürətləndirir, elm və texnologiyada yeni tərəfdaşlıqlar üçün zəmin yaradır. Qlobal güc balansının dəyişdiyi bu dövrdə Azərbaycanın ŞƏT platformasında fəallığı milli iqtisadi maraqlarımızın qorunması ilə yanaşı, regionun gələcəyinə yönəlik strateji seçimdir.

Təbii ki, Şanxay Əməkdaşlıq Təşkilatında Çin Xalq Respublikasının (ÇXR) xüsusi çəkisi var. Çin özünün iqtisadi potensialı ilə ŞƏT çərçivəsində iqtisadi və ticari, humanitar əməkdaşlığın genişlənməsində aparıcı amil olaraq qalır. Təsadüfi deyil ki, Çinin Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə ticarət dövriyyəsi 2024-cü ildə 2,7 faiz artaraq 512,4 milyard dollara çatıb. Bu rəqəm qlobal iqtisadi məkanda yeni güc xəritəsinin cızıldığını göstərir.

ŞƏT çərçivəsində sıx inteqrasiya yalnız Çinin deyil, təşkilat üzvlərinin hər birinin iqtisadi maraqlarını təmin edən yeni əməkdaşlıq modellərini gündəmə gətirir. Bununla yanaşı, Çinin “Bir kəmər, bir yol” təşəbbüsündə ŞƏT məkanının əhatə olunması rəsmi Pekinin üzv dövlətlərlə əməkdaşlığa artan marağını bir daha nümayiş etdirir. Bu kontekstdə Azərbaycan – Çin əlaqələri yeni üfüqlər açır. Tarixi İpək yolunun varislərindən olan Azərbaycan bu gün də özünün tranzit və logistika imkanları ilə Avrasiyanın iqtisadi inteqrasiyasında mühüm rol oynayır. Təsadüfi deyil ki, 2024-cü ildə Çin ilə Azərbaycan arasında ticarət dövriyyəsinin artması, ikitərəfli əməkdaşlığın genişlənməsi və müxtəlif sahələrdəki mübadilələrdə əhəmiyyətli inkişaf tendensiyaları aktivliyini qoruyub. Ötən il Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşı olub və ticarət dövriyyəsi 20,7 faiz artaraq 3,744 milyard dollar təşkil edib. Məhz ölkə başçımızın vurğuladığı kimi Çinin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb. Əlbəttə, bu iki ölkə arasında daha da dərinləşən iqtisadi əməkdaşlığın göstəricisidir.

Xüsusi vurğulanmalıdır ki, Prezident İlham Əliyevin illər öncə qəbul etdiyi strateji qərarlar – beynəlxalq nəqliyyat-logistika dəhlizlərinin inkişaf etdirilməsi, ölkəmizin coğrafi üstünlüklərinin səmərəli istifadəsi artıq öz bəhrəsini verir. Azərbaycanın yaratdığı yeni dəhlizlər Avrasiyanın yük daşımalarını yönləndirən alternativ yol xəritəsi kimi diqqət çəkir. Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin inkişafı isə Bakının tranzit mərkəz kimi mövqeyini möhkəmləndirir. Bu gün qlobal iqtisadiyyatın xəritəsini dəyişdirən əsas güclərdən biri nəqliyyat və logistika arteriyalarının düzgün idarə edilməsidir. Bu mənada Bakı–Tbilisi–Qars dəmir yolu, “Şimal–Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu – Orta Dəhliz və Xəzərin qəlbində yerləşən ən iri qapılardan biri – Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Azərbaycanın dünyadakı rolunu yeni səviyyəyə qaldırır.

Digər tərəfdən, Orta Dəhlizin strateji çəkisi günbəgün artır. Çindən Avropaya, Avropadan isə Asiyanın dərinliklərinə uzanan yol həm etibarlılığı, həm də sürəti ilə seçilir. Yüklərin Çindən Avropaya ən qısa vaxtda çatdırılması artıq reallığa çevrilib. Azərbaycanın təşəbbüskarı olduğu bu marşrut Avrasiya məkanında yeni iqtisadi nəfəsdir. Bu gün Orta Dəhliz ölkələrin iqtisadi tərəfdaşlığını gücləndirən, siyasi etimadı möhkəmləndirən strateji körpüdür.

Bütün bu səylərin nəticəsi olaraq Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə rekord səviyyəyə – 378 min tona çatıb. Bu, 2023-cü illə müqayisədə 86 faiz artım deməkdir. İqtisadi dinamika da göstərir ki, Azərbaycan öz tranzit missiyasını uğurla yerinə yetirir. 2024-cü il ərzində Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb. Bu, Azərbaycanın Avrasiyada hab rolunun əyani təsdiqidir.

Azərbaycanın coğrafi mövqeyi, illərlə qurulan müasir infrastruktur və siyasi iradə nəticəsində ölkəmiz Avrasiyanın əsas ticarət dayağına çevrilib. Bu reallıq həm Çinə, həm də digər qlobal oyunçular üçün sərfəlidir. Məhz dövlət başçısının Çinə səfəri bir daha ölkəmizin Avrasiyanın maliyyə və enerji xəritəsində mövqelərini möhkəmləndirir.

***Nurlan ABDALOV***
***XQ***

# Bakı–İrəvan sülhü: tarixin təkrarlanma ehtimalı

## *Yaxud 2025-ci ildən 1999-cu ilə baxış*

**Prezident İlham Əliyev bu il avqustun 27-də Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində, müəyyən mənada, Ermənistana xəbərdarlıq tonunda bunları bildirmişdi: "Əgər onlar bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik. Burada kim qazanacaq, kim uduzacaq? Məncə, bu, ritorik sualdır. Ona görə hesab edirəm ki, Ermənistanın istənilən gələcək hökumətində kifayət qədər müdriklik, ağlabatan yanaşma olacaq ki, Vaşinqtonda razılaşdığımızı şübhə altına almasın. Bir daha qeyd edirəm ki, bu, iki dövlət arasında razılaşmadır. Bu, Paşinyan ilə mənim razılaşmamız deyil".**



Azərbaycan və Ermənistan sülhə doğru gedir. Böyük anlamda yanaşsaq, hazırda Bakıda və İrəvanda keçmişin acı xatirələrini bir kənara qoyub gələcəyə baxmaq barədə düşünürlər. Amma sülh mühiti kövrək təsir bağışlayır. Elə təəssürat var ki, indiyədək əldə olunmuşlar bir andaca sıradan çıxa bilər. Bu təəssüratın səbəbləri sırasında yaxın tarixdə yaşananlar da var. Elə isə keçmişə ekskurs edək.

***

Azərbaycan müstəqilliyinin ilk illərindən dünyaya inteqrasiya siyasəti yürütdü. Bu siyasətin banisi ümummilli lider Heydər Əliyev oldu. Ulu öndərin müdrikliyi sayəsində beynəlxalq aləmin ölkəmizə münasibəti dəyişdi. Vətənimizin üzərindən keçmiş sovet respublikası klişesi götürüldü. Əlbəttə, proses heç də asan başa gəlmədi.

Heydər Əliyevin dünyaya açılım siyasəti nəticəsində Azərbaycanın timsalında Cənubi Qafqaz tarixində heç vaxt görmədiyi qədər Qərb kapitalını gördü. Neft gəlirlərindən səmərəli istifadə ilə toplanmış bu kapital xalqımızı rifaha daşıdı. Elə bir rifah ki, özündə ondan bütövlükdə Cənubi Qafqaz xalqlarının faydalanması kazusunu birləşdirdi. Tam inkişafı əngəlləyən isə işğal amili və Bakı-İrəvan münasibətlərinin normal məcraya düşməməsi oldu.

***

Bəli, Ermənistan otuz ilə yaxın müddətdə Azərbaycan torpaqlarını işğalda saxlamaqla, regional inkişafı ləngitdi. Qərb işğalın davamlı xarakter almasına göz yumdu. Çünki xaricdəki erməni amili öz sözünü deyirdi. Ümumən, dünyada erməni kartını aktiv saxlamaq istəkləri özünü göstərdi. Ona görə də Qərbdə regional inkişaf trayektoriyasını təcavüz amilini heçə sayaraq hesablayanlar tapıldı. Təxminən belə: işğal aradan qalxmasın, hər şey unudulsun, bölgə inkişaf etsin. Azərbaycan bununla razılaşa bilməzdi və ölkəmiz ilk böyük prinsipiallığını "Əsrin müqaviləsi" müstəvisində göstərdi. Heydər Əliyev şəxsiyyəti imkan vermədi ki, təcavüzkar Ermənistan layihədən bəhrələnsin.

Digər tərəfdən, işğal Rusiya üçün də sərfəli idi. Çünki ölkə Cənubi Qafqazdakı mövcudluq parametrini Azərbaycanla Ermənistan arasındakı konfliktdə görürdü. Bu səbəbdən Qərbin riyakarlığı fonunda, Moskva ədalətsiz davrandı. Ümumən isə artıq keçmiş olan Qarabağ münaqişəsinin Rusiya tərəfindən ortaya atılmış oyun olduğunu sübuta yetirməyə ehtiyac yoxdur. Amma Azərbaycan-Ermənistan münasibətlərinin düzələcəyinə dair ümidlər əvvəllər də olub.

***

Bəli, torpaqlarımıza qəsb erməni millətçilərinin Qarabağ avantürasının nəticəsi idi. Keçmiş DQMV-yə aid olmayan ərazilərimizin işğalına gəldikdə, bu, həm avantüra ilə barışmamağımızın, həm də müstəqil siyasət aparmaq istəklərimizin cəzasına çevrildi. Kim və ya kimlər bizi cəzalandırdılar və konkret tələbləri nə idi, məlumdur. Azərbaycan həmin tələbləri yerinə yetirməyərək öz yolu ilə getdi. Yola 1993-cü ildə ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyə başlaması ilə çıxdıq. Həmin vaxtadək isə loru dildə desək, yerimizdə saydıq. Yerində sayan həm də sülh oldu...

Onu demirik ki, 1994-1999-cu illərdə Bakı və İrəvan bugünkütək sülhə yaxın olmuşdu. Üstəlik, barışın məzmunu indiki kimi deyildi. O zaman qarşılıqlı güzəştlər nəzərdə tutulurdu. Məsələn, Azərbaycan rəhbərliyi bildirirdi ki, Qarabağa ölkəmizin tərkibində ən geniş muxtariyyət verməyə razıdır. Hazırda bir qədər rasional düşünən ermənilər zamanında ölkələrinin bu güzəştlə qane olmadığına görə heyifsilənirlər. Ancaq necə deyərlər, sonrakı peşmançılıq fayda verməz...

Beləliklə, 1994-1999-cu illərdə sülh danışıqlarının intensivliyi, xüsusən prosesin Qərb platformasında getməsinin doğurduğu reallıqlar ozamankı Ermənistan rəhbərliyində təmsil olunan bəzi şəxslərdə belə qənaət formalaşdırmışdı ki, işğala son qoyulmalıdır. Onlar sual edirdilər: tutaq ki, Ağdamın, Zəngilanın, Qubadlının, Cəbrayılın, Füzulinin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aidiyyəti nədir? Suala cavab verilmədi, əvəzində faciə yaşandı. Hansı faciə? Ondan söz açacağıq.

***

Qeyd edək ki, Ermənistanda Heydər Əliyev şəxsiyyətinin gücünü dərk edən, "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın hansı faydalı yolda olduğunu görənlər tapıldı. Güzəşt tərəfdarları məhz onlar idilər və ölkəmizlə münasibətlərin düzəlməsinin Ermənistana mənfəət gətirəcəyini duydular. Bacardıqları qədər çalışdılar ki, ədavəti bir kənara qoyub gələcək barədə düşünsünlər. Yeri gəlmişkən, deyək ki, belələrinin içərisində vaxtilə "Miatsum" hərəkatında yer alanlar da var idi. Onlardan birinin dilə gətirdiyi bu kəlməni diqqətə çatdıraq: "Hər şey sizin gələcək nəsilləriniz üçün edilir".

Bunu Ermənistanın 1995–1999-cu ildə baş naziri kimi çalışmış, daha əvvəl isə Qarabağ avantürasının rəhbərlərindən olmuş Vazgen Sarkisyan bildirmişdi. O, iqtibasdakı fikrini 1999-cu il noyabrın 27-də ölkə parlamentinə basqın etmiş terrorçu Nairi Hunanyanın "bəsdir, qanımızı içdiniz" bağırtısına cavab olaraq səsləndirmişdi. Bu sözlər baş nazirin son sözləri olmuşdu. Həmin gün onunla birlikdə Ermənistan parlamentinin ozamankı spikeri Karen Dəmirçyan və daha altı yüksək ranqlı dövlət rəsmisi qətlə yetirilmişdi.

"Parlament terroru" həmin vaxtadək Ermənistandakı siyasi sistemə, hərbi, qanunverici və icra hakimiyyətlərinə nəzarət edən Dəmirçyan-Sarkisyan tandeminin fəaliyyətinə son qoydu. Onların aradan götürülmələri ölkədəki siyasi tarazlığı pozdu. Ən başlıcası isə Sarkisyan və Dəmirçyanın "de-fakto ikili komandanlığı" prezident Robert Koçaryana keçdi. O Koçaryana ki, "Qarabağ klanı"nı təmsil edirdi və 10 il hakimiyyətdə qaldı. Ondan sonra həmin klanın daha bir təmsilçisi Serj Sarkisyan da eyni müddətə iqtidar postunu tutdu.

Onu da bildirək ki, 1999-cu ilin "parlament terroru" Ermənistanın beynəlxalq nüfuzuna zərbə vurdu, nəticədə ölkəyə xarici sərmayə axını azaldı. Amma ziyan təkcə bu deyildi. Məsələ ondadır ki, Azərbaycanla münasibətlərin yoluna qoyulmasının və güzəştin tərəfdarı kimi tanınan Dəmirçyan-Sarkisyan tandemindən sonra Ermənistan, faktiki olaraq, quldur dəstəsinin nəzarətinə keçdi. Söhbət Koçaryan-Sarkisyan ikilisinin rəhbərlik etdiyi və Birinci Qarabağ müharibəsində Azərbaycan xalqına qarşı olmazın cinayətlər törətmiş dəstədən gedir. O dəstə ki, V.Sarkisyanın təbirincə desək, gələcək erməni nəsilləri üçün fəlakət yaşatdı. Halbuki, hər şey başqa cür ola bilərdi...

Əlqərəz, Ermənistanda Koçaryan-Sarkisyan tandemi özündən əvvəlki siyasi qruplaşmanın Azərbaycanla danışıqlardakı pozitiv gözləntilərini heçə endirdi. Nəticədə Qarabağ münaqişəsinin həlli 20 ildən artıq uzandı. Zərər isə Ermənistana dəydi və ölkədə bunu indinin özündə də dərk etməyən, hələ də revanşa can atan, türk düşmənçiliyini təbliğ edən qüvvələr var. Onlar baş nazir Nikol Paşinyanı "satqın" və "xain" adlandıracaq qədər azğındırlar. Ancaq məqsədimiz bu barədə söz açmaq deyil.

Bəli, erməni nəsilləri təkcə fəlakətlə üzləşmədilər, eyni zamanda faydadan məhrum oldular. Onlar, faktiki olaraq, Azərbaycan vasitəsilə əldə edəcəkləri xeyirdənsə, kor hiddətə və qəzəbə söykənmiş avantüranı seçmiş duruma düşdülər. Yəni məlum "parlament terroru" və bununla Koçaryan-Sarkisyan ikilisinin hakimiyyəti ələ keçirməsi ölkəni dünyadan təcrid halına gətirdi. Əlbəttə, vəziyyətin qlobal nəticələri də oldu. Belə ki, Azərbaycanın həyata keçirdiyi müstəqil siyasi xətt nəticəsində əvvəldə haqqında söz açdığımız Qərb kapitalının axını yalnız Azərbaycanla və qismən Gürcüstanla məhdudlaşmaq məcburiyyətində qaldı. Yekunda Cənubi Qafqaz bütöv orqanizmə çevrilmədi.

***

Azərbaycan əməli fəaliyyəti ilə sübut etdi ki, bölgədə hansı qüvvələrin hansı maraqlar naminə maddi və mənəvi yatırım etməsinə baxmayaraq, dövlətin və xalqın mənafelərini qorumaq mümkündür. Tam əminliklə demək olar ki, Qərb kapitalı ölkəmizi asılı duruma gətirmədi. Ermənistan isə ötən müddətdə həm böyük dividend vəd edən regional əməkdaşlıqdan məhrum oldu, həm də forposta çevrildi. Ölkə hansı dövlətdən asılı hala düşdü, bunu hər kəs yaxşı bilir.

Ermənistanda 2018-ci il inqilabı və sonra yaşananlar, o cümlədən ölkənin 44 günlük müharibədəki acınacaqlı məğlubiyyəti, rəsmi İrəvanın savaş sonrası nataraz, qeyri-adekvat hərəkət və davranışları da hər kəsin yaxşı xatirindədir. Əsas olan isə əvvəldə vurğuladığımızdır. Yəni Azərbaycan və Ermənistanın sülh yoluna çıxmaları. Budur, dünən iki ölkə arasında münaqişə məntiqini vurğulayan ATƏT-in Minsk Qrupu rəsmən fəaliyyətini dayandırdı. Deməli, Cənubi Qafqazda konflikt məntiqə söykənmiş digər mənfi spektrlərin sıradan çıxmasına ümid var.

Ümid yaradan hadisə isə bu il avqustun 8-də Vaşinqtonda yaşandı. Həmin gün ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə "Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamə" imzalandı. Məlum olduğu kimi, sənəddə Ermənistan ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"ndan söz açılır və rəsmi İrəvanın bağlantı layihəsi üçün çərçivənin müəyyənləşməsi məqsədilə Birləşmiş Ştatlar və üçüncü tərəflər ilə əməkdaşlığı nəzərdə tutulur.

O da məlumdur ki, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" mahiyyətcə Azərbaycanın 44 günlük müharibədən sonra irəli sürdüyü Zəngəzur dəhlizi layihəsidir. Bu layihənin qlobal dünya üçün hansı böyük əhəmiyyət daşıması barədə çox söz açıldığından məsələnin üzərində dayanmağa ehtiyac duymuruq. Yalnız bir vacib qənaətimizi bölüşək ki, sözügedən marşrut Qərbin, bütövlükdə dünyanın 1994-cü ildən sonra Cənubi Qafqaza ikinci böyük gəlişidir. Söhbət 1999-cu ildə Ermənistandakı "parlament terroru" ilə qarşısı alınmış gəlişdən gedir. Güman edirik, bu yerdə diqqətli oxucularımız nə üçün başlanğıcda indiyədək əldə olunmuşların bir andaca sıradan çıxma təhlükəsini vurğuladığımızın səbəbini bildilər.

***

Sonda yekun nəticəyə gələrək bildirək ki, tarixin təkrarlanma ehtimalı sülh və regional inkişaf üçün ən böyük təhlükədir. Yəni, indi hər şey, böyük ölçüdə, Ermənistandan asılıdır. Əlavə şərh vermək niyyətində deyilik. Hər halda, Bakı-İrəvan münasibətlərinin ozamankı pozitiv axarına maneçilik törədən 1999-cu ilin "parlament terroru"nun hansı qüvvələrin əli ilə törədildiyi də, hazırda Ermənistanı qarışdırmaq üçün dəridən-qabıqdan çıxanların hara xidmət etdikləri də gün kimi aydındır.

Deməli, qalır tarixin təkrarlanmasının qarşısını almaq, buna yol verməmək. Ən böyük suallar isə budur: indiki Ermənistan rəhbərliyi möhkəm olub hakimiyyətdə qala biləcəkmi? Bu hakimiyyət erməni varlığı üçün, az qala, pataloji xəstəlik halına gəlmiş terror mahiyyətindən sığortalanmağı bacaracaqmı? Ümumən isə rəsmi İrəvan tutduğu yola sadiq qalacaqmı?

***Ə.CAHANGİROĞLU***
***XQ***

# "Mənasız" qurumun acı sonluğu

## *İşğalın ömrünü uzadan riyakar siyasət heçliyə gömüldü*

**Beynəlxalq münasibətlər sistemində hər dövrün özünəməxsus institutları, mexanizmləri və vasitəçilik formatları mövcud olur. Münaqişələrin həlli üçün yaradılan bu strukturlar müəyyən rol oynasa da, tarixin dəyişən şərtləri onları funksiyasız hala gətirir. Cənubi Qafqazda son illərdə formalaşan yeni geosiyasi reallıqlar da məhz belə bir prosesi gündəmə gətirib. Uzun müddət bölgənin siyasi gündəmində yer alan, lakin "siyasi dekorasiya"dan kənara çıxa bilməyən ATƏT-in Minsk qrupunun da tarixə qovuşması qaçılmaz zərurətə çevrildi.**

Ötən gün ATƏT Nazirlər Şurası tərəfindən qurumun Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub. Bildirilib ki, qərara əsasən, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin ABŞ Prezidentinin dəvəti və iştirakı ilə 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində baş tutmuş görüşü çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Fəaliyyətdə olan Sədrinə ünvanlanmış birgə müraciət məktubuna uyğun olaraq, ATƏT-in Minsk Prosesinin, ATƏT-in Fəaliyyətdə olan Sədrinin, ATƏT-in Minsk Konfransının məşğul olduğu münaqişə üzrə Şəxsi Nümayəndəsinin və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə sentyabrın 1-dən etibarən xitam verilib.

Sözügedən strukturların bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 2025-ci il dekabrın 1-dən gec olmayaraq yekunlaşdırılması ATƏT Katibliyinə tapşırılıb. Qərarda, həmçinin keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏT çərçivəsində vaxtilə qəbul edilmiş bütün qərarlar qüvvədən düşmüş və etibarsız elan olunub.

1992-ci ildən bəri fəaliyyət göstərən Minsk qrupu və onun institutları (Fəaliyyətdə olan Sədrin şəxsi nümayəndəsi, Yüksək Səviyyəli Planlaşdırma Qrupu və s.) faktiki olaraq Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir nəticə ortaya qoya bilmədi. Əksinə, illər boyu status-kvonu qorudu, Ermənistanın işğal siyasətini ört-basdır etdi və prosesin uzanmasına xidmət göstərdi. Bu baxımdan, ATƏT çərçivəsində vaxtilə qəbul olunmuş bütün sənədlərin qüvvədən düşməsi bu gün Azərbaycanın mövqeyini möhkəmləndirir və Ermənistanın illərlə beynəlxalq təşkilatlarda yaratdığı "işğal faktını gizlədən saxta arqumentlər"i tamamilə sıradan çıxarır. Bu, həm də Azərbaycanın ərazi bütövlüyü və suveren hüquqları məsələsində artıq heç bir alternativ müzakirə platformasının qalmadığına işarədir.

Qərarın əsası Vaşinqton görüşündə qoyulmuşdu. Burada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT rəhbərliyinə birgə müraciəti tərəflərin münaqişəni beynəlxalq gündəlikdən çıxarmaq iradəsini göstərdi. Bu, müqavilə öncəsi yol xəritəsinin mühüm bəndlərindən biridir. Minsk qrupunun illərlə "həmsədr dövlətlər" adlanan ABŞ, Fransa və Rusiyanın əlində geosiyasi alətə çevrilməsi hamıya məlum idi. İndi bu institutların ləğvi Qərbin rəsmi Bakının təklif etdiyi sülh gündəliyini qəbul etməsi anlamına gəlir. Bu, həm də Fransanın "Qarabağ kartı"ndan tamamilə məhrum olması, Rusiyanın isə prosesdən formal şəkildə kənarlaşdırılması və bütün kənar pozucu bleflərin blok edilməsidir. Başqa sözlə, beynəlxalq güclərin "dondurulmuş münaqişə" alətindən istifadə imkanları rəsmən bağlanır.



Bu addım Cənubi Qafqazda uzunmüddətli sabitlik üçün əsaslardan biri olacaq. Yaradılan yeni nəqliyyat-logistika xətləri, enerji əməkdaşlığı, regional təhlükəsizlik mexanizmləri Minsk prosesinin quru kağızdan ibarət sxemlərindən qat-qat real və dayanıqlı perspektiv vəd edir. Qərarın dekabrın 1-dək texniki baxımdan tam icrası isə postmünaqişə dövrünün rəsmi yekunu kimi tarixə düşəcək. Azərbaycan diplomatiyası son illərdə "postmünaqişə reallıqları" terminini bütün beynəlxalq platformalarda ardıcıl şəkildə qabardaraq bu qərarın qəbulunu hazırladı. ATƏT-in bu addımı Azərbaycanın təkbaşına yaratdığı reallığın təkcə Avropada deyil, bütün dünyada qəbul olunduğunu təsdiqləyir. Bu, həm də Azərbaycanın gələcəkdə regional sülh təşəbbüslərinin aparıcı müəllifi olacağını göstərir.

ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanması Azərbaycanın qazandığı Zəfərin diplomatik və hüquqi müstəvidə tam təsdiqi kimi qiymətləndirilməlidir. Qərar həm Ermənistanın illərlə arxasında gizləndiyi beynəlxalq platformaları sıradan çıxarır, həm də regionda yeni sülh arxitekturasının əsas müəllifinin Azərbaycan olduğunu təsdiqləyir.

Cənab Prezident İlham Əliyevin qətiyyətli iradəsi və uzaqgörən diplomatik strategiyası sayəsində Azərbaycan artıq yalnız Cənubi Qafqazın aparıcı aktoru deyil, həm də qlobal səviyyədə etibarlı və fəal tərəfdaş kimi tanınır. Ölkəmiz bundan sonra da beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyi ilə regionda sülh və sabitliyin qorunmasını təmin edəcək, diplomatik təşəbbüslərini daha da gücləndirəcək. Bu qərar bir daha göstərdi ki, rəsmi Bakı bölgədə yeni reallıqlar yaradır və geosiyasi balans Azərbaycanın xeyrinə dəyişir.

***Tacir SADIQOV***
***XQ***

# Liderin regional və qlobal siyasətə baxışları




## II MƏQALƏ

### Azərbaycanın bölünməsi

Biz Azərbaycanın Şimal və Cənub hissələrinə Qacar İmperiyası ilə Rusiya İmperiyası arasında gedən müharibələr nəticəsində XIX əsrin üçüncü onilliyində bölündüyünü unutmuruq (1828-ci il Türkmənçay müqaviləsi). Prezident İlham Əliyev bu anlama yeni bir geosiyasi məna çaları gətirmişdir. "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində dövlət başçısı Azərbaycanın XX əsrin ikinci onilliyinin sonunda (rəsmi olaraq, 1920-ci il dekabrın 2-də) bölünməsini yeni kontekstdə aktuallaşdırmışdır. Mənbələr də təsdiq edir ki, ermənilərin "Aşxatavor" ("Zəhmətkeş") adlı qəzeti həmin dövrdə yazmışdır: "Moskvadan göndərilən əmrə uyğun olaraq Azərbaycanın Zəngəzurdan imtina etməsini biz alqışlayırıq".

Azərbaycanın qədim torpaqlarının bir hissəsinin qanunsuz olaraq ermənilərə verilməsini obrazlı desək, "qardaş yardımı", "iki xalqın dinc yaşamasının fundamenti" kimi ibarələrlə ifadə edirdilər. Ancaq tarixi fakt ondan ibarət idi ki, sovetlərin təkidi və əmri ilə Azərbaycanın ərazisinə daxil olan Zəngəzuru Ermənistana birləşdirdilər. Bu proses Zəngəzurun aborigen insanları olan azərbaycanlıların həm amansız deportasiyası, həm də böyük işgəncələr verilməsi ilə müşayiət olunurdu.

Prezident İlham Əliyev bununla çox mühüm geosiyasi məqamı önə çəkir. Zəngəzurun zorla Azərbaycandan qoparılması faktiki olaraq böyük bir coğrafiyada parçalanma yaratdı. İ.Stalin əslində bu niyyətlərini açıq ifadə etmişdir. O, 2020-ci il noyabrın 16-da V.Leninə göndərdiyi teleqramda üç təhlükədən bəhs edir. Onlardan birini aşağıdakı kimi təqdim edir. İ.Stalin yazırdı: "Əgər Türkiyə Ermənistanda qalarsa, onda Azərbaycan ilə ümumi sərhəd qazanar. Bu təhlükəni aradan qaldırmaq üçün indiki şəraitdən istifadə edərək Ermənistanı sovetləşdirmək, erməni sovet pazı ilə Türkiyə və Azərbaycanın arasına vurmaq lazımdır".

İfadəyə diqqət edək: "erməni sovet pazı" türk dünyasını coğrafi, siyasi və geosiyasi olaraq parçalamaq məqsədi daşıyırdı. 100 ildən çoxdur ki, bu vəziyyət Cənubi Qafqaza və bütövlükdə türk dünyasına ciddi əngəllər törədir. Azərbaycanın dövlət başçısı bu kontekstdə Azərbaycanın sovetlər tərəfindən ikiyə bölünməsinin regional və qlobal fəsadlarını tam haqlı olaraq bütün dünya siyasətinin gündəminə gətirir.

Müsahibəsində İlham Əliyev məsələni çox aydın və dolğun təqdim etmişdir. Dövlət başçısı demişdir: "…necə oldu Azərbaycan iki yerə bölündü. Bu, Azərbaycanın sovetləşməsinin ilk aylarında baş verdi. 1917-ci ildə Rusiya imperiyası süqut etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu, 1918-ci ilin mayında qurulan, müsəlman dünyasında ilk demokratik respublika idi. Lakin o, yalnız 1920-ci ilin aprel ayınadək mövcud oldu – həmin vaxt Rusiyanın ordusu Azərbaycana daxil olaraq onu işğal etdi.

1917-ci ildə inqilab edən bolşeviklər xalqa yalan vədlər verirdilər. Şüarlar var idi: "zavodlar fəhlələrə, torpaq kəndlilərə, xalqlara azadlıq". Biz öz dövlətimizi qurduq, amma bolşeviklər bu dövləti əlimizdən aldılar. 1920-ci ilin aprelində rus ordusu Azərbaycana daxil olub onu işğal etdi. Cəmi bir neçə ay sonra - həmin ilin noyabrında sovet Rusiyası hökuməti qərar qəbul etdi ki, Zəngəzuru – bizim "Qərbi Zəngəzur" adlandırdığımız ərazini Azərbaycandan alıb Ermənistana versin. Bununla da Azərbaycan iki yerə bölündü: əsas hissə və Naxçıvan. Qərbi Zəngəzur isə onların arasında qaldı".

Sovetlərin bu bölücü fəaliyyətini SSRİ dönəmində azərbaycanlılar elə də hiss etmədilər, çünki sərhəd yox idi. Ancaq birincisi, hüquqi olaraq artıq Zəngəzur Azərbaycanın siyasi-hüquqi-coğrafi sərhədləri daxilində qəbul edilmirdi, ikincisi, sovetlər dağılanda dərhal ermənilər əsl sifətlərini göstərdilər. Onlar Zəngəzuru azərbaycanlıların keçidi üçün bağladılar.

Belə aydın olur ki, indi Zəngəzur özünün həqiqi tarixi, siyasi və geosiyasi funksiyasını yerinə yetirə bilmir, çünki onu ermənilər Azərbaycanla Türkiyə arasına yeridilmiş "sovet pazı" kimi hələ də saxlayırlar. Daha geniş miqyasda bu türk dünyası arasında kommunikasiya üçün əngəl olaraq qalır. Dünya miqyası üçün də Zəngəzur çox önəmlidir, ona görə ki, onun açılması onlarla dövlətin bir-biri ilə çox faydalı əlaqələr qurmasına geniş imkanlar yaradacaq.

Beləliklə, Azərbaycan Prezidenti real faktlar əsasında geniş geosiyasi məkan üçün olduqca faydalı təklif irəli sürür. İlham Əliyev vurğulayır ki, Zəngəzur Dəhlizinin açılması hər şeydən öncə 100 ildən çox bundan qabaq pozulmuş tarixi ədalətin qismən bərpa olunmasına xidmət edir. Əlavə, Türk dünyasının təbii olaraq kommunikasiya yaratmaq hüququna müsbət təsir göstərir.

Nəhayət, bundan dünya Şərqi və Qərbi olaraq yararlana bilir. Yəni Zəngəzuru işğal edib ermənilərə verməklə böyük bir tarixi ədalətsizlik ediblər. İndi onun aradan qaldırılması da bütün dünya üçün əhəmiyyətlidir.

Bunlardan Prezident İlham Əliyevin müsahibədə Azərbaycanın ikiyə bölünməsinin geosiyasi aspektdə anlamına yeni məna çalarları verməsinin yüksək dərəcədə əhəmiyyəti olduğu nəticəsini çıxara bilərik. Bu cəhət üzərində geniş dayanmağa ehtiyac vardır.

### Zəngəzur Orta Dəhliz kontekstində

Azərbaycan mediası bu barədə çox yazmışdır. Zəngəzur Dəhlizinin açılmasının kommunikativ funksiya aspektində birbaşa Çindən başlayan Orta Dəhliz ilə əlaqələndirmək tamamilə təbii və düzgündür. Zəngəzur elə bir coğrafiyada yerləşmişdir ki, onun vasitəsi ilə "Bir kəmər, bir yol" layihəsi çərçivəsində faydalı və sabit nəqliyyat və logistika işlərini görmək olar. Bundan Çindən başlayaraq marşrut üzərində olan hər bir dövlət, o cümlədən İran və Ermənistan da faydalanacaq.

Bütövlükdə türk dövlətlərinin quru yolla əlaqəsi məsələsinin başlıca çətinliyi aradan qalxacaq. Türkiyə ilə Azərbaycan coğrafi olaraq təbii kommunikativ bağlantıya nail olacaqlar. Bunun sayəsində dünyanın çox sayda dövlətləri ciddi maddi fayda götürəcək.

Uzun müddətdir ki, Qərblə Şərqin və Şimalla Cənubun beynəlxalq layihələr çərçivəsində etibarlı kommunikativ dəhliz axtarışı da bir maneəni aşmış olacaq. Azərbaycan lideri həmin bağlılıqda müsahibəsində xüsusi vurğulamışdır: "Deməli, bu, tamamilə Azərbaycan ərazisində tikilmiş həqiqi Şimal-Cənub dəhlizidir. Rusiya sərhədindən İran sərhədinədək dəmir və magistral yolları əlaqəmiz var. Çatışmayan hissə İran ərazisindədir. Onlar təxminən 150 kilometrlik və ya daha çox hissəni tikməlidirlər. Lakin bu, müəyyən vaxt aparacaq, bəlkə də bir neçə il. Bəs, Şimalla Cənub arasındakı əlaqələr necə qurulacaq? Zəngəzurdan keçə bilər. Xəritəni göz önünə gətirsəniz, həmin yol Şimali Avropadan Rusiyaya, Azərbaycana, sonra Azərbaycandan Zəngəzura gedə, Naxçıvana daxil ola və oradan isə bizim İranla dəmir yolu əlaqəmiz var, - və onunla Fars körfəzinə çıxmaq olar. Deməli, əslində, Zəngəzur dəhlizi təkcə Şərq-Qərb deyil, həm də Şimal-Cənub nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən Şimal-Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq - Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana. Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək. Sualınıza qayıdaraq qeyd edim, mən bilirəm ki, İran Hökuməti bunu başa düşür və Azərbaycan bütün bölgə ölkələri arasında regional əməkdaşlığı gücləndirmək üçün hər şeyi edəcək".

Prezident İlham Əliyevin dəqiq təsvir etdiyi bu mənzərənin ciddi geosiyasi anlamı da mövcuddur.

### Multilateral kommunikasiya nümunəsi

Multilaterializm ümumi anlamda beynəlxalq səviyyədə çoxaspektli əlaqələrə aiddir. Burada fərqli cəhət hər bir iştirakçı dövlətin münasibətlərdə bərabər hüquqa malik olmaq və mövcud imkanlardan ayrı-seçkilik olmadan istifadə etmək imtiyazına sahib olması ilə bağlıdır. Əlbəttə, bunun üçün ölkələrarası münasibətlərin multilateral təşkili mexanizmi də işlənməlidir. Geosiyasi təlimlərdə bu xüsusiyyətinə görə multilateralizmi bilateralizm (ikitərəfli münasibətlər) və unilateralizmdən (təklikdə fəaliyyət göstərmək) fərqləndirirlər. O cümlədən multilateral əməkdaşlıq inklüzivliyi, imtiyazlılıqda bərabərliyi və kollektiv idarəetmə özəllikləri ilə digərlərindən seçilirlər.

Aydındır ki, çoxtərəfli və çoxaspektli münasibətlərə aid olan multilaterallıq hər bir konkret nümunədə xüsusi məna çaları ala bilər. Azərbaycan Prezidentinin Zəngəzura geosiyasi məkan kimi verdiyi məna çaları vurğulanan məqamların yaradıcı dərk edilməsi ilə əlaqəlidir. Onun konkret əlamətlərini göstərmək olar.

Birincisi, Prezident İlham Əliyevin müasir mərhələdə Zəngəzurun coğrafi olaraq əməkdaşlıq layihəsi çərçivəsində qiymətləndirməsini tarixi, siyasi və geosiyasi faktorlarla əlaqələndirməsi vacib nəzəri və praktiki addımdır. Bununla iki müsbət məqam önə çıxır. Onlardan biri Azərbaycan dövlətinin Zəngəzurun tarixi Azərbaycan torpağı olması həqiqətini qətiyyən unutmadığı ilə əlaqəlidir. Digər məqam Azərbaycanın beynəlxalq hüquqdan kənara çıxmadan Zəngəzur məsələsinin multilateral əməkdaşlıq formatı çərçivəsində qəbul edilməsini aktual hesab etməsindən ibarətdir. Bu iki məqamdan avtomatik olaraq məntiqi nəticə alınır: Zəngəzurun "Bir kəmər, bir yol" layihəsinin mühüm kommunikativ elementi kimi adekvat dərki, onun tarixi, siyasi və geosiyasi özəllikləri ilə bağlıdır.

Daha sonrakı məqam vurğulanan xüsusiyyətlərin Zəngəzuru substantiv aspektdə geniş geosiyasi məkanda multilateral əlaqələrin çox əlverişli coğrafiyası olaraq qəbul etməyin zəruriliyini ifadə etməsidir. Funksional aspektdə isə Zəngəzur Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində faydalı kommunikativ əlaqələrin qurulmasının vazkeçilməz faktoru olması aktuallaşır.

Bütün bunlar onu göstərir ki, İlham Əliyev Azərbaycanın sovet dönəmində ikiyə bölünməsi məsələsini müasir mərhələdə aktual regional və qlobal əməkdaşlığın çox vacib aspektləri ilə əsaslı surətdə əlaqələndirir.

Bu təşəbbüsü müasir geosiyasətdə multilateral kommunikasiyanın yeni nümunəsi kimi dərk etmək gərəkdir. Konseptual cəhətdən tamamilə əsaslandırılmış bu yanaşma, həm də birbaşa praktiki fayda verə bilir. Məsələnin də ən əhəmiyyətli tərəfi məhz bu xüsusiyyətlə bağlıdır. Dövlət başçısı bəşəri mənəvi-mədəni dəyərlərə, beynəlxalq hüquqa və regionun tarixi-siyasi təkamülünün əsas əlamətlərinə uyğun olan yanaşma ilə Azərbaycanın coğrafi olaraq bütövləşməsinin dünya üçün faydalı olduğunu nümayiş etdirir. Eyni zamanda Azərbaycanın coğrafi olaraq bütövləşməsinin regionun təbii inkişafı üçün stimulverici faktoru olduğunu əsaslandırır.

Daha geniş miqyasda isə Azərbaycanın və regionun coğrafi bütövlüyünün Türk dünyasının bütövlüyünə xidmət etdiyini göstərir. Və bütün bu müsbət dəyişikliklər birbaşa beynəlxalq əməkdaşlıq layihəsi kontekstində real məzmun alır. Deməli, Azərbaycan faktiki olaraq "Bir kəmər, bir yol" layihəsinin geosiyasi kontekstdə funksiyaları sırasında inteqrativlik cəhətini ön sıraya çıxarır. Bunu nəzəri, konseptual və siyasi-diplomatik aspektlərin vəhdətində təqdim edir.

Bunlardan Türk Dövlətləri Təşkilatının (TDT) missiyası, mahiyyəti, məqsədləri və funksiyaları ilə bağlı Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibədə irəli sürdüyü tezislərin təhlilinə keçmək məntiqidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Gürcüstan suverenliyini ayıq-sayıq qoruyur

## *Xarici təsirlərin və QHT casusluğunun qarşısı qətiyyətlə alınır*

**Gürcüstanda qeyri-hökumət təşkilatlarının (QHT) fəaliyyəti və onların ictimai-siyasi proseslərə təsiri həm ölkə daxilində, həm də beynəlxalq arenada müzakirə mövzusuna çevrilib. Xüsusilə son illər baş verən qanunvericilik dəyişiklikləri, hökumət ilə QHT-lər və onların beynəlxalq donorları arasında yaranan gərgin münasibətlər bu sektorda əsaslı dönüş nöqtəsinin formalaşdığını göstərir.**



Gürcüstan hökuməti uzun müddət vətəndaş cəmiyyətinin inkişafını dəstəkləyib. Dövlət institutları bu təşkilatlarla əməkdaşlıq şəraitində bir sıra islahatlara imza atıb, xüsusilə hüquqi maarifləndirmə, insan hüquqları və sosial layihələr sahəsində partnyorluqlar qurub. Lakin son dövrlərdə bəzi QHT-lər öz əsas fəaliyyət sahələrindən uzaqlaşaraq, bilavasitə siyasi proseslərə müdaxilə edir və ictimai rəyin formalaşmasında rol oynamağa çalışır. Ölkədə hakimiyyətə qarşı baş tutan etiraz aksiyalarında fəal iştirak edirlər. Onların bu fəaliyyət istiqamətləri və siyasi ritorikası cəmiyyətin müəyyən qruplarında, eləcə də hökumət dairələrində narahatlıq doğurur.

"Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi də bu narahatlıqların hüquqi əsasda ifadəsi idi. Sənəd xaricdən maliyyə alan təşkilatların illik maliyyə hesabatı



təqdim etməsini tələb edirdi. Bu təşəbbüsün əsas məqsədi Gürcüstanda ictimai rəyi və siyasi müzakirələri xarici təsirlərin nə dərəcədə yönləndirdiyini müəyyənləşdirmək idi. Amma bu qanun layihəsi cəmiyyətin bir hissəsi, müxalifət qüvvələri və beynəlxalq tərəfdaşlar tərəfindən ciddi tənqid olundu. Bəzi QHT-lər qeydiyyatdan keçmək, xarici maliyyə dəstəyindən məhrum olmaq istəmirlər. Bir qrup QHT-nin bir neçə gün bundan əvvəl bəyanat yayması da bundan xəbər verir. Onlar bildiriblər ki, 11 avqustda Antikorrupsiya Bürosundan növbəti məktubu alıblar və büroya hüquqi sənədlər göndərəcəklər. Bu sənədlərdə qeyd olunacaq ki, onların həmin reyestrdə qeydiyyata alınması qanunauyğun deyil: "Dəfələrlə ictimaiyyətə açıqladığımız mövqeyimizə uyğun olaraq bir daha bəyan edirik ki, biz xarici dövlətin maraqlarını daşıyan qurum kimi qeydiyyatdan keçməyəcəyik. Biz nizamnaməmizə əsasən, fəaliyyət göstərən müstəqil gürcü QHT-ləriyik".

Daha sonra qeyd olunur ki, müstəqil QHT-lərə və azad mediaya təzyiq göstərmək məqsədi demokratiyanın məhv edilməsidir. Lakin biz işimizi davam etdirəcəyik və gürcü xalqını dəstəksiz qoymayacağıq. Gürcüstan xalqının haqq etdiyi azad, demokratik və Aİ-yə üzv dövlət olana qədər mübarizəni davam etdirəcəyik. Bir daha bəyan edirik ki, biz rus qanunları ilə yaşamağa hazırlaşmırıq və gürcü xalqının hüquqlarını qorumaq uğrunda mübarizəmizi davam etdirəcəyik".

Bu bəyanatı imzalayanlar arasında "Vətəndaş Cəmiyyəti Fondu", "Sapari", "Beynəlxalq Şəffaflıq – Gürcüstan", "Media İnkişaf Fondu", "İSFED", "Sosial Ədalət Mərkəzi" kimi QHT-lər var. Bəyanat açıq-aydın qanunun tələblərinə meydan oxumaq idi. Lakin vaxtında da layiq olduğu cavabı aldılar. Tbilisi Şəhər Məhkəməsi Prokurorluğun vəsatətini təmin edərək, bir neçə qeyri-hökumət təşkilatının, o cümlədən yuxarıda adları çəkilən QHT-lərin bank hesablarına həbs qoydu. Prokurorluğun məlumatına görə, bu qərar sabotaj, xarici təsir altında olan qurumlara hakimiyyət əleyhinə fəaliyyətində yardım göstərilməsi, milli təhlükəsizliyə və konstitusion quruluşa qarşı yönəlmiş fəaliyyətlərin maliyyələşdirilməsi faktları üzrə aparılan istintaq çərçivəsində qəbul edilib.

***

İstintaqın iddiasına əsasən, 2024-cü ildə keçirilən etiraz aksiyaları zamanı zorakı toqquşmalar baş verib və bəzi QHT-lərin maliyyə vəsaitləri polisə qarşı istifadə edilən xüsusi avadanlıqların alınmasına sərf olunub. Həmçinin bu təşkilatların aksiyalarda iştirak edən şəxslərə və onların ailələrinə maddi və hüquqi dəstək göstərilib. Prokurorluq qeyd edib ki, bu fəaliyyətlər təşkilatların nizamnamə məqsədlərini aşır və qanunla ziddiyyət təşkil edir. Bu səbəbdən 27 avqust 2025-ci il tarixində onların bank hesablarına həbs qoyulub.

Prokurorluq onların fəaliyyətini "milli təhlükəsizlik və konstitusiya quruluşuna qarşı yönəlmiş addım kimi dəyərləndirib". Maraqlıdır ki, məhkəmənin bu qərarı beynəlxalq ictimaiyyətin, xüsusilə də Qərb dövlətlərinin narahatlığına səbəb olub. Məsələn, İsveç Xarici İşlər Nazirliyi Gürcüstanda 7 qeyri-hökumət təşkilatının bank hesablarının dondurulmasını demokratiya naminə "səhv istiqamətdə atılmış növbəti addım" kimi qiymətləndirib və bu addımı narahatedici adlandırıb. Nazirlik bu qərarı Gürcüstanın demokratik inkişafı baxımından geriyə atılmış addım kimi dəyərləndirib.

Estoniya Xarici İşlər Nazirliyi baş verənləri "demokratiya üçün böyük uğursuzluq" adlandıraraq mövqe ortaya qoyub. Çexiya Xarici İşlər Nazirliyi də məsələ ilə bağlı bəyanat verərək, rəsmi Praqanın Gürcüstanda vətəndaş cəmiyyətinin yanında olduğunu bildirib və hökuməti aparılan araşdırmaları dayandırmağa, eləcə də dondurulmuş maliyyə vəsaitlərini azad etməyə çağırıb. Böyük Britaniyanın Gürcüstandakı səfirliyi isə bu qərarı siyasi motivli hesab edərək, onun vətəndaş cəmiyyətini susdurmaq məqsədi daşıya biləcəyindən narahatlığını ifadə edib.

İstənilən halda Gürcüstan öz mövqeyindən, milli maraqlarından dönmək niyyətində deyil. Bu açıqlamalara verilən reaksiya da bunu göstərir.

Gürcüstan Baş Prokurorluğu tərəfindən 7 qeyri-hökumət təşkilatının bank hesablarına həbs qoyulmasını Tbilisi ölkənin milli təhlükəsizliyini qorumaq üçün zəruri hesab edir. Gürcüstan parla-



mentinin sədri Şalva Papuaşvili bu kontekstdə məsələyə münasibət bildirərək, xarici səfirliklərin və beynəlxalq tərəfdaşların bəyanatlarını tənqid edib. Xüsusilə, Böyük Britaniya səfirliyinin səsləndirdiyi narahatlığı "qeyri-dost" addım kimi qiymətləndirən Papuaşvili qeyd edib ki, bu cür bəyanatlar cəmiyyətdə haqlı suallar və şübhələr doğurur. Onun sözlərinə görə, səfirlik əvvəllər "Tabula" nəşri və "Gələcək Akademiyası" kimi ekstremist qurumları maliyyələşdirməyə çalışıb və bu qurumların nümayəndələri seçkiləri sabotaj etmək niyyəti daşıyıblar.

Papuaşvili əlavə edib ki, Böyük Britaniya səfirliyinə 2024-cü il seçkiləri zamanı dəstəklədiyi təşkilatlarla bağlı şəffaflıq nümayiş etdirməsi üçün çağırış edilsə də, bu suallar cavabsız qalıb. Onun fikrincə, əksinə, səfirlik ictimai narahatlığı cavablandırmaq yerinə, yenidən tənqidi və müdaxilə xarakterli bəyanatla çıxış edib. Gürcüstan hökuməti beynəlxalq reaksiyalara baxmayaraq, QHT-lərə qarşı həyata keçirilən tədbirlərin siyasi deyil, hüquqi və təhlükəsizlik əsaslı olduğunu bəyan edir. Hakimiyyət orqanları bildirirlər ki, istintaq prosesi qanun çərçivəsində və konkret sübutlara əsaslanaraq aparılıb, ölkənin daxili sabitliyinin qorunması və xarici təsirlərin qarşısının alınması üçün bu addımlar zəruridir. Bu baxımdan Gürcüstanın gələcəyinə müdaxilə yolverilməzdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Dövlət başçıları söz-söhbətlərə nöqtə qoysalar da...

## *“Bulanıq suda balıq tutmaq” sevdasına düşənlər hələ də susmurlar*

**Rəsmi Bakı hər zaman bu məsələyə həssaslıqla və diqqətlə yanaşıb. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarında vurğulandığı kimi: “Biz Azərbaycan ilə İran arasında dövlətlərarası əlaqələrin hərtərəfli inkişafına xüsusi önəm veririk. Ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın ortaq tarixi, dini və mədəni dəyərlərinə əsaslanaraq möhkəmlənir”.**



Azərbaycanı özünə yad ölkə saymayan, burada özünü qərib hesab etməyən İran Prezidenti Məsud Pezeşkian da eyni düşüncədədir: “Biz keçmişdə ortaq tarixi bölüşmüşük, ancaq bu gün aramızda sərhəd var. İki ölkənin xalqı kimi bir-birimizin qəmimizə, sevincimizə şərik olmuşuq. Biz keçmişdə çox yaxın qardaş olmuşuq. Bundan sonra da belə olacaq”. Bu fikirlər rəsmi Tehranın ölkəmizlə münasibətlərin inkişafında maraqlı olduğunu göstərir.

Azərbaycan–İran münasibətlərinin formalaşma dinamikası hamar olmasa da, yaxın qonşuluq, eyni coğrafiyanı bölüşmək və xalqlar arasındakı tarixi-dini bağlar iki ölkə arasında davamlı münasibətləri zəruri edib. Məhz, bunun nəticəsidir ki, Azərbaycan ilə İran arasında ticarət dövriyyəsi daim artan xətt üzrə inkişaf edir. Amma bu müsbət dinamikanı gözü götürməyən qüvvələr də var. Həmin qüvvələrin İranda hakimiyyətin müəyyən qollarında təmsil olunduqları sirr deyil. Onlar bəzən Azərbaycanı ağlasığmaz günahlarda ittiham etməyə qədər irəli gedirlər.

Belə iddialardan birinə İran Prezidenti Məsud Pezeşkian son qoyub. O, İsrailin, guya Azərbaycan ərazisindən istifadə edərək İrana hücumlar həyata keçirməsi ilə bağlı səsləndirilən iddiaları təkzib edib. Bu barədə o, amerikalı jurnalist Taker Karlsona verdiyi müsahibəsində danışıb: “Təhlükəsizlik orqanlarımız qonşu ölkələrlə İsrail rejimi arasında hərbi əməkdaşlıqla bağlı heç bir fakt qeydə almayıb. Bu söz-söhbətlərin əsası yoxdur”. Pezeşkian əlavə edib ki, əksinə, bəzi region ölkələri rəsmi şəkildə İrana dəstək göstərib və ərazilərinin Tehrana qarşı istifadə edilməsinə yol verməyəcəklərini bəyan ediblər.

Bundan əvvəl İran və Ermənistan mətbuatı İsrailin, guya, Azərbaycan ərazisindən pilotsuz uçuş aparatları və raketlər vasitəsilə İrana zərbələr endirdiyi barədə xəbərləri tirajlamışdı. Amma bu feyk-xəbərlər və iddialar İranın birinci şəxsi tərəfindən təkzib olundu. Yəni ilk baxışda bu açıqlaması ilə Məsud Pezeşkian Azərbaycanla bağlı təkcə daxildəki mühafizəkarların deyil, həm də ermənilərin həvəslə qoşulduğu diplomatik etikadan kənar və əsassız iftiralarına son qoydu. Amma ondan sonra qarayaxma kampaniyasının dayanacağını gözləmək sadəlövhlük olardı.

Görünən odur ki, bəzi rəsmilər, məlum dairələrə yaxın media qurumları və bəzi “ekspertlər” öz çirkin əməllərindən əl çəkmək fikrində deyillər. Bunun bariz nümunəsini İran parlamentinin milli təhlükəsizlik üzrə Komissiyasının sədri İbrahim Əzizinin iki gün əvvəlki açıqlamasında gördük. “Azərbaycan ərazisindən həqiqətən də İrana hücumlar üçün istifadə edildiyini” bildirən Əzizinin sözlərinə görə, sərhədçilər qəti şəkildə bəyan ediblər ki, İsrail Azərbaycan sərhədindən istifadə edərək İrana pilotsuz təyyarələr sızdırıb. Bundan daha irəli gedən İran parlamentinin rəsmisi Xarici İşlər Nazirliyinin “bu məsələni Azərbaycan Prezidenti qarşısında qaldırdığını, onun isə sənəd-sübut tələb etdidiyini bildirib.

***

Dövlətimizin başçısı Azərbaycan–İran əlaqələrinə xələl gətirmək istəyənlər barədə bir neçə dəfə danışıb. Misal üçün cari il iyunun 27-də İranın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilunun etimadnaməsini qəbul edərkən Prezident İlham Əliyev vurğuladı ki, Məsud Pezeşkianın ölkəmizə səfəri zamanı səsləndirdiyi bəyanatlar və fikirlər Azərbaycan ictimaiyyəti tərəfindən çox müsbət qəbul olunub. Dövlət başçısı İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar Azərbaycanın öz mövqeyini ifadə edən ilk ölkələrdən biri olduğunu deyərək, bu gərginliyi qınadığını vurğulayıb və qarşıdurma zamanı həlak olan İran vətəndaşları ilə bağlı bir daha başsağlığını ifadə edib. İranla İsrail arasında bu gərginliklə əlaqədar bəzi dairələrin və media təmsilçilərinin Azərbaycan və İran arasında münasibətlərə xələl gətirmək üçün şayiələr və yalanlara əsaslanan məlumatlar yaydığını deyən Prezident İlham Əliyev bütün bunların tamamilə cəfəngiyyat olduğunu bildirib. Yeni səfir Müctəba Dəmirçilu, öz növbəsində Azərbaycanla İran arasındakı münasibətlərin dostluğa, qonşuluğa və qardaşlığa əsaslandığını qeyd edib: “İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar Azərbaycanın prinsipial və qəti mövqeyi İranda yüksək qiymətləndirildi. İran tərəfi tam əmindir ki, Azərbaycan ərazisindən İrana qarşı heç vaxt istifadə oluna bilməz, Azərbaycan dövləti buna heç zaman imkan verməz”.

Beləliklə, daim sülhpərvər və beynəlxalq hüquqa hörmətlə yanaşan Azərbaycan qonşu İranla heç bir məhdudiyyət olmadan, qarşılıqlı fayda və mehriban qonşuluq prinsipləri əsasında siyasi, iqtisadi və mədəni əlaqələrin dərinləşməsində maraqlı olduğunu deyir. İran Prezidenti də AzTv-yə müsahibəsində dediyi “...Birinci prioritetimiz qonşu ölkələrlə yaxın münasibətlərə malik olmaqdır” fikri Tehranın da Azərbaycanla münasibətlərə xüsusi önəm verdiyini ifadə edir. Bakı bu münasibətləri qarşılıqlı etimada söykənərək, anlaşılmazlıqların dialoq yolu ilə aradan qaldırılmasını təklif edir.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



***Xəyal BƏŞİROV,***
***Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin sədri***

İran Prezidenti Məsud Pezeşkianın öncə Bakıya, bir qədər sonra Xankəndiyə səfər etməsi və həmin səfərləri zamanı səsləndirdiyi fikirlər, etdiyi jestlər özü-özlüyündə həmin radikallara bir mesaj idi. Cənab Pezeşkian İrandakı bəzi qüvvələrin, onlara bağlı media orqanlarının və siyasətçilərin Azərbaycana qarşı ittihamlarının əsassız, absurd və böhtan olduğunu təsdiqləmiş oldu. Həmin ittihamlar və böhtanlar Azərbaycan tərəfindən daim rədd edilirdi və bəyan edilirdi ki, onlar tamamilə uydurmadır, bizim üçün əhəmiyyət kəsb etmir. İran Prezidenti məlum açıqlaması ilə rəsmi Bakının haqlı olduğunu təsdiqlədi ki, İrandakı həmin dairələrin ittihamlarının heç bir əsası və sübutu yoxdur, fakta söykənməyən iftiralardır. Lakin Prezidentin ədalətli və təqdirəlayiq fikirləri səslənəndən sonra da Azərbaycana qarşı iftiraları davam etdirən qüvvələr bu gün də öz işlərindədirlər. Onlar İranla Azərbaycan arasında münasibətlərin yaxşılaşmasını istəmir, bütün gücləri ilə münasibətlərin pozulmasına çalışırlar. Prezident Pezeşkianın Azərbaycana səfərləri, burada verdiyi açıqlamalar həmin qüvvələri qane etmir, onları narazı salır. Ona görə də, əslində, nümayiş etdirdikləri mövqe ilə prezidentin mövqeyinə qarşı çıxmış olurlar.

Onların susdurulması üçün gərəkən sərt addımlar atılmadıqca anti-Azərbaycan kampaniyasını bundan sonra da davam etdirəcəklər. İran Prezidenti Məsud Pezeşkian həmin araqarışdıran qüvvələrin öhdəsindən gələ bildiyini konkret addımları ilə nümayiş etdirməlidir. Bunu etməsə istər-istəməz belə bir fikir formalaşacaq ki, prezidentin həmin qüvvələrə gücü çatmır. Rəsmi Bakı İran–Azərbaycan münasibətlərini pozmağa çalışan, hətta bunun üçün Prezident Pezeşkianın ortaya qoyduğu siyasəti sabotaj edən qüvvələrin susdurulmasını gözləyir. Güman edirik ki, yaxın zamanlarda bu istiqamətdə addımların atılıb-atılmayacağını görəcəyik.

### Ekspert rəyi



***Fikrət SADIXOV,***
***Qərbi Kaspi Universitetinin professoru, politoloq***

– İran parlamentində, ümumiyyətlə, bu ölkənin siyasi elitasında radikal qüvvələr kifayət qədər çoxdur. Bu siyasi elitanın parçalanmasını da müşahidə edirik. Ali dini rəhbərliyə yaxın mühafizəkarlar və Prezidentin ətrafında olan islahatçılar kimi iki siyasi düşərgədən danışa bilərik. Onların arasında müəyyən dərəcədə ideoloji-siyasi qarşıdurma gedir. Aydın məsələdir ki, biz həmişə rəsmi instansiyalara istinad edirik. Həm prezidentin, həm də xarici işlər nazirinin Azərbaycana yanaşması kifayət qədər pozitivdir. Guya müharibədə İsrailə kömək etməyimiz, dron məsələsi dediyimiz instansiyalarda heç vaxt qaldırılmayıb. Əksinə, bu feyk-məlumatları birmənalı şəkildə təkzib ediblər. İndi mühafizəkar radikalların yalanları o həddə gəlib çatıb ki, həmin dronların Azərbaycandan İran tərəfə uçanda öz gözləri ilə gördüklərini bəyan edirlər. Yəqin bu, onların yuxularında gördükləri fantastikanın əlamətləridir.

Axı, Axərbaycan ərazisindən heç bir dron, PUA İran ərazisinə göndərilməyib. Məgər müasir raketlərin, dronların İsraildən İrana qədər uçmasına hansısa maneə və ya məhdudiyyət mövcud idi? Bu mənada onların Azərbaycana ehtiyacları da yox idi. Bu versiyanı havaya üfürənlər fantaziyalarını deyil, reallığı düşünməlidirlər.

Düşünürəm ki, bu, son deyil. İrandakı Azərbaycanı gözləri götürməyən radikal dairələr belə yalan bəyanatları bundan sonra da səsləndirəcəklər. Təbii ki, Bakı bu cür iddiaları qətiyyətlə rədd edəcək. Hazırda konkret bu məsələdə qəbul etdiyimiz mövqe rəsmi Tehranın mövqeyidir. Həmin radikallar prezidentlərinin açıqlamalarını diqqətlə dinləməli və ondan nəticə çıxartmalıdırlar.

# 10 noyabr Bəyanatından sonrakı yeni reallıqlar

## *Aktuallığını itirmiş razılaşmaya Azərbaycanın strateji prioritetləri işığında baxış*

**2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanmış üçtərəfli Bəyanatla İkinci Qarabağ müharibəsinə son qoyuldu. Bəyanatın müddəalarına əsasən, işğal altında olan bir sıra ərazilər – Ağdam, Kəlbəcər və Laçın rayonları müəyyən edilmiş qrafik üzrə və bir güllə atılmadan Azərbaycanın nəzarətinə qaytarıldı. Sənədin ən vacib müddəalarından biri olan 9-cu bənd isə regionun gələcək inkişafı baxımından strateji əhəmiyyət daşıyır.**



Həmin bənddə bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, xüsusilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa nəqliyyat dəhlizinin açılması nəzərdə tutulub. Ermənistan öz ərazisindən keçəcək bu nəqliyyat yolunun təhlükəsizliyinə təminat verməyi öhdəsinə götürüb. Burada əsas məqsəd vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkil olunmasıdır. Sənəddə diqqətçəkən məqamlardan biri də nəqliyyat əlaqəsinin təhlükəsizliyinə nəzarəti Rusiya Federal Təhlükəsizlik Xidmətinin həyata keçirməsi idi.

Qeyd edək ki, indiki geosiyasi şəraitdə Rusiya təhlükəsizlik qüvvələrinin hansısa nəzarəti mümkünsüzdür. Hər nə qədər sənəddə mövcud məqam xüsusi vurğulansa da, Ermənistanın buna imkan verməə ehtimalı yoxdur. Hətta baş nazir Nikol Paşinyan bu yaxınlarda üçtərəfli Bəyanatı bir növ, tarixin arxivinə yolladı. O, keçmişə qayıtmağa ehtiyac olmadığını bildirdi: “10 noyabr 10 noyabrda qaldı”.

Onu da bildirək ki, N.Paşinyan ötən ilin mayında da analoji açıqlama ilə yadda qalmış, üçtərəfli razılaşmanı şübhə altına almışdı. Rəsmi Moskvanın isə əksinə, bəyanatın qüvvəsində qaldığını iddia etdiyi məlumdur. Rusiya rəsmiləri dəfələrlə bildiriblər ki, regionda sabitliyin təminatı və kommunikasiyaların açılması baxımından əsas hüquqi baza 2020-2022-ci illərdə imzalanmış üçtərəfli razılaşmalardır.

Əslində, 10 noyabr Bəyanatının, faktiki olaraq, işlək əhəmiyyət daşımadığını söyləmək üçün əsaslar yetərincədir. Ancaq hüquqi baxımdan belə sənədlərin ləğvi üçün ayrıca mexanizm və ya prosedur göstərilməyib. Mövzunu XQ-yə şərh edən “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirdi ki, üçtərəfli Bəyanat qəbul edilərkən Qarabağda separatizmin kökü hələ tamamilə kəsilməmiş və Azərbaycan ərazi bütövlüyünü təmin etməmişdi: “Bəyanat imzalanandan yalnız üç il sonra Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi və regionda geosiyasi vəziyyət kökündən dəyişdi. İkincisi, Rusiyanın hərbi kontingenti artıq bölgədə yoxdur. Bu, 10 noyabr Bəyanatında nəzərdə tutulan hərbi nəzarət mexanizminin artıq mövcud olmadığını göstərir. Üçüncüsü, bu il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin qəbul etdikləri Birgə Bəyannaməyə görə, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” (TRIPP) bağlantı layihəsi kimi əksini tapmışdır. Əslində Zəngəzur dəhlizi mahiyyəti daşıyan layihə üzrə xüsusi konsorsium yaradılacaq. Həmin sənəddə dəhlizin Rusiya hərbi qüvvələri tərəfindən qorunacağına dair heç bir müddəa yoxdur. Bu, bölgədə yeni iqtisadi və nəqliyyat reallıqlarının formalaşdığını və Rusiya təsirinin praktiki olaraq məhdudlaşdığını göstərir. Bütün bu faktlar ortada ikən, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə bildirib ki, “2020-ci ilin üçtərəfli razılaşmaları aktual olaraq qalır, tərəflərdən heç biri onlardan çıxmayıb və bununla bağlı sənədlər mövcud deyil”.

Kremlin İrəvanla münasibətləri soyuqdur, Bakı ilə əlaqələri isə strateji baxımdan önəmlidir. Üç iştirakçıdan ikisi, yəni Azərbaycan və Ermənistan 10 noyabrdan sonrakı reallığı qəbul edir və həmin sənədin, faktiki olaraq, tarixdə qaldığını vurğulayır. Üçüncünün isə israrla “bəyanat qüvvədədir” xatırlatmasının artıq heç bir hüquqi əsası yoxdur.

Beləliklə, Rusiya tərəfinin mövqeyi əsasən simvolik xarakter daşıyır və bölgədə yaranmış yeni geosiyasi, hərbi və iqtisadi reallıqlarla uzlaşmır. Azərbaycan üçün əsas prioritet, 10 noyabr Bəyanatının hansı formada qalmasından asılı olmayaraq, ərazi bütövlüyünün təmin olunması və Zəngəzur dəhlizi kimi strateji kommunikasiyanın açılmasıdır.

***Musa BAĞIRLI***
***XQ***

# Sumqayıt Kimya Sənaye Parkının bazarı genişlənir

*14 milyard manatdan çox məhsulun 5,2 milyardlıq hissəsi xaricə satılıb*

**Sumqayıt Kimya Sənaye Parkının rezidentləri son 10 ildə, təxminən 14,4 milyard manatlıq məhsul satıb. Bunun da 5,2 milyard manata yaxın hissəsi ixracın payına düşür. Bu barədə İqtisadiyyat Nazirliyi məlumat yayıb.**



Bildirilib ki, bu ilin birinci yarısında sənaye parkında 1,1 milyard manatdan çox məhsul satılıb. Bunun isə 545 milyon manata yaxın hissəsi ixrac edilib. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ixrac, təqribən 20 faizə yaxın artıb.

Yeri gəlmişkən, son zamanlar Azərbaycanda kimya sənayesi məhsullarının istehsalında mühüm artım müşahidə olunur. 2025-ci ilin yanvar-iyul aylarında bu sahədə istehsalın həcmi ötən ilin müvafiq dövrünə nisbətən 10,7 faiz artaraq 955 milyon manatı ötüb. Bu artımda Sumqayıt Kimya Sənaye Parkının da xüsusi çəkisi var. Parkda istehsal edilən tikinti kimyəvilərinin, polad və polimer boruların, sürtkü yağlarının, polimerlərin, karbamidin, müxtəlif çeşiddə kabellərin, şüşə lövhələrin, keramik plitələrin və s. məhsulların ixracı istiqamətində də əhəmiyyətli uğurlar əldə edilib. Bu növ məhsullar dünyanın 70-dən artıq ölkəsinə “Made in Azerbaijan” brendi ilə ixrac olunub.

Xatırladaq ki, Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılıb. Cənubi Qafqazın ən böyük sənaye parkının yaradılmasında məqsəd ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şəraitin yaradılması, bu sahədə sahibkarlığın dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, eləcə də əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasından ibarət olub.

Fəaliyyətə başladığı vaxtdan indiyədək sənaye parkında investisiya portfeli 6 milyard manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Həmin rezidentlərin isə 28-i isə fəaliyyət göstərir. Sahibkarlar tərəfindən görülən işlərə indiyədək 5,5 milyard manatdan çox investisiya yatırılıb. Bunun da hesabına 6 min 300-dən artıq daimi iş yeri yaradılıb. Ərazisi 613 hektar olan parkda neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Bir məqamı da diqqətə çatdıraq ki, Azərbaycanın sənaye zonalarında ilk məhsul istehsalı 2015-ci ildə məhz Sumqayıt Kimya Sənaye Parkında başlayıb. Əgər həmin il burada milyon manatlarla məhsul istehsal edilmişdisə, hazırda istehsal milyardlarla manat həcmində ölçülür.

Ötən müddətdə Sumqayıt Kimya, Hacıqabul, Mingəçevir, Qaradağ, Pirallahı, Balaxanı, Ağdam və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında 137 sahibkarlıq subyekti rezident kimi, 12 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb. Bunlardan 80-i istehsal fəaliyyəti ilə məşğuldur. Bütövlükdə isə 2015-ci ildə ölkəmizdəki mövcud sənaye zonalarında 271 milyon manatlıq məhsul istehsal edildiyi halda, 2025-ci ilin birinci yarısında həmin dövrdəkindən 17,2 milyard manatlıq və ya 63,5 dəfədən çox məhsul istehsal edilib.

Hazırda İqtisadi Zonaların İnkişafı Agentliyinin müəssisələri tərəfindən istehsal olunan qeyri-neft sənayesi məhsulları 70-dən çox ölkəyə ixrac edilir. Məhsullar Şərqi və Qərbi Avropa, Şimali və Cənubi Amerika, Asiya, MDB ölkələri, Türkiyə və digər bölgələrə göndərilir.

Qeyd edək ki, ölkənin iqtisadi inkişafını təşviq etmək və sənaye sahəsini genişləndirmək məqsədi daşıyan sənaye zonalarının əsas ixrac məhsulları arasında tikinti kimyəviləri, polad, polimer borular, sürtkü yağları, polimerlər, karbamid, kabel, şüşə lövhələr, keramik plitələr, tütün məmulatları, ipliklər, elektrodlar, balıq yemi məhsulları, divar kağızları, müxtəlif növ ayaqqabılar və digər məhsullar yer alır. İlin birinci yarısında agentliyin tabeliyində olan sənaye zonaları tərəfindən 583 milyon manatlıq məhsul ixrac edilib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 22,2 faiz çoxdur. Qeyri-neft sənayesi məhsullarının ixracında isə bu göstərici 28,3 faizlik paya malikdir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# BDU-da gənclərin iqlim müzakirələri

**Bakı Dövlət Universitetində (BDU) İqlim Dəyişmələri üzrə Gənclərin Lokal Konfransı “LCOY Azərbaycan-2025”in açılış mərasimi keçirilib. İkigünlük toplantıda 150-dən çox gənc iqlim lideri, dövlət qurumlarının və beynəlxalq təşkilatların nümayəndələri, eləcə də ölkəmizin aparıcı ekspertləri iştirak edirlər.**

Konfrans BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası daxilində fəaliyyət göstərən rəsmi gənclər şəbəkəsi olan YOUNGO-nun təşəbbüsü ilə keçirilir və gənclərin iqlim siyasətində iştirakını təmin etmək, innovativ ideyaların mübadiləsinə şərait yaratmaq və qlobal iqlim gündəminə töhfə vermək üçün əhəmiyyətli platforma rolunu oynayır.

Qeyd edək ki, “LCOY Azerbaijan 2025” iqlim konfransı ölkəmizdə ilk dəfə keçirilir. Bakı Dövlət Universiteti və “SEA BREEZE Resort” ilə tərəfdaşlıq çərçivəsində “CBC – Caspian International Broadcasting Company”nin informasiya dəstəyi ilə keçirilən konfransın əsas təşkilatçısı dayanıqlı inkişaf, ekoloji təhsil və gənclərin ətraf mühitlə bağlı qərarların qəbuluna fəal cəlb edilməsi sahəsində fəaliyyət göstərən, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasında müşahidəçi statusu olan, dünyanın nüfuzlu ekoloji şəbəkələrinin üzvü və Azərbaycanda “Foundation for Environmental Education” beynəlxalq təşkilatının milli operatoru “EkoSfera” Ekoloji-Sosial Mərkəzidir.



Açılış mərasimində BDU-nun rektoru Elçin Babayev, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva, BMT-nin İqlim üzrə lideri Nigar Arpadarai, COP29-un Azərbaycandakı gənc iqlim çempionu Leyla Həsənova və “EkoSfera”nın rəhbəri Firuzə Sultan-zadə çıxış ediblər. Bununla yanaşı, gənclər qlobal iqlim hərəkatında iştirak imkanları ilə bağlı müzakirələr aparıblar.

Konfransın ikinci günü “Sea Breeze Resort”da olacaq. Toplantıda Azərbaycan Gənclərinin İqlim üzrə Bəyannaməsinin qəbul edilməsi nəzərdə tutulub. Bununla yanaşı, konfrans çərçivəsində Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayevin, gənclər və idman nazirinin müavini İndira Hacıyevanın, Milli Məclisin deputatı, ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadənin və Azərbaycan Respublikasının Su Ehtiyatlarından İstifadə və Mühafizə üzrə Dövlət Xidmətinin rəhbəri Rafiq Aslanovun iştirakçılarla görüşü planlaşdırılıb.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqinə mühüm töhfələr verəcək konfrans çərçivəsində keçiriləcək praktiki sessiyalar iştirakçılara müasir kontekstdə ekoinnovativ həllərlə və dayanıqlı biznes yanaşmaları ilə tanış olmaq imkanı yaradacaq. Bununla yanaşı, tədbir gənclərin iqlim fəaliyyətinə səfərbər olunması, milli və beynəlxalq qərar qəbuletmə proseslərində fəal iştirakı, habelə COP30 üçün hazırlanacaq Qlobal Gənclər Bəyannaməsinin formalaşmasına töhfə verilməsi baxımından mühüm platforma olacaq.

***XQ***

# “AzerGold”un qızıl ixracı 2,4 dəfə artıb

**“AzerGold” QSC bu ilin ilk yarısını 33,177 milyon ABŞ dolları xalis mənfəətlə başa vurub. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 31,6 dəfə çoxdur.**

Qurumun yarımillik fəaliyyətinə dair hesabatına əsasən, yanvar-iyun aylarında satışdan gəlirlər 116,686 milyon dollar (1 il əv-



vələ nisbətən 2,2 dəfə çox), satışın maya dəyəri 62,676 milyon dollar (59,2 faiz çox), ümumi və inzibati xərclər 13,956 milyon dollar (38,9 faiz çox), digər gəlirlər 696 min dollar (əvvəlki il xərc olub), faiz gəlirləri 788 milyon dollar (əvvəlki il xərc olub), mənfəət vergisi ödəmələri isə 8,362 milyon dollar (52,6 dəfə çox) təşkil edib.

Bu il iyulun 1-nə “AzerGold”un aktivləri 537,137 milyon dollar təşkil edib ki, bu da illik müqayisədə 17 faiz çoxdur. Hesabat dövründə səhmdar cəmiyyətin öhdəlikləri 26,3 faiz azalaraq 103,804 milyon dollar, balans kapitalı isə 36,2 faiz artaraq 433,333 milyon dollar olub.

Yeri gəlmişkən, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac icmalı”nın avqust buraxılışına əsasən, cari ilin yanvar-iyul aylarında Azərbaycan 178,8 milyon ABŞ dolları dəyərində qızıl ixrac edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 2,4 dəfə çoxdur. Təkcə iyulda ölkəmizdən ixrac olunan qızılın dəyəri 33,9 milyon dollar təşkil edib ki, bu da 1 il əvvələ nisbətən 2,1 dəfə artım deməkdir.

Xatırladaq ki, “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2016-cı ildə yaradılıb. Qurumun nizamnamə kapitalı 36,47 milyon ABŞ dolları təşkil edir. Əsas fəaliyyəti Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə səciyyələnən səhmdar cəmiyyətinin əsas məqsədi qiymətli və əlvan metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, hasilatı, emalı və satışı, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, eləcə də bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsidir.

***XQ***

# Avropa İttifaqı ölkələri ilə ticarətin həcmi açıqlanıb

**Cari ilin yanvar-iyul aylarında Azərbaycan Avropa İttifaqı ölkələri ilə 12 milyard 404,2 milyon ABŞ dolları dəyərində ticarət əməliyyatları həyata keçirib. Bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 14 faiz çoxdur.**

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, son bir ildə Azərbaycanın ittifaq ölkələrinə ixracının dəyəri 14,7 faiz artaraq 10 milyard 715,4 milyon ABŞ dollarına çatıb. Bununla yanaşı, ötən bir il ərzində bu ölkələrlə 1 milyard 688,8 milyon dollarlıq idxal əməliyyatları aparılıb ki, bu da 9,7 faiz artım deməkdir. 7 ay ərzində ittifaq ölkələrinin Azərbaycanın ümumi ixracında payı 70,4 faiz, idxalında payı isə 12,4 faiz təşkil edib.



Komitənin hesabatında cari ilin 7 ayında Azərbaycanın ən çox idxal-ixrac əməliyyatları apardığı ölkələrin də adları öz əksini tapıb. Konkret ölkələrə gəlincə isə siyahıda ilk yerlərdə İtaliya, Almaniya, Çexiya, Yunanıstan və İspaniya qərarlaşıb. Hesabat dövründə Azərbaycanın İtaliya ilə ticarət dövriyyəsinin dəyəri 7 milyard 498,6 milyon dollar təşkil edib. Bunun isə 7 milyard 195,3 milyon dolları ixracın, 303,3 milyon dolları isə idxalın payına düşür. Ümumilikdə, son bir ildə bu ölkə ilə ticarət dövriyyəsi 20,6 faiz, ixrac 21,5 faiz, idxal isə 2,8 faiz artıb.

Cari ilin 7 ayında ölkəmizin Almaniya ilə ticarət dövriyyəsinin dəyəri 888,6 milyon dollara, o cümlədən ixrac 376,4 milyon dollara, idxal isə 512,2 milyon dollara çatıb. Son bir ildə bu ölkə ilə ticarət dövriyyəsi 4,7 faiz, idxal 9,7 faiz artıb, ixrac isə 1,3 faiz azalıb.

Yanvar-iyul aylarında Azərbaycan Çexiya ilə 593,2 milyon dollarlıq ticarət əməliyyatları aparıb. Bunun da 548,3 milyon dolları ixracın, 44,9 milyon dolları isə idxalın payına düşür. Son bir ildə bu ölkə ilə ticarət dövriyyəsi 6,2 faiz, ixrac 8,3 faiz azalıb, idxal isə 29,4 faiz artıb.

Bununla yanaşı, cari ilin 7 ayında ölkəmizin Yunanıstanla ticarət dövriyyəsinin həcmi 436,2 milyon dollar, o cümlədən ixrac 410 milyon dollar, idxal isə 26,2 milyon dollar təşkil edib. Əvvəlki ilin eyni dövrü ilə müqayisə bu ölkə ilə ticarət dövriyyəsi 1,2 faiz, ixrac 11,4 faiz artıb, idxal isə 30,2 faiz azalıb.

Hesabat dövründə Azərbaycan İspaniya ilə 148,3 milyon dollarlıq ticarət əməliyyatları aparıb. Ümumi ticarət dövriyyəsinin 6,1 milyon dolları ixracın, 142,2 milyon dolları isə idxalın payına düşür. Son bir ildə isə bu ölkə ilə aparılmış ticarət dövriyyəsində 23,5 faiz, o cümlədən ixracda 18,7 dəfə azalma, idxalda isə 77,8 faiz artım qeydə alınıb.

***XQ***

# TAP 50 milyard kubmetr Azərbaycan qazı nəql edib



**Trans-Adriatik Boru Kəməri (TAP) 2020-ci ilin sonunda istifadəyə veriləndən bəri Avropaya 50 milyard kubmetr qaz çatdırıb. Bunun 41,7 milyard kubmetri İtaliyaya, 4,8 milyard kubmetri Yunanıstana, 3,2 milyard kubmetri isə Bolqarıstana yönəlib.**

TAP AG konsorsiumu bildirir ki, bu nailiyyət Avropanın enerji təhlükəsizliyinə və enerji balansının şaxələndirilməsinə mühüm töhfədir. Şirkətin direktoru Luka Skieppatinin sözlərinə görə, 2026-cı ildən kəmərin ötürücülük gücü ildə 1,2 milyard kubmetr artırılacaq.

Qeyd edək ki, uzunluğu 878 kilometr olan TAP Cənub Qaz Dəhlizinin əsas hissəsini təşkil edir. Azərbaycanla Avropa İttifaqı arasında razılaşmaya əsasən, 2027-ci ilə qədər “köhnə qitə”yə qaz ixracı ildə 20 milyard kubmetrə çatdırılmalıdır.

# “Yaşıl enerji məkanı”nda növbəti iclas



**“Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası” layihəsinin hazırlanması məqsədilə görülən işlər çərçivəsində yaradılmış “Yaşıl enerji məkanı” üzrə alt işçi qrupun növbəti iclası keçirilib.**

Energetika naziri Pərviz Şahbazovun rəhbərliyi ilə keçirilmiş iclasda strategiya layihəsinin hazırlanması üzrə görülmüş işlər, təklif olunan fəaliyyət istiqamətləri və tədbirlər barədə məlumat verilib. “Yaşıl enerji məkanı” məqsədi üzrə ekspertlər qrupu tərəfindən hazırlanmış hədəf göstəricilərinə, fəaliyyət istiqamətlərinə və tədbirlərə dair ilkin təkliflər nəzərdən keçirilib, icra ediləcək tədbirlərin yekun variantının alt işçi qrupunun növbəti iclasına qədər təqdim olunması qərara alınıb.

Xatırladaq ki, “Yaşıl enerji məkanı” alt işçi qrupu Nazirlər Kabinetinin 2025-ci il 18 iyun tarixli Sərəncamına əsasən, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə uyğun olaraq yaradılıb.

***XQ***

# "Tut əlimdən" kimsəsiz uşaqların dayağıdır




**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dəstəyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tərəfdaşlığı ilə yeni yaradılan "Tut Əlimdən" Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzi fəaliyyətə başlayır.**

Leyla Əliyeva mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olub, burada uşaqlar üçün qurulmuş sosial mühit və xidmət modelləri ilə maraqlanıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova mərkəzin fəaliyyət istiqamətləri barədə məlumat verərək bildirib ki, Mərkəz çətin həyat şəraitində olan və ailə himayəsindən məhrum uşaqlar üçün təhlükəsiz, sağlam, qayğı ilə əhatə olunmuş bir mühit təmin etmək məqsədilə yaradılıb.

Mərkəzdə uşaqların ilkin psixososial vəziyyətinin qiymətləndirilməsi, təcili müdaxilə, müvəqqəti yerləşdirmə, tibbi yardım və sosial reabilitasiya xidmətləri həyata keçiriləcək. Həmçinin qeyd edilib ki, uşaqların təhlükəsizliyi və rahatlığı üçün müasir standartlara uyğun, geniş və işıqlı otaqlar, istirahət və müxtəlif məşğələ guşələri yaradılıb. Geniş həyətyanı sahədə müxtəlif oyun meydançaları və yaşıllıq zonaları salınıb.

***XQ***

# Leyla və Arzu Əliyevalar Bilgəhdə təmizlik aksiyasında

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Bilgəhdə sahilyanı təmizlik aksiyasında iştirak ediblər.**





IDEA İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən aksiyada yüzdən çox könüllü iştirak edib. İməcilik zamanı toplanılan beş tona yaxın tullantı "Təmiz Şəhər" ASC-nin Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.

Aksiyanın əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək və insanları dənizətrafı mühitin mühafizəsi uğrunda birgə səylərə cəlb etməkdir.

Qeyd edək ki, Xəzər dənizinin və Qafqaz regionunun digər su hövzələrinin unikal biomüxtəlifliyinin mühafizəsi məqsədilə IDEA sahilyanı ərazilərin təmizlənməsinə və bərpasına yönəlmiş dayanıqlı fəaliyyətlər həyata keçirir.

IDEA İctimai Birliyi vətəndaşları çimərliklərdə istirahət edərkən ətraf mühitin mühafizəsinə həssas yanaşmağa, sahilləri təmiz saxlamağa, tullantıları ətrafa atmamaqla məsuliyyətli davranış sərgiləməyə və yaranmış tullantıları ərazidə qoyub getməməyə çağırır.

***XQ***

# Kinonun "qardaşlıq dünyası"na səyahəti

**Venesiya Film Festivalı çərçivəsində "Birləşdirən bağlar: Anlaşmaya və insan qardaşlığına səyahət" mövzusunda Forum keçirilib. İnsan Qardaşlığının Ali Komitəsinin (HCHF) Daha Yaxşı Dünya Fondu (BWF) ilə birgə təşkil etdiyi məclisdə diplomatlar, qlobal liderlər və incəsənət xadimləri iştirak ediblər.**



Kino və mədəniyyətin fərqliliklərin aradan qaldırılmasında oynadığı rolun müzakirə edildiyi forumda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov məruzə ilə çıxış edib. Rəvan Həsənov məruzəsində Azərbaycanın multikulturalizm sahəsindəki təcrübələrini təqdim edib. O, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin həyata keçirdiyi layihələrdən danışaraq vurğulayıb ki, qurum Azərbaycanın multikultural dəyərlərini və cəmiyyətlərarası əməkdaşlığı təşviq edən beynəlxalq təşəbbüslərdə fəal iştirak edir, müxtəlif mədəniyyətlərin qarşılıqlı anlaşmasını və sosial harmoniyanı gücləndirmək məqsədilə layihələr həyata keçirir.

Rəvan Həsənov qeyd edib ki, forumun Venesiya Film Festivalı çərçivəsində təşkil olunması incəsənətin və mədəniyyətin qlobal səhnədə birləşdirici gücünü, kinonun mədəniyyətlərarası dialoqun gücləndirilməsi və qlobal əməkdaşlıq üçün böyük bir vasitə olduğunu bir daha sübut edir. Məruzə maraqla qarşılanıb və müxtəlif suallar cavablandırılıb.

İnsan Qardaşlığı Ali Komitəsinin baş müşaviri Malayziya Universitetinin dosenti Herizal Hazrinin moderatorluğu ilə keçən həmin paneldə UNESCO-nun xoşməramlı səfiri, Malinin sabiq icraçı baş naziri Çeyk Modibo Diarra, Sülh üzrə Nobel Laureatlarının Dünya Sammitinin Daimi Katibliyinin sədri Yekaterina Zagladina, Gürcüstanın keçmiş iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Ketevan Bochorishvili də çıxış ediblər.

***T.RÜSTƏMLİ***
***XQ***

## Xuntaçıların məhkəməsi

# Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi təsdiqlənir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 1-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında əvvəlcə təqsirləndirilən şəxs Qarik Martirosyana dövlət hesabına yeni müdafiəçi təyin olunduğunu bildirib. Q.Martirosyan yeni müdafiəçinin təyinatına etiraz etməyib.




Məhkəmə iclası təqsirləndirilən şəxs Davit İşxanyanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələrin və ona aid elan olunan digər sənədlərin səsləndirilməsi ilə davam etdirilib. Təqsirləndirilən şəxs Davit İşxanyan ibtidai istintaqa ifadəsində bildirib ki, "batalyon komandiri" olduğu dövrdə vəzifəsi Xocavənd rayonunun 8 kəndinin ərazilərindəki "kəndləri qorumaq"dan və döyüş əməliyyatlarında iştirak etməkdən ibarət olub, sonrakı dövrdə isə bir "vəzifəli şəxs" kimi "vəzifələri" çərçivəsində "idarəçilikdə" iştirak edib.

O, 1992-ci il sentyabrın 10-dan xidmətə çağırılaraq qondarma rejim uğrunda mübarizə dəstəsinin tərkibindəki silahlı qüvvələrin sıralarında Azərbaycan Ordusuna qarşı döyüşüb. Ümumilikdə, rəhbərlik etdiyi batalyon Xocavənd, Ağdərə, Kəlbəcər və Ağdam rayonlarının işğalında iştirak edib. İbtidai istintaqa ifadəsində bildirib ki, döyüşlər zamanı istifadə edilmiş bütün silah-sursat Ermənistan Respublikasının ərazisindən Xankəndi şəhərinə gətirilib və oradan korpuslara paylanılıb.

Məhkəmə iclasında təqdim edilən materiallarla sübuta yetirilib ki, Davit İşxanyan cinayətkar birlikdə fəaliyyətinin olmadığını qeyd etsə də, ali təhsil aldığı müddətdə tələbələr birliyinə qoşularaq "Miatsum" və "Krunk" təşkilatlarının mitinqlərinə qatılıb, hətta 1992-ci ilədək Xankəndi şəhərində və Xocavənd rayonunda yaradılmış postlarda silahlı şəkildə xidmət aparıb. Cinayətkar, həmçinin Azərbaycan Respublikasına qarşı müharibədə iştirak edib.

Sonra məhkəmə iclasında təqsirləndirilən şəxs Levon Mnatsakanyanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələr və ona aid elan olunan digər sənədlər oxunub. O, ibtidai istintaqa ifadəsində bildirib ki, 1992-ci ilin sentyabrında qondarma rejimin "ordusu"nda tabor komandirinin müavini vəzifəsində hərbi xidmətə başlayıb və müxtəlif vəzifələrə təyin olunub. 2007-ci ilin may ayından 2012-ci ilin noyabrınadək qondarma rejimin "müdafiə ordusu"nun qərargah rəisi, 2012-ci ilin noyabr ayından 2015-ci ilin iyun ayınadək isə Ermənistan Respublikası silahlı qüvvələrinin Baş Qərargah rəisinin müavini vəzifələrində xidmət edib. 2018-ci il dekabrın 14-dən 2019-cu ilin may-iyun aylarınadək Xankəndi şəhərində "Xilasetmə idarəsinin direktoru", 2019-cu ilin may-iyun aylarından 2020-ci ilin iyun ayınadək "polis rəisi" olub. Təqaüdə göndərildikdən sonra heç yerdə işləməyib.

Qondarma qurumun "müdafiə ordusu"nun "komandan"ı vəzifəsində xidmət etdiyi müddətdə "ordu"nun maliyyələşməsi, silahlandırılması və bu kimi digər məsələləri Ermənistanın büdcə vəsaiti hesabına həyata keçirilib. 1992-ci ilin sentyabrında qondarma qurumun "müdafiə ordusu"nda zabit kimi hərbi xidmətə başladığı gündən etibarən Birinci Qarabağ müharibəsi zamanı Kəlbəcər, Füzuli, Ağdərə, Ağdam və Cəbrayıl rayonları istiqamətində gedən döyüşlərdə iştirak edib.

Daha sonra məhkəmə iclasında təqsirləndirilən şəxs David Manukyanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələr və ona aid elan olunan digər sənədlər səsləndirilib. David Manukyan ifadəsində bildirib ki, o, 1992-ci ilin dekabrından könüllü əsgər kimi Ermənistanla Azərbaycan arasında baş vermiş Birinci Qarabağ müharibəsində, eləcə də təxminən 1994-cü ilin may ayından sonrakı dövrlərdən etibarən işğal altında saxladıqları Azərbaycan ərazilərində yaradılmış qondarma rejimin "müdafiə ordusu"nda hərbi qulluqçu kimi müxtəlif, əsasən də rəhbər vəzifələrdə xidmət aparmaqla Ermənistanın Azərbaycanla müharibələrində və digər silahlı münaqişələrdə iştirak edib.

Təqsirləndirilən şəxsin cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələrdən və ona aid elan edilən digər sənədlərin tədqiqindən məlum olub ki, Birinci Qarabağ müharibəsində bütün döyüş əməliyyatlarına rəhbərliyi 1992-ci ildə qondarma rejimin "müdafiə naziri" olmuş Samvel Babayan və Ermənistan Respublikasının müdafiə naziri Vazgen Sarkisyan həyata keçiriblər. Müharibə müddətində bütün əmr və göstərişlər S.Babayan və V.Sarkisyan tərəfindən verilib, hücum və döyüş planlarını onlar tərtib ediblər.

Digər silah-sursatlar kimi, minalar da Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərinə Ermənistan Respublikasından gətirilib. Minaların konkret hansı ərazilərdə basdırılmalı olması barədə qərarı həmin ərazidə yerləşdirilmiş hərbi hissələrin komandirlərinin raportla müraciətləri əsasında "müdafiə ordusunun komandanlığı" verib. Həmin qərara əsasən də, hərbi hissə komandirlərinin rəhbərliyi ilə hərbi hissələrin mühəndis-istehkam bölmələrinin hərbi qulluqçuları tərəfindən təyin edilmiş ərazilərdə tank və piyadaəleyhinə minalar basdırılıb. Lakin o, iddia edib ki, həmin ərazilərə aid mina xəritələrinin harada saxlanıldığını bilmir.

Sənədlərdə göstərilib ki, Suriya, Livan və İraqdan olan erməniəsilli şəxslər Ermənistan Respublikasına gəlib yaşamaq üçün müraciət etdikdə onlar həmin vaxt işğal altında saxlanılan Azərbaycan ərazilərinə köçürülüb və orada məskunlaşdırılıb.

Məhkəmə prosesi sentyabrın 4-də davam etdiriləcək.

***XQ***

*Zəfər yolçuları*

# Qəhrəmanlığın Mübariz zirvəsi

**Sübh tezdəndir. İsti bir yay günü yolum doğulub boya-başa çatdığım Biləsuvar rayonunadır. Elə ay olmur ki, göz açdığım torpağa yolum düşməsin. Hər gedişimdə də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun ata ocağını ziyarət edirəm. Budəfəki ziyarətim isə Mübarizin şəhidliyinin 15-ci ilinə təsadüf edirdi.**



…Heç bilirsiniz Vətən uğrunda canından keçmiş şəhidlərin ünvanlarına gedib, valideynlərinin, bacı-qardaşlarının, övladlarının dərdlərinə şərik olmaq necə də çətindir? Hətta söhbətini haradan başlayıb, necə bitirəcəyini belə düşünürsən. Ata-ana, bacı-qardaş, ömür-gün yoldaşının ağarmış saçlarını, dərddən bükülmüş qamətlərini, hələ də "atam gələcək" deyə yolunu gözləyən məsum uşaqları gördükcə ürək ağrısı keçirib, təsəlli verməkdən başqa heç bir çarən qalmır.

Doğru deyiblər: Şəhidliyin, qəhrəmanlığın məkanı, zamanı olmur. Şəhidlər xalqın kimliyini, mənliyini qoruyub işıqlı sabahımıza boylanan azadlıq fərdləri, ucalıqları fəth edən zirvə yolçularıdır. Ana Vətən həmişə belə igid oğulları ilə şöhrət tapıb. Şəhid qanı ilə yazılmış qəhrəmanlıq isə əbədi tarixə çevrilib.

Doğmaları danışırlar ki, Mübarizin böyük bir arzusu varmış. Nə vaxtsa, fərqi yoxdur, istər idmançı, istərsə də bir hərbçi kimi başı üzərində dövlət rəmzi olan Azərbaycanın üçrəngli müqəddəs bayrağını yüksəltsin. İgid Vətən oğlu əbədiyyətə qovuşandan sonra, Biləsuvarın Əliabad kəndində doğulub boya-başa çatdığı sadə bir ev müqəddəs ocağa dönüb. Çox da böyük olmayan Əliabad kəndi Ələt-Astara magistral yolunun Biləsuvar rayonu ərazisində birinci kənddir. Vaxtilə o qədər də tanınmayan bu kəndin adı indi dillər əzbəridir.

Mübariz Biləsuvarın ilk Milli Qəhrəmanıdır. 2020-ci ildə Vətən müharibəsində 3 biləsuvarlı gənc də ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Onların göstərdiyi qəhrəmanlıqla bütün ölkəmiz fəxr edir.

Mübariz daim düşünürdü: müqəddəs, bərəkətli, min-bir nemətli torpaqlarımız düşmənə heç vaxt pay ola bilməz. Bunu həmin amal uğrunda öz şirin canınlarından keçmiş minlərlə şəhidimizin, Mübariz kimi ərənlərimizin tökülən qanları, ruhları bizə bağışlamazdı. Bizim doğma torpaqlarımıza qayıdacağımız şübhəsiz idi. Azad Qarabağ torpağı bu gün yenə də çal-çağırlı günlərini yaşayır. O torpaqlar doğma sakinlərini qoynuna alır, onların nəfəsləri ilə qızınır. Bu növraq şəhidlərimizin ruhunu şad edir.

Bir neçə ildir ki, bu ocaqda Milli Qəhrəmanın ev-muzeyi fəaliyyət göstərir. Yüksək zövqlə tərtib olunmuş ev-muzeyi cəmi 22 il ömür yaşamış, misilsiz qəhrəmanlığı ilə milyonlarla ürəklərdə iz qoymuş Mübariz İbrahimovun qısa, lakin mənalı və şərəfli ömür yoluna işıq salır. Muzeydə saxlanılan, Mübarizin əlləri toxunmuş hər bir eksponat sonsuz qürur doğurur.




Ev-muzeyinin Xatirə kitabında yazılmış ürək sözlərinin sayı-hesabı yoxdur. Respublikamızın bütün bölgələrindən, hətta xarici ölkələrdən gəlmiş ziyarətçilər elin qəhrəman oğluna ehtiram əlaməti olaraq duyğularını ifadə etmişlər. Bu qeydlərlə tanış olandan sonra bir daha Mübarizlə qürur duyursan.

İmişli rayonunun Muradxanlı kəndindən olan bir qrup gənc yazır: "Əziz qardaşımız, sən doğrudan da, bu qəhrəmanlıqla cənnətə qovuşdun. Sən bu hünərinlə, cəsarətinlə nəinki bir elin, bir rayonun, bir respublikanın, hətta bütün Türk dünyasının müqəddəs, qəhrəman oğluna çevrildin".

F.Quliyev və D.Ağayevin imzaladığı və qısa cümlədən ibarət olub böyük məna daşıyan qeydləri də diqqətimizi çəkir: "Millətin ruhunu özünə qaytaran qəhrəman. Allah sənə rəhmət eləsin".

Nəhayət, ev-muzeyinə baş çəkəndən sonra qısa bir məsafədə yerləşən qəhrəmanımızın doğulduğu evə üz tuturuq. Evin qarşısında onlarla avtomobilin durmağından aydın olur ki, bu gün də ziyarətçilərin sayı çoxdur. Bu müqəddəs ocağa ziyarətə gələnlər üçün yaxın-uzaq söhbəti yoxdur. Kənd sakinləri 15 ildir ki, bu ocağı, bu ailəni bir gün belə tək qoymurlar. Hər bir ziyarətçi adını xalqımızın qəhrəmanlıq səhifəsinə əbədi yazdırmış Mübariz İbrahimovla bağlı hər şeyi öz gözləri ilə görmək istəyir. Çünki bu müqəddəs ocaqda hər guşə Mübarizi xatırladır...

Səliqəli, gül-çiçəyə bürünmüş həyətin o biri başından eşidilən səs bizi diksindirir.

– Mübariz!..

Şamama anadır. 7 yaşlı nəvəsi Mübarizi səsləyir. Dünyaya Mübariz İbrahimov kimi, qəhrəman oğul bəxş etmiş Şamama ana mehrini oğlunun adını daşıyan nəvəsinə salıb. Nəvə Mübariz sanki əmisinin şəkillərdə gördüyümüz uşaqlığını xatırladır. Əmisinin təkrarsız qəhrəmanlıq yolu xalqımızın hər bir övladı kimi, balaca Mübariz üçün də müqəddəsdir. Hələ əmisinin adını nəyə görə daşıdığını illər sonra biləcək. Hər gün dünyaya yeni Mübarizlər gəlir. Vətəni, torpağı, yurdu qorumaq üçün. Onların hər biri bu günümüzün və sabahımızın mübarizləridir.

Şamama ana deyir:

– 15 il bir göz qırpımında keçdi. Sanki dünən idi... Xalqımız var olsun. Bu ötən müddətdə bir an belə ailəmizi tək buraxmadılar. Elə bizi də yaşadan bu oldu. Xalqımıza, dövlətimizə, el-obamıza minnətdaram".

Bir neçə il öncə Milli Qəhrəmana həsr etdiyim "Elin Mübariz oğlu" adlı kitabı çapa hazırlayarkən söhbət zamanı atası Ağakərim kişi (artıq dünyasını dəyişib) həmin günü belə xatırlayırdı: "Mənə dedilər ki, başını dik tut, oğlun Vətən yolunda fəda olub. Göz yaşlarımı bircə anlığa boğa bilməsəm də, nə özümü itirdim, nə də sındım! Başımı dik tutub, "Vətən sağ olsun", – dedim. Mən onu saxlaya bilmədim seçdiyi yoldan! Kimsə də saxlaya bilməzdi, hər kəlməsi Vətən idi. Dilindən düşmürdü Vətən sözü. Mən oğlumu Vətənə fəda etmişəm.Vətən hər şeydən ucadır və Vətənin şərəfindən söhbət gedən yerdə atanın da qarışmağa haqqı yoxdur".

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında demişdir: "Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru Paşanın, Ənvər Paşanın, Qafqaz İslam Ordusunun igidlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür".

Bəli, əbədi olaraq ürəklərdə yaşayan Qəhrəman Vətən oğlunun ruhu şaddır!

***Müşfiq MİRZƏ***
***XQ***

*Yazdıqlarımızın əks-sədası*

# Küləklər Bakını toza bürüyür...

**"Xalq qəzeti"nin 31 avqust 2025-ci il tarixli sayında Əməkdar jurnalist Vaqif Bayramovun "Bakı üzərində toz dumanı" adlı araşdırma yazısını maraqla və ürək ağrısı ilə oxudum. Günümüzün aktual məsələsi peşəkar təhlil süzgəcindən keçirilərək, ətraf mühit ekspertlərinin rəyləri ilə problemin kökü, fəsadları və aradan qaldırılması yolları göstərilib. Mən də bu barədə fikirlərimi bölüşmək istədim.**

Məqalədə "həyəcan siqnalı" qaldırılaraq qeyd olunduğu kimi, Bakıda son vaxtlar havanın keyfiyyəti ilə bağlı ciddi narahatlıq yaranıb. Paytaxt sakinləri tənəffüs çətinliyi, göz və boğazda qıcıqlanma, gündəlik həyat keyfiyyətinə təsir edən problemlərdən şikayətlənirlər. Bu, sadəcə müvəqqəti narahatlıq deyil, uzunmüddətli sağlamlıq riskləri yaradan ciddi problemdir.



Bakı küləklər şəhəri kimi tanınsa da, bu küləklər çox vaxt təmiz havanı yox, əksinə, çirkliliyi paytaxta daşıyır. Şəhərin kənarındakı daş və qum karxanalarında yaranan toz güclü küləklərin təsiri ilə havaya qalxaraq mərkəzə qədər yayılır. Daşların qırılması, qumun və digər tozyaradan yüklərin üstü örtülmədən şəhər istiqamətində daşınması zamanı yaranan toz kütlələri küləklə birlikdə yaşayış massivlərinə, park və küçələrə, məktəblərə qədər yayılır.

Məqalədə də haqlı olaraq qeyd olunduğu kimi, məsələni ağırlaşdıran digər amil Abşeronun yarımsəhra iqlimidir. Quraqlıq, az yağıntı, yüksək buxarlanma nəticəsində torpaqların qumlaşması və şoranlaşması geniş vüsət alıb. Yaşıl örtüyün azalması ilə çoxlu ərazilər yarımsəhra və qumlu sahələrə çevrilib. Güclü küləklər həm bu qumlu torpaqları, həm də karxanaların tozunu havaya qaldırır. Nəticədə Bakı sakinləri hər gün gözəgörünməz, amma sağlamlığa son dərəcə təhlükəli "toz yükü" ilə nəfəs almağa məcbur qalırlar.

Müəllifin peşəkarcasına hərtərəfli təhlili məqalənin başlıca məziyyətidir. O göstərir ki, hər gün udmalı olduğumuz tozların tərkibində müxtəlif mineral qarışıqlar, tikinti tullantılarından qalmış mikrozərrəciklər, insan orqanizmi üçün digər zərərli elementlər mövcuddur. Xüsusilə uşaqlar, yaşlılar və xroniki xəstəlikləri olan insanlar üçün risk daha da yüksəkdir. Dünya təcrübəsinə istinadlar isə problemin dünyada həlli yollarına işıq salır.

Mən ABŞ-ın Vaşinqton və Little Rosk şəhərlərində "Gənc liderlər ictimai fəaliyyətdə və idarəçilikdə" proqramı çərçivəsində "Gənc liderlər" kurslarında olarkən zərərverici toz dumanlarına qarşı necə ciddi tədbirlər görüldüyünə də şahidlik etmişəm və "Xalq qəzeti"ndəki "Bakı üzərində toz dumanı" məqaləsində konkret yerli şərait nəzərə alınmaqla dünya təcrübəsindən istifadənin vacibliyinin vurğulanmasını təqdir edirəm.

Problem artıq təkcə ekoloji yox, həm də sosial xarakter daşıyır. Karxanaların çoxu nəzarətsiz fəaliyyət göstərir, tələb olunan texnoloji tədbirlər, tozun qarşısını alan sistemlər, yolların isladılması, materialların üstüörtüklü daşınması kimi həyat əhəmiyyətli tələblər çox vaxt yalnız kağız üzərində qalır.

Bir sözlə, Bakı bu gün seçim qarşısındadır: küləklər şəhəri olaraq qalmaq, yoxsa toz dumanı şəhərinə çevrilmək? Paytaxtın nəfəsini qorumaq üçün operativ şəkildə ciddi tədbirlər görülməli, şəhər ətrafında yaşıllaşdırma və qumlu sahələrin bərpası və artırılması son dərəcə vacibdir. Əks halda, hər gün aldığımız nəfəs gözlə görünməyən, amma ölümcül təhlükə daşımaqda davam edəcək.

Sonda belə bir aktual məsələyə diqqəti çəkdiyi üçün "Xalq qəzeti"nə minnətdarlığımı bildirirəm.

***Samir ƏSƏDLİ,***
***siyasi ekspert***

# "Ad günün mübarək, əziz şəhidim!"

**Xocavənd rayonu hələ Birinci Qarabağ müharibəsində 145 şəhid vermişdi. Onlardan 13-ü qadın, 13-ü isə uşaq idi. İşğalın müxtəlif dövrlərində girov götürülmüş 110 nəfər dinc sakindən 49-u erməni terroru və vəhşiliyinin qurbanı olub. Bütün bunlar balaca Şirxanın da qəlbində silinməz izlər buraxmış, böyüdükcə qəlbindəki qisas hissini daha da alovlandırmışdı.**

Şəhid Quliyev Şirxan İsmixan oğlu 1995-ci il sentyabr ayının 2-də Xocavənd rayonunu Muğanlı kəndində anadan olub. Orta məktəbdə təhsilini başa vurduqdan sonra 2013-cü ildə hərbi xidmətə gedib. Daha 2 il sonra isə Vətən torpaqlarını işğaldan azad etmək eşqi ilə müddətdən artıq hərbi qulluqçu kimi "N" saylı hərbi hissədə xidmətə başlayıb.

2016-cı ilin aprel döyüşlərində özünü qorxmaz hərbçi kimi təsdiq edən çavuş Şirxan Quliyev sonrakı xidmət dövründə hərbçilər arasında atıcılıq üzrə keçirilən yarışların dəfələrlə qalibi olub. Düz 5 il o, ən müxtəlif istiqamətlərdə xidmətdə olub. Gözlədiyi bir məqam isə döyüş əmrinin verilməsi idi. Bu arzusuna yetmək Şirxana 2020-ci il sentyabrın 27-də nəsib olub. Ailəsi ilə telefonla danışan igid Vətən oğlu deyib ki, "məqam həmin məqamdır, nəhayət, biz torpaqlarımızı azad edəcəyik".



Zəfər yürüşü zamanı ilk döyüşdən başlayaraq düz 40 gün sorağı ən qaynar yerlərdən gələn Şirxan Cəbrayıl, Füzuli, Qubadlı uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq nümayiş etdirib. Noyabrın 2-də Daşaltıda yaralanmasına baxmayaraq, o, geri çəkilməyib. Son damla qanına qədər döyüşüb və noyabrın 7-də şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Şirxan Quliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", eləcə də Füzulinin, Qubadlının və Şuşanın azad olunmasına görə medalları ilə təltif olunub. Hər il doğum və anım günləri onun ölməz ruhuna böyük ehtiramla qeyd edilir. Şəhidimiz subay idi. Torpaqlarımız azad olunandan sonra sevdiyi bir qızla ailə qurmaq, oğul-uşaq sahibi olmaq arzusu vardı. Təəssüf ki, bu, onun qismətində yox imiş.

Şəhidin anası Raisə Quliyeva hər zaman qəhrəman övladı haqqında yana-yana, amma qürurla danışıb: "Hələ müharibədən əvvəl Şirxanla danışarkən deyirdim, ailə qurmaq vaxtındır. Cavab verirdi ki, torpaqlarımız azad edilsin, sonra ailə qurmaq haqqında düşünərəm. Şirxanın sevmədiyi ifadə "qaçqın" kəlməsi olub. Balam bizə torpaqlarımızın azad olunacağına dair vəd verdi və ona sadiq qaldı. Torpağına, bayrağına bağlı biri idi. Vətən müharibəsi başlanan ilk gündən də döyüşlərə qoşuldu. Yaralanmasına baxmayaraq, bir gün də geri çəkilmədi. Qəhrəmancasına döyüşərək torpaqlarımızın azadlığı yolunda şəhadətə ucaldı".

Bacısı İlkanə Quliyeva isə söyləyir ki, Şirxanla hər zaman fəxr edib: "Biz Beyləqan rayonunda yerləşən Xocavənd məcburi köçkün qəsəbəsində yaşamalı olmuşuq. Hələ uşaq ikən Şirxan deyirdi ki, "axı, niyə biz məcburi köçkün olduq, niyə öz yurdumuzda yaşamırıq?". Onun ən böyük arzusu torpaqlarımızın azad edilməsi və lazım gələrsə, bu yolda canından belə keçmək idi. Mən Şirxan kimi qardaşın bacısı olduğum üçün fəxr edirəm. Nəinki qardaşımla, bütün şəhidlərimizlə fəxr edirəm, onların hər birisi mənim qardaşımdır".

Bu məqamda Şirxanın anım mərasimində çıxış edən Salakətin kənd tam orta məktəbinin müəllimi Eldar Allahverdiyevin söylədiklərini xatırlamaq da yerinə düşər. O dedi ki, Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz bu müqəddəs amal uğrunda şəhid olursa, bu, xalqımızın böyüklüyüdür: "Şəhid verməyən xalqın mənliyi olmaz. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Bizim xalqımız Şirxan kimi Vətəninə, torpağına bağlı qəhrəmanlar yetişdirən xalqdır".

Bu gün 30 yaşı tamam olan şəhidimizin atası İsmixan kişi jurnalistlərə müsahibəsində həzin xatirələrə dalaraq, təmkinini pozmadan deyib ki, doğma yurdu olan Xocavənd torpaqlarına qovuşmaqda övladının da payının olması onun ən böyük təskinliyidir: "Şirxan ağlı kəsən gündən deyirdi ki, torpaqlarımızı gec-tez düşməndən azad edəcəyik, hər birimiz o gözəl, səfalı Qarabağımıza qayıdacağıq, o dağlarda bizim şanlı bayrağımız dalğalanacaq. Belə də oldu".

Sonda qeyd edək ki, şair Günəş Xudiyeva şəhidin ad günü münasibətilə yazdığı şeirdə onu həzin duyğularla anıb:

**Doğdu qızıl Günəş, gəldi yeni gün,**
**Açıldı bu xalqın düşdüyü düyün.**
**Qoydular üstünə çələngin, gülün,**
**Hər il ziyarətdir mənim də əhdim,**
**Ad günün mübarək, əziz şəhidim!**

***Ə.ƏLİYEV***
***XQ***

# Astaranın yeni tələbələri

**Builki qəbul imtahanlarında yüksək bal toplayaraq ali məktəblərə daxil olmuş tələbələrlə Astarada keçirilən görüş bütün iştirakçılarda zəngin təəssürat yaradıb.**

Rayonun ümumtəhsil məktəblərinin direktorları, tələbə adını qazanmış gənclər və valideynlərin qatıldıqları görüşdə icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev qeyd etdi ki, rayondan ali məktəblərə daxil olan gənclərin sıralarının ildən-ilə artması elmə, biliyə olan marağın güclənməsinə dəlalət edir. Prezident İlham Əliyev təhsilin inkişafına daim xüsusi diqqət və qayğı göstərir. Təhsil haqqında qanunun və təhsillə əlaqədar Dövlət proqramlarının icrası gələcək kadr hazırlığında prioritet sayılır.



Astarada da təhsilin inkişafı ilə bağlı çoxsaylı sanballı işlər görülür. Son illər 40-dan çox yeni məktəb binası tikilmiş və əsaslı təmir olunmuşdur. Hazırda Sərək və Şümrüd kənd tam orta ümumtəhsil məktəbləri üçün inşa edilən binaların tikintisi başa çatmaq üzrədir. Bu diqqətin nəticəsidir ki, rayonda təhsil sahəsində uğurları artmaqdadır. Bunu bugünkü tələbə gənclərin nailiyyətləri bir daha sübut edir. Bu il rayonun orta məktəblərini bitirən məzunlardan 40 nəfəri 550-dən yuxarı bal toplayaraq ali məktəblərə daxil olub. 7 nəfər məzunun Polis Akademiyasına daxil olması da yüksək nailiyyətdir. Rayon rəhbəri uğur qazanmış gəncləri, onların yüksək hazırlığında əməyi olan müəllimləri və valideynləri təbrik etdi. Gənclərin ali təhsil alaraq bilikli, bacarıqlı gənc kadrlar kimi müstəqil, suveren Azərbaycanımızın inkişafı, tərəqqisi naminə görülən işlərə layiqli töhfələr verəcəyinə əminliyini bildirdi.

Astara Təhsil sektorunun müdiri Xədicə Əliyeva, Kijəbə qəsəbə tam orta ümumtəhsil məktəbin direktoru Təbrizə Rəsulova, valideyn Kəminə Qədirova çıxış edərək gənclərin təhsil alması üçün ölkəmizdə yaradılan yüksək şəraitə görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıq etdilər, tələbələrlə görüşdən razılıqlarını bildirdilər. 697 balla tələbə adını qazanmış Ərçivan qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbinin məzunu Ələkbər Ağayev, 682 bal toplamış Kakalos kənd tam orta ümumtəhsil məktəbinin məzunu Yusif Əhmədzadə, 577 bal toplamış Astara şəhər 5 nömrəli tam orta ümumtəhsil məktəbinin məzunu Zinaida Rəhimova çıxışlarında dövlətin gənclərə göstərdiyi qayğıya mükəmməl təhsilləri və gələcəkdə yüksək vətəndaşlıq mövqeyi ilə cavab verəcəklərini söylədilər.

Sonda ali məktəblərə qəbulda yüksək bal toplamış tələbələrlə xatirə şəkli çəkildi, rayon icra hakimiyyəti başçısının sərəncamına əsasən onlara pul mükafatları verildi.

***XQ***

# Avropadan Uzaq Şərqə qədər: Mancuriyanın azad edilməsində azərbaycanlıların rolu



**Hər bir xalqın tarixində ağrı, qürur və gələcəyə sarsılmaz inamla dolu səhifələr var. İkinci Dünya müharibəsi illəri bütöv xalqların və dövlətlərin taleyini müəyyənləşdirən ən ağır sınaq dövrü idi. Qələbəyə gedən yolda etibarlı dayaqlardan biri olaraq bu ümumi mübarizəyə Azərbaycan əhəmiyyətli töhfə verib. Müharibə illərində Bakı cəbhəni strateji əhəmiyyətli resurs olan neftlə təmin edən əsas mərkəzlərdən idi. Bakı nefti olmadan düşmənin darmadağın edilməsində həlledici rol oynayan tankların, təyyarələrin və digər hərbi texnikanın səmərəli işləməsini təsəvvür etmək çətindir.**

Azərbaycanda 87 qırıcı batalyon, minlərlə igid qadın və kişinin iştirak etdiyi mindən çox özünümüdafiə dəstəsi yaradıldı. 1941–1945-ci illərdə Azərbaycanın təxminən 700 min cəsur oğul və qızı cəbhəyə yollandı.

1945-ci ilin avqustunda Sovet İttifaqı Çinin köməyinə gələrək militarist Yaponiya əleyhinə yeni hərbi kampaniyaya başladı və bu həlledici döyüşlərdə aralarında minlərlə azərbaycanlının da olduğu on minlərlə döyüşçü iştirak edirdi. Onların qəhrəmanlığı xüsusi diqqət və tanınmaya layiqdir. Azərbaycanlılar uzun müddət yapon qoşunlarının nəzarətində olan geniş və strateji əhəmiyyətli region - Mancuriyanın azad edilməsində mühüm və misilsiz rol oynadılar. Bu əməliyyat İkinci Dünya müharibəsinin son mərhələsi oldu.

40 mindən çox azərbaycanlı Uzaq Şərq və Zabaykal cəbhələrində xidmət keçib, Yaponiyanın Kvantun ordusuna qarşı döyüşlərdə fəal iştirak edib. Bu döyüşçülər Mancuriyanın Xarbin, Mukden və Çançun kimi mühüm şəhərləri uğrunda gedən döyüşlərdə əhəmiyyətli töhfə vermişlər. Azərbaycanın rolu yalnız hərbi qulluqçuların əməliyyatları ilə deyil, həm də əhəmiyyətli iqtisadi yardım və dəstək vasitəsilə müəyyən olunub və izah edilib. Məhz bu amili qələbənin təmin edilməsində həlledici faktorlardan biri hesab etmək olar.

Eyni zamanda, Mancuriyanın azad edilməsində iştirak edən bir çox azərbaycanlı yüksək dövlət mükafatları ilə, o cümlədən Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif edilib. Onların qəhrəmanlığı bu gün də yüksək qiymətləndirilir. Uzaq Şərq regionunda və hətta Çində həmin döyüşçülərin adları geniş tanınır və hörmətlə yad olunur.

Məsələn, Xarbinin azad edilməsində iştirak etmiş və "Qırmızı Bayraq Ordeni" ilə təltif olunmuş batalyon komandiri Hacı Məmmədovu nümunə göstərmək olar. Bundan əlavə, fərqlənmiş zabitlər arasında Cümhuriyyət dövründə Azərbaycan milli ordusunun qurucularından biri olan general Şıxlinskinin qohumu Əliağa Şıxlinski kimi hərbçi nəslindən çıxmışlar da olub. O, həmçinin Mancuriyanın yapon qoşunlarından azad edilməsində fəal iştirak edib.

Sərt sınaqlardan şərəflə keçmiş və Mancuriyanın azad edilməsində əhəmiyyətli töhfə vermiş şəxslər arasında Azərbaycanın İmişli rayonundan olan veteran Nəbi Nuriyev xüsusi yer tutur. O, 28 fevral 1942-ci ildə cəbhəyə çağırılmış və 130-cu atıcı alayın tərkibində bütün döyüş yolunu keçmişdir. Nəbi Nuriyev müharibə zamanı ağır döyüşlərdə birbaşa iştirak edərək cəsarət və dözümlülük nümayiş etdirmişdir.

Azərbaycanlıların 1945-ci ilin avqustunda çinli döyüş yoldaşları ilə çiyin-çiyinə Mancuriyanın azad edilməsində iştirakına dair parlaq nümunələrdən biri də 1925-ci il dekabrın 25-də doğulmuş polkovnik-leytenant Teymur Əliyevin döyüş yoludur. İkinci Dünya müharibəsi illərində o, Mancuriya strateji hücum əməliyyatında birbaşa iştirak etmiş 17-ci ordunun 1045-ci atıcı alayında xidmət etmişdir.

Əliyevin daxil olduğu 17-ci ordu Hinqan istiqamətində fəaliyyət göstərmiş və yaponların müdafiəsini uğurla yararaq sovet qoşunlarının Mancuriyanın dərinliklərinə sürətlə irəliləməsinə şərait yaratmışdır. Bu döyüşlərdə azərbaycanlı zabit və əsgərlərin iştirakı Çinin şimal-şərqinin Yaponiyanın işğalından tam azad olunmasında mühüm töhfə olmuşdur. Döyüş əməliyyatlarında iştirakı və qələbəyə şəxsi töhfəsinə görə Teymur Əliyev "Yaponiya üzərində Qələbə" medalı ilə təltif edilib. Bu da onun İkinci Dünya müharibəsinin son mərhələsində birbaşa iştirakını sübut edir.

Bənzər əhəmiyyətli nümunə 1918-ci ildə Ağdaş rayonunun Qaradağlı kəndində doğulmuş Bayram Nəbiyevin döyüş yoludur. O, 1941-ci ilin oktyabrında – İkinci Dünya müharibəsinin ən qızğın, bütün dünyanın taleyinin zərbə altında olduğu ağır dövründə orduya çağırılmışdır. Müharibə illərində onun fəaliyyəti xüsusi əhəmiyyət kəsb edirdi, belə ki, Dövlət Təhlükəsizliyi Nazirliyinin zabitləri daxili təhlükəsizlik, diversiya ilə mübarizə və düşmənin arxa cəbhəsində



kəşfiyyat işləri kimi vacib tapşırıqları yerinə yetirirdilər. Bayram Nəbiyev həm də İkinci Dünya müharibəsinin son mərhələsində iştirak etmiş və "Yaponiya üzərində Qələbə" medalı ilə təltif olunmuşdur. Bu mükafat onun Kvantun ordusunun darmadağın edildiyi Mancuriya hücum əməliyyatında birbaşa iştirakının sübutudur. Bundan əvvəl, faşist Almaniyasının darmadağın edilməsində töhfəsinə görə, o, "1941–1945-ci illər Böyük Vətən Müharibəsində Almaniya üzərində Qələbə" medalı ilə təltif edilib ki, bu da onun iki – Qərb və Şərq cəbhələrində – iştirakını göstərir. 1951-ci il dekabrın 14-də hərbi xidməti başa vuran Bayram Nəbiyev Azərbaycan xalqının faşizm və yapon imperializmi üzərində qələbəyə mühüm töhfə verən nümayəndələrindən biri kimi tarixə düşüb.

Azərbaycanlıların Mancuriyanın azad edilməsində və İkinci Dünya müharibəsinin yekunlaşmasında töhfəsindən danışarkən xalqımızın daha bir layiqli nümayəndəsi – 1918-ci il təvəllüdlü İslam Qasımovu da xatırlamaq lazımdır. O, 1941-ci ildə orduya çağırılıb. Kiçik çavuş rütbəsində xidmət edən Qasımov cəsarət, dözümlülük və yüksək döyüş hazırlığı nümayiş etdirib. Onun döyüş xidmətləri komandanlıq tərəfindən yüksək qiymətləndirilib. O, 1944-cü il iyunun 18-də döyüşlərdə nümayiş etdirdiyi şəxsi cəsarət və qəhrəmanlığına görə "Cəsarətə görə" medalı ilə təltif olunub. Avropada müharibə başa çatdıqdan sonra, 1945-ci il mayın 9-da İslam Qasımov "1941–1945-ci illər Böyük Vətən Müharibəsində Almaniya üzərində Qələbə" medalı ilə təltif olunub ki, bu da onun faşist Almaniyasının son məğlubiyyətindəki töhfəsinin tanınması deməkdir. Lakin onun xidməti burada başa çatmamışdır. 1945-ci ilin avqustunda o, Mancuriya strateji hücum əməliyyatında iştirak edib, qəhrəmanlıq və cəsarətinə görə eyni vaxtda iki fərqli mükafat alıb: "Qırmızı Ulduz Ordeni" və "Yaponiya üzərində Qələbə" medalı. Hər iki mükafat 1945-ci il 30 sentyabr tarixində verilib. Bu mükafatlar onun Şərq kampaniyasında iştirakının vacibliyini göstərməklə yanaşı, İslam Qasımovun müharibənin sonuna qədər qərb və şərqdəki işğalçı qüvvələr üzərində son qələbədə iştirakını sübut edir.

Azərbaycan xalqının nasizm və yapon militarizmi üzərində qələbədəki töhfəsindən danışarkən, Azərbaycan xalqının daha bir layiqli nümayəndəsi və Mancuriyanın azad edilməsində və İkinci Dünya müharibəsinin bitməsində öz töhfəsini vermiş Abbas Nağıyevin adını xatırlamamaq mümkün deyil. O, 1921-ci ildə Azərbaycanın Tovuz rayonunda anadan olub. 1941-ci ildə - İkinci Dünya müharibəsinin ən ağır və dönüş nöqtəsi olan dövründə Qızıl Orduya çağırılıb. Baş əsgər Nağıyev döyüş əməliyyatlarında fəal iştirak edib. Şəxsi cəsarət və vəzifə borcunu vicdanla yerinə yetirməsinə görə, Abbas Nağıyev 1945-ci il mayın 9-da "1941–1945-ci illər Böyük Vətən Müharibəsində Almaniya üzərində Qələbə" medalı ilə təltif olunub. Bu tarix dünyanın taleyini müəyyən etmiş faşist Almaniyası üzərində Qələbənin simvolu olaraq, onun tarixi mübarizədə iştirakını tanımışdır.

1945-ci ilin yayında, Avropada döyüş əməliyyatları başa çatandan sonra baş əsgər Nağıyev Şərq cəbhəsinə göndərildi və burada Mancuriyaya strateji hücum əməliyyatında iştirak etdi. Bu tarixi döyüşdə iştirakına, igidliyinə və döyüş ustalığına görə 30 sentyabr 1945-ci ildə ona medal təqdim olundu.

Qeyd olunan döyüşlərdə iştirak edən azərbaycanlılar arasında 1916-cı ildə Azərbaycanın Qazax rayonunda anadan olmuş çavuş Qafar Səttarov da vardı. Onun döyüş yolu 1939-cu ildə başlamışdı. Döyüşçü İkinci Dünya müharibəsi illərində Leninqrad, Kalinin, Stalinqrad və Şimal-Qafqaz cəbhələrində iştirak edib, altı dəfə yaralanıb. 1943-cü ildə o, hava-desant alayında silah ustası olmuş, 1945-ci ilin avqustunda isə Zabaykal cəbhəsində Yaponiya ordusuna qarşı döyüşlərdə qəhrəmanlıq göstərmiş, Monqolustan və Mancuriya səhralarını keçərək Lyao-Xe çayını aşmışdır. Qəhrəmanlığına görə "Yaponiya üzərində Qələbə" medalı ilə təltif olunub.

Paralel olaraq, Şamaxıdan olan kapitan Kazım Sadıxzadə 2-ci Uzaq Şərq cəbhəsində bərpa işlərinin rəhbəri kimi qoşunların irəliləməsini və infrastrukturun bərpasını təşkil etmişdir. Bu da əməliyyatın uğuru üçün həlledici oldu. Ona əməyinə və döyüş xidmətlərinə görə II dərəcəli "Böyük Vətən Müharibəsi" ordeni verilib.

Qəhrəmanlar arasında tibb xidməti kapitanı Şura Əli qızı Əlizadə də var idi. O, Qara dəniz donanmasında İkinci Dünya müharibəsi cəbhələrindən sonra Sakit Okean Donanmasına köçürüldü və hərbi xəstəxanada yaralılara kömək etməyə davam etdi. Bu xidmətinə görə o da təltif olunub.

Eyni dövrdə, 1921-ci ildə Bakıda anadan olmuş kiçik çavuş Əzimzadə Təzxanım Əhədulla qızı Ussuri və İman çayları ətrafındakı dəmiryolu obyektlərində zenitçi kimi xidmət etmiş, mühüm kommunikasiya xətlərini qorumuşdur.

Polkovnik-leytenant Əbumüslüm Baxşiyev Kiyevdən Vyanaya qədər müharibənin ağır yolunu keçmiş, ən şiddətli döyüş bölgələrində çətinlikləri çiyinlərinə götürmüşdür. Avropada artıq Qələbə bayraqları ucaldığı zaman onun hərbi yolu Uzaq Şərqdə davam etmişdir. Monqolustana göndərilərək əfsanəvi 416-cı diviziya hissələri ilə birlikdə Böyük Xingan dağlarının keçilməsi çətin olan silsilələrini aşmış, Çin ərazisindən sürətli hücumda iştirak etmiş, gur axan Xuanxe çayını keçmiş və döyüşünü Daylyanda başa vurmuşdur. Onun Yaponiya militaristlərinin məğlub edilməsindəki töhfəsi layiqincə qiymətləndirilib. Baxşıyev yalnız qələbə ilə deyil, həm də igidliyini və peşəsinə sədaqətini təsdiqləyən mükafatlarla evinə qayıtmışdır.

Uzaq Şərqdə döyüşənlər arasında hava hücumundan müdafiə qüvvələrinin projektor alayının döyüşçüsü Fəridə Vəzirova da vardı. O, müharibəni Ussuriyskdə başa vurmuş və medalla təltif edilmişdir. Gəncədən olan hərbi sürücü, Qızıl Ordu əsgəri Hidayət Heydərli Qafqaz və Berlin əməliyyatlarında iştirak etdikdən sonra zenit-artilleriya polkunun tərkibində Uzaq Şərqə göndərilib və burada dövlət mükafatı alıb. Müharibənin ilk günlərindən cəbhədə döyüşən tibb bacısı və artilleriyaçı Mülayim Cəfərova 1945-ci ildə çinli döyüşçülərlə yan-yana döyüşlərdə iştirakına görə "Yaponiya üzərində Qələbə" medalı ilə təltif olunmuşdur.

Xalxin-Qol və İkinci Dünya müharibəsi döyüşlərinin iştirakçısı olmuş tibb xidməti mayoru İskəndər İsmayılov 1945-ci ilin yayında Zabaykal cəbhəsində sanitar xidmətə rəhbərlik edərək tibbi yardım və şəxsi heyətin hazırlığını təmin etmişdir. Tibb xidməti polkovnik-leytenantı Qədəmşah Sadıxov Moskva, Xarkov və Qafqaz döyüşlərini keçərək müharibəni Uzaq Şərqdə, Mancuriya və Koreya döyüşlərində başa vurub, "Yaponiya üzərində Qələbə" də daxil olmaqla bir neçə medalla təltif olunub.

Beləliklə, çox sayda azərbaycanlı talelərini ümumi düşmənə qarşı mübarizədə birləşdirib, igidlik və dözümlülük nümayiş etdirib. Onların adları və qəhrəmanlıqları qəhrəmanlıq və qələbə simvolu olaraq tarixdə əbədi qalacaqdır. Bakı tərəfindən cəbhənin həyati əhəmiyyətli neftlə təmin edilməsindən İkinci Dünya müharibəsi döyüşlərində fədakarlıq göstərən döyüşçülərin xidmətinə qədər Azərbaycanın töhfəsi möhtəşəm və taleyüklü olub.

# Bakı və Şamaxı Nəsimi festivalına hazırlaşır

**Sentyabrın 23-25-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə növbəti Nəsimi – şeir, mənəviyyat və incəsənət festivalı keçiriləcək.**



Festival sentyabrın 23-də və 25-də Bakının bir sıra mədəniyyət ocaqlarını, o cümlədən Heydər Əliyev Mərkəzini, İçərişəhəri, Atəşgah məbədini əhatə edəcək. Festival günlərində müxtəlif ölkələrdən alimlərin iştirakı ilə beynəlxalq konfrans, Nəsimi yaradıcılığına dair elmi sessiyalar, müzakirələr, sərgilərin təşkili, tamaşaların nümayişi, ədəbi-bədii gecənin, musiqi təqdimatlarının keçirilməsi nəzərdə tutulub.

Sentyabrın 24-də isə festival Şamaxıda davam edəcək. İlk dəfə Nəsimi Bağları Kompleksində keçiriləcək festival bu ərazinin müxtəlif məkanlarında təşkil olunacaq.

2018-ci ildən ənənəvi təşkil olunan Nəsimi Festivalı mədəniyyətlər və nəsil-




lər arasında yaradıcı dialoqu təşviq etməyi hədəfləyir. Həmçinin müasir incəsənət nümayəndələrinin Nəsiminin dərin irsi ilə əlaqə qurması, ənənəvi və müasir bədii təcrübələr arasında körpü yaratması üçün bir platforma rolunu oynayır.

***XQ***

# ABŞ Avropanı Hindistanın üstünə qaldırır




**ABŞ administrasiyası Avropa ölkələrinə müraciət edərək Hindistana qarşı daha sərt addımlar atmağa çağırıb. Axios və digər nüfuzlu mənbələrin məlumatına görə, Vaşinqton Avropadan Hindistana neft və qaz tədarükünü tam dayandırmağı, həmçinin əlavə gömrük rüsumları tətbiq etməyi tələb edir. Ağ Ev hesab edir ki, Avropa Hindistan məsələsində kifayət qədər prinsipial mövqe nümayiş etdirmir və bu, ABŞ-ın səylərinin zəifləməsinə gətirib çıxarır. Vaşinqtondakı yüksək vəzifəli məmurlardan biri vəziyyəti belə izah edib ki, avropalılar açıq şəkildə müharibənin sona çatmasını dəstəkləsələr də, əslində, ABŞ-ın iqtisadi və siyasi yükü təkbaşına daşımasına imkan verən siyasət yürüdürlər.**

ABŞ artıq bu istiqamətdə öz addımını atıb. Avqustun 27-dən Hindistandan idxal olunan məhsullara əlavə 25 faizlik gömrük rüsumu tətbiq edilib və ümumi rüsum dərəcəsi 50 faizə yüksəlib. Bu qərar Hindistanın Rusiya neft bazarında aktiv iştirakına cavab kimi izah olunur. Ekspertlərə görə, rüsumların Hindistana iqtisadi təsir göstərməklə yanaşı, həm də Avropaya açıq mesajdır: Vaşinqton kompromis axtarmır və sərt mövqeyini müttəfiqlərindən də tələb edir.

Avropa İttifaqı isə hələlik bu çağırışlara qoşulmaqda tərəddüd edir. Analitiklər bunun üç əsas səbəbini göstərirlər. Birincisi, Avropa ilə Hindistan arasında son illər güclənən strateji əməkdaşlığın itirilməsi riski mövcuddur. İkincisi, Avropanın enerji bazarında vəziyyət hələ də həssas olaraq qalır və əlavə məhdudiyyətlər ciddi fəsadlar törədə bilər. Üçüncüsü, Hindistanın sanksiyalar səbəbindən daha çox Rusiya və Çinlə yaxınlaşması Avropanın geosiyasi maraqlarına ziddir.

Bununla yanaşı, Avropa daxilində də yekdil mövqe yoxdur. Şərqi Avropa ölkələri ABŞ-ın xəttinə daha yaxın dayanmağa meyillidirlər, çünki onlar Rusiyaya qarşı sərt sanksiyaları prioritet sayırlar. Almaniya və Fransa kimi aparıcı ölkələr isə daha balanslı yanaşmanı üstün tutur, çünki Hindistanla əməkdaşlığı itirmək istəmirlər. Nəticədə Avropa İttifaqı daxilində ortaq qərara gəlmək çətinləşir. Müşahidəçilərin fikrincə, ABŞ-Avropa münasibətlərində bu məsələ yeni gərginlik ocağına çevrilə bilər. Əgər Brüssel Vaşinqtonun təzyiqlərinə tam qoşulsa, bu, Hindistanla əlaqələrin ciddi şəkildə soyumasına gətirəcək. Əks halda, ABŞ Avropanı qeyri-müttəfiq davranışda ittiham edə bilər. Hər iki halda transatlantik münasibətlərdə soyuqluq yaranması ehtimalı artır.

Hazırkı vəziyyət göstərir ki, Hindistan məsələsi təkcə iqtisadi deyil, həm də siyasi ölçülərə malikdir. ABŞ Avropadan tam həmrəylik gözləyir, Avropa isə öz maraqları ilə müttəfiqlik öhdəlikləri arasında çətin seçim qarşısındadır. Yaxın aylarda veriləcək qərarlar həm Qərbin daxili birliyini, həm də onun qlobal güc kimi mövqeyini müəyyənləşdirəcək.

Mümkün ssenarilər isə bir neçə istiqamətdə inkişaf edə bilər. Birinci ssenariyə görə, Avropa ABŞ-ın xəttinə tam qoşulur və Hindistana qarşı sərt sanksiyalar tətbiq edir. Bu halda Qərbin birliyi nümayiş etdirilsə də, Avropa ilə Hindistan arasındakı strateji münasibətlər ciddi zərbə ala bilər. İkinci ssenari Avropanın balanslaşdırılmış mövqeyi qoruyaraq yalnız qismən məhdudiyyətlərə razılaşmasıdır. Bu, Vaşinqtonla Brüssel arasında kompromis kimi görünə bilər, lakin ABŞ-ın gözləntilərini tam qarşılamaz. Üçüncü ssenari isə Avropanın ABŞ-ın təzyiqlərinə açıq şəkildə qarşı çıxmasıdır ki, bu da transatlantik münasibətlərin zəifləməsinə, Avropanın daha müstəqil siyasət yürütməsinə gətirib çıxara bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*Naxçıvan MR Arxivi – 100*

# Qədim diyarın yaddaş xəzinəsi



## *Ümummilli liderin bioqrafiyasının gənclik illəri bu arxivlə bağlı olub*

**Arxivlər mənsub olduğu xalqın keçmişini özündə yaşadan yaddaş xəzinəsidir. Burada bütöv bir millətin yaddaşı, kimliyi və taleyi qorunur. Naxçıvan Dövlət Arxivi də əsrin əvvəlindən bu günə qədər muxtar respublikanın taleyüklü yolunu əks etdirən zəngin materialları mühafizə edir. Bu il 100 illik yubileyi qeyd olunan bu müəssisə qədim diyarın tarixini, insanların həyatını, dövlətçilik yolunu və mədəni irsini gələcək nəsillərə çatdırmaqla yanaşı, həm də fəaliyyəti ilə ötən dövrdə milli yaddaşın ən etibarlı qoruyucusuna çevrilmişdir.**



İdarənin rəisi Mehman Məmmədovla söhbətimizə Naxçıvanda arxiv işinin yaranması dövrünə nəzər salmaqla başladıq. Müsahibimiz bildirdi ki, ölkəmizdə arxiv işinin təşkili 1920-ci ilin dekabrından başlayır. Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzaladığı “Vahid dövlət arxiv fondunun yaradılması və Xalq Maarif Komissarlığı yanında Mərkəzi Dövlət Arxivinin təşkili haqqında” dekreti rəhbər tutan Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi 1925-ci il dekabrın 13-də Naxçıvan MSSR-də Mərkəzi Dövlət Arxivinin yaradılması haqqında Qərar qəbul etmişdir.

Naxçıvan MSSR Mərkəzi Dövlət Arxivi Naxçıvan MSSR Xalq Maarif Komissarlığının tərkibində fəaliyyət göstərmiş, Azərbaycanda arxiv orqanlarının yenidən təşkili ilə əlaqədar 1930-cu ildə Naxçıvan MSSR Mərkəzi Dövlət Arxivi fondu təşkil edilmişdir. 1960-cı ilə qədər Arxiv İdarəsi və Mərkəzi Dövlət Arxivi Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının tabeliyində olmuşdur. XX əsrin 60-cı illərində muxtar respublikada bu təşkilat Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılaraq Nazirlər Sovetinin tabeliyinə verilmişdir.

M.Məmmədov qeyd etdi ki, hazırda idarənin tabeliyində muxtar respublika Dövlət Arxivi, 7 rayon və şəhər arxivi fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində XIX əsrin əvvəllərindən başlayaraq bu günümüzə kimi qiymətli sənədlər saxlanılır. XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid sənədlər Naxçıvan Qəza Polis İdarəsinə, Xalq Məktəbləri Müdiriyyətinə, Torpaq Şöbəsinə, Culfa, Şahtaxtı, Baş Noraşen gömrük məntəqələrinə, Culfa Post – Teleqraf Kontoruna, Ordubad Ali İbtidai məktəbinə aid sənədlərdir. Həmçinin Dövlət Arxivində 1918-20-ci illərdə ermənilərin Naxçıvan, Ordubad, Şərur-Dərələyəz qəzalarına hücumlarını, burada törətdikləri soyqırımı hadisələri haqqında məlumatları özündə əks etdirən sənədlər mühafizə olunur. Ümumilikdə, Naxçıvan Dövlət Arxivində 778 fond üzrə 500 minə yaxın kağız əsaslı sənəd, 4157 kinolent, 74 min 861 fotoşəkil qorunub saxlanılır.

Həmsöhbətimiz onu da vurğuladı ki, dahi şəxsiyyət Heydər Əliyevin də gənclik dövrünün bir neçə ili Naxçıvan Dövlət Arxivi ilə bağlı olub. Belə ki, arxivdə saxlanılan sənədlərə görə, 15 oktyabr 1941-ci il tarixdə 80 nömrəli əmrlə Naxçıvan MSSR Xalq Daxili İşlər komissarının razılığı ilə Əliyev Heydər Əlirza oğlu Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının Mərkəzi Dövlət Arxivinə elmi işçi vəzifəsinə qəbul olunub, 6 iyun 1942-ci il tarixli 121 nömrəli əmrlə Dövlət Arxivinin Məxfi şöbəsinə müdir vəzifəsinə təyin edilib.

Ulu öndər burada uzun illər Naxçıvan Arxiv İdarəsinə rəhbərlik etmiş Paşa Əhmədov, Kərim Bayramov və başqaları ilə çiyin-çiyinə çalışıb. Ümummilli lider Dövlət Arxivində işlədiyi müddətdə respublikada, o cümlədən Ordubad, Culfa, Əbrəqunus (indiki Culfa) rayonlarında arxivlərin qaydaya salınmasında, təşkilatlarda yaranmış sənədlərin arxivə təhvil verilməsində xüsusi xidmətlər göstərib. 1943-cü il iyulun 3-nə kimi Naxçıvan Dövlət Arxivinin məxfi şöbəsinin müdiri vəzifəsində çalışan dahi şəxsiyyət 14 iyul 1943-cü ildə Naxçıvan MSSR Xalq Komissarlar Sovetində ümumi şöbəyə müdir təyin olunub.

Dövlət Arxiv İdarəsinin rəisi bildirdi ki, ulu öndər Heydər Əliyev digər sahələrdə olduğu kimi, arxiv işinə də xüsusi diqqət yetirmişdir. Dövlət arxivlərinə xüsusi qayğı ilə yanaşan dahi şəxsiyyətin hakimiyyətə gəlişi ilə ölkəmizdə arxivlərin fəaliyyəti genişləndirilmiş, bu müəssisələr ixtisaslı kadrlarla təmin olunmuş, onların maddi–texniki bazası gücləndirilmişdir. Ulu öndərin bilavasitə rəhbərliyi ilə arxiv işinin yeni dövrün tələblərinə uyğunlaşdırılmasına start verilmiş, ölkəmizdə ilk dəfə 22 iyun 1999-cu ildə arxiv işi sahəsində fəaliyyəti tənzimləyən “Milli arxiv fondu haqqında” Qanun qəbul edilmişdir. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış bu qanun respublikamızda arxiv quruculuğunun gələcək istiqamətlərini, arxiv işinin planlı şəkildə inkişaf strategiyasını müəyyənləşdirmişdir.

Ümummilli liderin arxiv işinə diqqət və qayğısı bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının 2020-ci il 12 fevral tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020–2025-ci illər üçün Dövlət Proqramı” təsdiq olunub. Proqram ölkəmizdə arxiv işinin inkişafında yeni perspektivlər açıb. Belə ki, bu sahədəki qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması həyata keçirilir. Həmçinin xarici ölkələrdə saxlanılan Azərbaycanla bağlı sənədlərin ölkəmizə gətirilməsi, arxiv işinin modernləşdirilməsi, milli arxiv fondu sənədlərinin etibarlı mühafizəsi, informasiya axtarışı imkanlarının genişləndirilməsi və istifadəsi imkanlarının artırılması məqsədilə zəruri addımlar atılır.

Ölkə rəhbərinin bu sahəyə göstərdiyi qayğının nəticəsi olaraq bu gün muxtar respublikanın hər bir bölgəsində ən müasir texnologiya və avadanlıqlarla təmin olunmuş arxiv idarələri fəaliyyət göstərir. Həmçinin Naxçıvan regional “ASAN xidmət” mərkəzində əhaliyə arxiv xidmətləri də göstərilir. Bir sözlə, dövlət tərəfindən göstərilən bu qayğı arxivlərimizin daha da inkişaf etdirilməsinə, xalqımızın qədim və zəngin tarixinin layiqincə qorunmasına yeni imkanlar açır.

M.Məmmədov qeyd etdi ki, muxtar respublikanın dövlət arxivlərində Naxçıvanın son yüz illik tarixində baş verən ictimai–siyasi proseslər, sosial–iqtisadi və mədəni hadisələr haqqında çox zəngin və maraqlı baza mövcuddur. Təsadüfi deyil ki, regionda fəaliyyət göstərən elm və ali təhsil müəssisələrinin əməkdaşları, tələbə və müstəqil tədqiqatçılar üçün Naxçıvan arxivləri zəngin mənbə rolunu oynayır. Ötən əsrin həm əvvəllərində, həm də sonunda Azərbaycanın milli dövlətçilik tarixində gedən prosesləri, eyni zamanda, bu proseslərdə Naxçıvanın rolunu nəzərə alsaq, bununla bağlı arxiv sənədlərinin nə qədər qiymətli olduğunu görə bilərik.

Naxçıvan Dövlət Arxivi bu gün təkcə muxtar respublikanın deyil, ümumilikdə, ölkəmizin son 100 illik tarixinin dərindən öyrənilməsində mühüm mənbələrdən biridir. Bu zəngin mənbə müstəqilliyimizin bərpasından sonrakı dövrdən indiyədək onlarla elm insanına, tədqiqatçı və jurnalistlərə bu və ya digər mövzularda işləmək üçün geniş imkanlar açıb, yeni faktların üzə çıxarılmasında əvəzsiz rol oynayıb.

Ümid edirik ki, Naxçvan Dövlət Arxivi bu missiyasını bundan sonra da uğurla davam etdirəcək, tarixi keçmişimizin həm qorunmasına, həm də düzgün təbliğ olunmasına yeni töhfələr verəcək.

***Səbuhi HƏSƏNOV***
***XQ***
***Naxçıvan***

# Bakıdan Toqata 600 kitab

**Məşhur “Divanü lüğət-it-türk” əsərinin müəllifi, XI əsrin tanınmış filoloq və leksioqrafı Mahmud Kaşğarinin adını daşıyan Beynəlxalq Fond tərəfindən Türkiyənin Tokat vilayətinin Reşadiye rayonunda açılan kitabxanaya 600 kitab hədiyyə edilib.**

Fondun prezidenti, Azərbaycan Milli Məclisinin deputatı Cavanşir Feyziyevin dəstəyi, eləcə də türkiyəli yazıçı-ədəbiyyatşünas, rəssam Selvigül Şahinin vasitəçiliyi ilə hədiyyə olunan kitablar Reşadiyenin ən ucqar kəndlərindən olan Demirçilidə oxuculara təqdim edilib.

Zəfər Bayramı münasibətilə açılan, Demirçili Bələdiyyəsinin nəzdində fəaliyyət göstərəcək kitabxanaya hədiyyə edilən nəşrlər arasında Azərbaycan və ümumtürk ədəbiyyatı, mədəniyyəti, dili və tarixini əhatə edən nümunələr, eləcə də dünya ədəbiyyatı, bədii oxu materialları, riyazi biliklər və məntiqi zəkanı inkişaf etdirən kitablar yer alır.

Açılış mərasimində Demirçili Bələdiyyəsinin sədri Mustafa Şahin çıxışında kitabxananın rayonun mədəni-maarif həyatına önəmli töhfə verəcəyini bildirib. Çıxışında nəqliyyat vasitələrinin belə çətinliklə hərəkət etdiyi, yüksək dağlıq ərazidə yaşayan soydaşları üçün kitabxana qurmaq təşəbbüsünə yaxından kömək göstərənlərə və qardaş Azərbaycan ziyalılarına minnətdarlığını bildirib. Qeyd olunub ki, Mahmud Kaşğari adına Beynəlxalq Fond tərəfindən hədiyyə edilən nəşrlər arasında “Azərbaycandan Analoduya axan türkcə”, “Türkiyəni yoğuranlar”, “Türk xalqları ədəbiyyatı” kimi kitabların olması özü də “Bir millət, iki dövlət” kəlamının bariz nümunəsidir.



Onu da deyək ki, yeni açılan kitabxanada ən böyük otaqlardan biri Azərbaycana həsr edilib.

***XQ***

# Dünyanı heyran qoyan memarlıq inciləri

## Liverpul kafedralı

**İngiltərənin ən böyük, dünyanın isə 5-ci ən böyük dini abidəsi olan Liverpul kafedralı 1903-cü ildə Ciles Qilbert Skottun layihəsi əsasında neoqotik üslubda inşa edilib.**

Bu dəfə isə qalib Frederik Qibberd oldu. O, ultramüasir üslubda bir məbəd tikməyi təklif etdi.

Sahəsi 9687 kvadratmetr olan kilsənin uzunluğu 188, hündürlüyü isə 101 metrdir.



Anqlikan kilsəsi kimi də tanınan binanın tikinti işləri 1970-ci illərdə başa çatıb. Şəhərin əsas katolik məbədini tikmək üçün müsabiqə elan edilib. Müsabiqənin qalibi isə məşhur memar Edvin Laçens olub. Memarın layihəsinə əsasən kilsə Vatikanın Müqəddəs Pyotr soborundan sonra dünyanın ikinci ən böyük məbədi olmalı idi. Lakin tikinti işləri uzandığı və İkinci Dünya müharibəsindən sonra tamamilə dayandırıldığı üçün layihə müəllifləri bu iddialı fikirdən imtina etməli oldu. 1959-cu ildə yeni bir memarlıq müsabiqəsi elan edildi.

Kafedralın qülləsindəki zəngin çəkisi 31 tondur. Konik forması ilə seçilən abidənin yuxarı hissəsi tamamilə şüşədən ibarətdir. Kafedralın qeyri-ənənəvi planlaşdırması və keşişin kürsüsünün dairəvi zalın mərkəzində yerləşməsi məbədi daha çox arena və ya konsert meydançasına bənzədir. Kilsənin interyerində olan mebellər də xüsusi olaraq hazırlanıb. Şəhər yepiskopunun kafedrası rolunu oynayan məbəd kilsə kimi fəaliyyət göstərir. Məhz bu xüsusiyyətlərinə görə, kafedral beynəlxalq dizayn müsabiqəsində müxtəlif mükafatlara layiq görülüb.

## Fil qülləsi



1997-ci ildə Banqkokun şimalındakı Çatuçak rayonunda dünyanın ən böyük fil formalı binası inşa olunub.

Əsrlər boyu Tayland cəmiyyətində geniş rol oynayan fillər ölkənin memarlıq üslubunda da öz əksini tapıb. LEGO kubiklərdən yığılmış konstruksiyaya bənzəyən unikal tikilinin ideya müəllifi mühəndis və daşınmaz əmlak maqnatı Arun Çayzari ilə memar Onqard Satrabhandhu olub. Şəhərin müxtəlif yerlərindən görünən nəhəng Fil qülləsi bir neçə dəfə ən məşhur göydələnlərin reytinqinə daxil edilib, “CNN” onu dünyanın 25 böyük göydələni siyahısına əlavə edib, 2017-ci ildə isə qüllə 5-ci yerə layiq görülüb. Buna baxmayaraq, “Architectural Digest” jurnalı onu “dünyanın ən çirkin 31 göydələni” sırasına daxil edib. Belə ki, jurnalın əməkdaşları Fil qülləsinin Tayland memarlığına töhfə vermədiyini qeyd edib.

32 mərtəbəli “Fil”in hündürlüyü 110 metrdir. Üç qülləni özündə birləşdirən tikilidə A, B və C blokları mövcuddur. Burada mənzillər bir-biri ilə üfuqi zolaq vasitəsilə birləşir. Qüllələrdən ikisi “Fil”in ayaqlarını təşkil edir, üçüncüsü isə gövdəsidir. Binanın ümumi görünüşünə incəlik qatan əlavə detallar da var. Xortumun hər iki tərəfindəki qabarıq hissədə şirkətin ofisləri yerləşir. Filin göz hissəsində iki nəhəng dairəvi pəncərə, qulaq hissəsində eyvanlar, “quyruğ”unda isə tünd şüşə ilə üzlənmiş 20 mərtəbəli qapalı otaqlar var.

## Uoker İncəsənət Qalereyası



Birləşmiş Krallığın ən böyük sənət qalereyalarından biri Uoker İncəsənət Qalereyası yalnız Liverpulun deyil, ölkənin incəsənət həyatında mühüm yer tutur.

Məşhur incəsənət abidəsi Viktoriya dövrü və prerafaelit sənətinin ən nadir kolleksiyalarından birinə evsahibliyi edir. 1877-ci ildə açılan bu qalereya 130 ildən çoxdur ki, şəhərin ən görkəmli sənət kolleksiyasını özündə cəmləşdirir. Qalereyada Renessans dövrünün şah əsərləri, Tyudor portretləri, eləcə də Devid Hokni, Lüsyen Freyd və Bricit Raylinin müasir sənət əsərləri nümayiş olunur.

Neo-klassik üslubda inşa edilən ekspozisiya iki mərtəbədən ibarətdir. Kolleksiya 13-cü əsrdən bu günə qədər olan dövrü əhatə edir. Burada rəsm əsərləri ilə yanaşı, şüşə, metal və mebel kimi fərqli sənət nümunələrinə də rast gəlmək mümkündür. Qalereyada İtaliya Renessans ustalarının, həmçinin Nikola Pussen, Piter Paul Rubens, Rembrandt və Bartolome Esteban Murilyo kimi məşhur rəssamların əsərləri sərgilənir. İngiltərədəki ən böyük heykəltəraşlıq kolleksiyası da məhz burada yerləşir. Modernizm bölməsində isə Kleris Kliff, Lüsyen Freyd, Rocer Fray və Lori Freyddin əsərləri nümayiş etdirilir. Muzeydə həmçinin iki dünya müharibəsi sənətinə həsr olunmuş xüsusi bölmə də mövcuddur. Qalereyanın interaktiv bölməsi Viktoriya dövründən müasir Britaniya incəsənətinə keçidi izləməyə imkan verir. Muzeyin mərkəzi mərmər zalında yerləşən kafedə isə əsl ingilis çayı içmək mümkündür. Hazırda Uoker İncəsənət Qalereyası Birləşmiş Krallığın ən populyar, görməli yerlərindən biri hesab olunur.

***Hazırladı:***
***Arzu ƏLİYEVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 185 (30879) 2 sentyabr 2025-ci il, çərşənbə axşamı

# Gəncənin III MDB Oyunlarına son hazırlığı

## Azərbaycan yenidən dünyanın diqqət mərkəzində olacaq

**Azərbaycan təkcə tarixi və mədəniyyəti ilə deyil, dostluğun, həmrəyliyin, mədəniyyətlərin qovuşduğu bir mərkəz, beynəlxalq idman tədbirlərinin keçirildiyi möhtəşəm məkan kimi tanınır. Bakı, Gəncə, Naxçıvan, Sumqayıt, Mingəçevir və digər şəhərlər təkcə turistləri deyil, dünyanın dörd bir yanından gələn idmançıları və azarkeşləri də özünə cəlb edir. İdman dünyasının xəritəsində xüsusi yer tutan bu diyar idmanı həyat tərzi olaraq təqdim edir və insanlar arasında körpü salır, millətləri birləşdirir.**

Tarixlə müasirliyin, mədəniyyətlə idmanın bir araya gəldiyi Vətənimiz növbəti böyük hadisəyə – III MDB Oyunlarına evsahibliyi etməyə hazırlaşır. Müxtəlif ölkələrdən gələn idmançılar burada güclərini sınayacaq, birliyi və dostluğu nümayiş etdirəcəklər. Bu oyunlar Azərbaycan üçün həm də bir vitrin olacaq. İdman arenaları təkcə yarışlarla deyil, həm də mədəniyyətlə, sevgi və sülh mesajları ilə dolacaq. Bakıdan Gəncəyə, Şəkidən Naxçıvana qədər Azərbaycanın hər guşəsi bu tədbirin ruhunu hiss edəcək. MDB Oyunları Azərbaycanda yeni bir səhifə açacaq – bu səhifə birliyin, güvənin və ortaq gələcəyin tarixidir və bu tarixin adı Azərbaycanla birgə yazılacaq.

Bu il sentyabrın 28-dən oktyabrın 8-dək növbəti böyük idman yarışının keçirilməsi üçün bir neçə şəhər və rayon seçilsə də, MDB Oyunlarının açılış və bağlanış mərasimləri, həmçinin əsas oyunlar Gəncədə baş tutacaq. Bütün bunlar nəzərə alınaraq şəhər stadionunun tikintisində işlər sürətləndirilib. Stadionun ərazisində köməkçi məşq meydançaları və Futbol Akademiyası binası tikilib. Yeni layihəyə görə stadionun ərazisi genişləndirilərək 10,4 hektara çatdırılıb. Nəqliyyat vasitələrinin təhlükəsiz giriş-çıxışı və parklanması ilə birlikdə idman arenasının ümumi sahəsi 12 hektardan çoxdur.

Gəncədə inşa olunan İdman Sarayı bütövlükdə Qafqazda nadir idman kompleksi hesab olunur. Ümumiyyətlə, belə nəhəng idman qurğularının yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana marağının artırılması və idmanın kütləviliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu layihə, eyni zamanda, ölkəmizin III MDB Oyunlarının yüksək səviyyədə keçirilməsi üçün gördüyü işlərdən biridir. III MDB Oyunları eyni zamanda tarixi Azərbaycan şəhəri olan Gəncənin timsalında ölkəmizin mədəniyyətini, tarixini, idman təcrübəsini təqdim etmək üçün fürsət yaratmış olacaq.

Müxtəlif idman yarışlarının keçiriləcəyi Gəncə şəhər stadionunun inşası, ilk növbədə, uşaqlar və yeniyetmələr arasında futbola olan marağı daha da artıracaq, futbolla məşğul olmaq istəyənlərə geniş imkanlar yaradacaq. Bölgələrimizdə yeni idman komplekslərinin yaradılması, köhnələrinin əvəzinə müasir idman qurğularının inşası ümumilikdə ölkəmizdə idmanın kütləviliyini təmin etməklə yanaşı, gənc nəslin sağlam yetişməsi baxımından da böyük rol oynayır.

Prezident İlham Əliyev III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncamı ötən il iyulun 10-da imzalayıb. Ölkə başçımızın bu məsələlərə xüsusi həssaslıqla yanaşmasının nəticəsidir ki, bu vaxta qədər ölkəmizin evsahibliyi etdiyi bütün idman tədbirləri ən yüksək səviyyədə təşkil olunub. Azərbaycanın növbəti böyük idman yarışına evsahibliyi etməsi də idman ölkəsi kimi əldə etdiyimiz etimadın nəticəsidir.



III MDB Oyunlarına hazırlıqlar son mərhələdədir. Oyunların yüksək səviyyədə təşkili üçün aidiyyatı qurumlar koordinasiyalı fəaliyyət göstərirlər. Bu mötəbər yarışlarda ölkəmiz həm yarışların təşkilatçısı, həm də fəal iştirakçısı olacaq. Ev sahibi olacaq Gəncə — 2025-ci ilin "İdman paytaxtı" elan edilib və yarışların mərkəzi şəhəri olacaq. Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndi — ümumilikdə 7 şəhərdə 12 idman məkanı aktiv istifadə ediləcək. İdmançılar 23 müxtəlif peşəkar idman növü üzrə medallar uğrunda mübarizə aparacaqlar. Onların arasında güləş (sərbəst, yunan-Roma, qadın), boks, cüdo, taekvondo, könüllü və digər idmanlar (badminton, voleybol 3×3, futbol U 16, üzgüçülük, stend atıcılığı, çövkən, batut gimnastikası, kamandan oxatma, stolüstü tennis və s.) var.

Qeyd edək ki, 23 idman növü üzrə 1 659 idmançı, 2 385 nəfərlik nümayəndə heyəti qeydiyyata alınıb. Ümumilikdə, 5500-ə qədər idmançının yarışda iştirak edəcəyi planlaşdırılır və MDB olmayan ölkələrin nümayəndələri də dəvət əsasında qatılacaqları gözlənilir. Təxminən, 246 medallar dəsti oynanılacaq, bunlardan ən çox – 40 medal – üzgüçülük idmanında olacaq.

Nəticə olaraq deyə bilərik ki, III MDB Oyunları 2025 yarışları Azərbaycanın beynəlxalq idman aləmində nüfuzunu daha da artıracaq. Ev sahibliyi Azərbaycan üçün idman, mədəniyyət və diplomatiya sahəsində daha bir strateji uğur olacaqdır.

***Nurəngiz ADILQIZI***
***XQ***

## İDMAN

### "Zirə" turun güclüsü olub



**Ötən bazar günü futbol üzrə Misli Premyer Liqasında III tura yekun vurulub. Günün ilk görüşündə "Qarabağ" Şamaxı şəhər stadionunda "Karvan-Yevlax"ın qonağı olub. Ağdamlılar rəqibin qapısından 2 cavabsız top keçirib.**

Günün digər oyununda isə debütant "İmişli" səfərdə "Sabah"la qarşılaşıb. Görüş qonaqların 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Xatırladaq ki, turun əvvəlki matçları– "Sumqayıt" – "Şamaxı" – 1:1, "Turan Tovuz" –"Neftçi" – 1:0, "Zirə" – "Kəpəz" 5:0, "Araz-Naxçıvan" –"Qəbələ" 2:1 hesabı ilə başa çatıb.

### Gimnastlarımızın 7 medalı



**Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, Belarusun Mogilyov şəhərində idman gimnastikası üzrə Açıq kubok təşkil olunub.**

Yarışda ölkəmizi kişilər arasında Rəsul Əhmədzadə, qadın idmançıların mübarizəsində isə Dəniz Əliyeva, Nazənin Teymurova, Aytən Məmmədova, Leyla Məmmədzadə, Albina Əliyeva, Aynaz Məcidzadə və Xədicə Abbaszadə təmsil ediblər.

Gimnastlarımız uğurla çıxış edərək ölkəmizə 7 medalla qayıdıblar. Albina Əliyeva qızıl medal (dayaqlı tullanma), Rəsul Əhmədzadə 1 gümüş (sərbəst hərəkətlər), 2 bürünc (dəstəli at, paralel qollar), Dəniz Əliyeva gümüş (dayaqlı tullanma) və bürünc (sərbəst hərəkətlər), Leyla Məmmədzadə isə bürünc medal (dayaqlı tullanma) qazanıb.

### Dünya çempionatına 2 lisenziya



**Azərbaycanın paragüllə atıcıları dünya çempionatına 2 lisenziya qazanıblar. Bu barədə Milli Paralimpiya Komitəsindən məlumat verilib.**

Serbiyanın Novi Sad şəhərində keçirilən Beynəlxalq Qran-pridə təmsilçilərimiz Kamran Zeynalov və Aybəniz Babayeva yüksək nəticə göstərərək mundiala lisenziyanı təmin ediblər.

K.Zeynalov 10 metr məsafədən atəş açmada (P1) qızıl medal qazanıb, 50 metr məsafədə (P4) isə 4-cü yeri tutub. Paris-2024 Yay Paralimpiya Oyunlarının iştirakçısı olan Aybəniz Babayeva isə yarışı müvafiq olaraq 4-cü və 8-ci pillələrdə başa vurub.

Qeyd edək ki, dünya çempionatı 2026-cı il sentyabrın 3-dən 14-nə qədər Cənubi Koreyanın Çhanvon şəhərində keçiriləcək.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Beynəlxalq universitetlərarası müsabiqənin finalı

**Mərkəzi Bankın tərəfdaşlığı, ICPC Fondunun təşkilatçılığı, ADA Universitetinin ev sahibliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə "ICPC Azərbaycan" icmasının birgə əməkdaşlığı və "PAŞA Holdinq"in dəstəyi ilə Bakıda ilk dəfə keçirilən Beynəlxalq Universitetlərarası Proqramlaşdırma Müsabiqəsinin (ICPC) 49-cu dünya finalının açılış mərasimi olub.**

Heydər Əliyev Mərkəzində təşkil edilən tədbirdə ICPC Fondunun prezidenti Vilyam B.Pouçer və ICPC 49-cu dünya finalının direktoru Fuad Hacıyev qonaqları salamlayaraq, müsabiqə iştirakçılarına uğurlar arzulayıblar.

Tədbirdə çıxış edən ADA Universitetinin rektoru, professor Hafiz Paşayev və rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov ICPC 49-cu dünya finalının ölkəmizdə keçirilməsinin əhəmiyyətindən və yaradacağı imkanlardan danışıblar. Mərkəzi Bankın sədri Taleh Kazımov dünya finalının Bakıda keçirilməsinin ölkəmizin texnoloji tərəqqisinin bariz göstəricisi və beynəlxalq əməkdaşlığa açıqlığının təzahürü olduğunu vurğulayıb.






Daha sonra tədbirdə ICPC tərəfindən tərəfdaşlara və ICPC icmasının üzvlərinə mükafatlar təqdim olunub.

***XQ***



## "Naxtel "MMC abunəçilərinin nəzərinə!

2025-ci il dekabrın 1-dən etibarən "Naxtel" MMC tərəfindən telekommunikasiya xidmətlərinin göstərilməsi dayandırılacaqdır.

"Naxtel" MMC abunəçilərinin hazırda istifadələrində olan nömrələrin onların adlarında saxlanılması və mobil rabitə xidmətlərindən yararlanmağa davam edə bilmələri üçün 2025-ci il oktyabrın 1-dən dekabrın 1-dək ölkədə fəaliyyət göstərən digər mobil rabitə operatorlarına (Azercell, Bakcell və Nar) müraciət etmələri tövsiyə olunur.

Qeyd edilən tarixədək yuxarıda adları çəkilən mobil operatorların şəbəkəsinə keçid etməyən abunəçilərin nömrələri onların istifadəsindən çıxarılacaq (ləğv ediləcək) və həmin nömrələr üzrə mövcud müqaviləyə xitam veriləcəkdir. Müqaviləyə xitam verilməsi ilə nömrədə mövcud olan və fərdi qaydada aktiv edilmiş xidmət(lər) deaktiv ediləcək, SIM kartın balansında qalan istifadə edilməmiş vəsaitlər silinəcəkdir (sıfırlanacaqdır).

"Naxtel" MMC qeyd olunan tarixədək istifadə edilməmiş və silinmiş (sıfırlanmış) vəsaitlərin geri qaytarılması və ya bu vəsaitlər üzrə hər hansı bir məbləğdə kompensasiya ödənilməsinə görə məsuliyyət daşımır və belə tələblərdən imtina etmək hüququna malikdir.

Dəyişikliklər haqqında ətraflı məlumatı "Naxtel" MMC-nin telefon mərkəzindən (299) əldə etmək mümkündür.



### Yay təslim olmaq istəmir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətdən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi səhər cənub-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 20-24, gündüz 30-35 dərəcə isti olacaq. Atmosfer təzyiqi 755 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 35-40 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 20-25, gündüz 34-39, dağlarda gecə 13-18, gündüz 20-25 dərəcə isti olacağı ehtimal edilir.

***Q.ƏLİYEV***
***XQ***



*Abşeron rayon Hökməli Bələdiyyəsi tərəfindən Hikmət Mirabdulkərim oğlu Ağayevin adına verilmiş fərdi yaşayış evi tikmək üçün 0.10 hektar torpaq sahəsinin 18 avqust 2003-cü il tarixli 98 saylı qərarı itdiyi üçün etibarsız sayılır.*




BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3485
SİFARİŞ 1735
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00